AEM

ISSN: 2706-6185
e-ISSN: 2709-4197

# Qədim Diyar

Beynəlxalq Elmi Jurnal

## Ancient Land

International Scientific Journal

AZƏRBAYCAN RESPUBLİKASI

THE REPUBLIC OF AZERBAIJAN

# QƏDİM DİYAR

**Beynəlxalq Onlayn Elmi Jurnal**

**Cild: 6 Sayı: 8**

# ANCIENT LAND

**International Online Scientific Journal**

**Volume: 6 Issue: 8**

**Bakı – Baku**
**2024**

Jurnal 31.01.2012-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir
Reyestr №3534

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
31.01.2012.
Registration No. 3534

**Redaksiyanın ünvanı**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
Az1073, Baku,
Matbuat Avenue, 529,
“Azerbaijan” Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 99 806 67 68
+994 99 808 67 68
+994 12 510 63 99

**e-mail**
qedim.2012@aem.az

## Beynəlxalq indekslər / International Indices

**ISSN: 2706-6185**
**e-ISSN: 2709-4197**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

## Təsisçi və baş redaktor

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
https://orcid.org/0000-0002-5274-0356

## Redaktor

**Prof. Dr. Nigar VƏLİYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
nigar_veliyeva@yahoo.com

## Redaktor köməkçiləri

**PhD Könül HƏSƏNOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
konul_salmanova@mail.ru

**Tədqiqatçı Nəhayət HÜSEYİNLİ**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
nehayet.huseynli@gmail.com

## Dillər üzrə redaktorlar

**Prof. Dr. Aynel MƏŞƏDİYEVA**, AMEA, Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Gülçöhrə ALIYEVA**, Azərbaycan Dövlət Dəniz Akademiyası / Azərbaycan

## Elmi sahələr üzrə redaktorlar

**Prof. Dr. Rafail ƏHMƏDLİ,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Firuzə ABBASOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zərövşən BABAYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Fazil BAXŞƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Təhminə ƏLİYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Salatın HACIYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

## REDAKSİYA HEYƏTİ

**Prof. Dr. Anar İSGƏNDƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Abdulkadir GÜL**, Ərzincan Binalı Yıldırım Universiteti / Türkiyə
**Prof. Dr. Əsməd MUXTAROVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Vaqif SOLTANLI**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Ələmdar ŞAHVERDİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Yaqub BABAYEV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. İntiqam CƏBRAYILOV**, Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Dr. Nasiba SABİROVA**, Urgenc Dövlət Universiteti / Özbəkistan
**Prof. Dr. Afaq MƏMMƏDOVA**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Adil BAXŞƏLİYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Seyfəddin RZASOY**, AMEA Folklor İnstitutu / Azərbaycan
**Prof. Dr. Xəzər HÜSEYNOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Mübariz SÜLEYMANLI**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Sərvər ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mönsüm ALIŞOV**, “İdrak” liseyi / Azərbaycan
**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Mehriban İMANOVA,** Naxçıvan Dövlət Univetsiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Taleh XƏLİLOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Mübariz ƏSƏDOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Fərqanə ƏLİYEVA**, DİN-nin Polis Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Lyudmila CAVADOVA**, İqtisadiyyat və Hüquq üzrə Pedaqoji Kollec / Rusiya, Dağıstan Respublikası
**Assoc. Prof. Dr. Şəhla ƏHMƏDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Rəşad SADIQOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

## Founder and Editor-in-Chief

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
https://orcid.org/0000-0002-5274-0356

## Editor

**Prof. Dr. Nigar VALIYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
nigar_veliyeva@yahoo.com

## Assistant editors

**PhD Konul HASANOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
konul_salmanova@mail.ru

**Researcher Nahayat HUSEYINLI**, Azerbaijan Science Center / Azerbaijan
nehayet.huseynli@gmail.com

## Language editors

**Prof. Dr. Aynel MASHADIYEVA**, ANAS, Institute of Linguistics named after Nasimi / Azerbaijan
**Assoc. Prof. Dr. Gulchora ALIYEVA**, Azerbaijan State Marine Academy / Azerbaijan

## Editors in scientific fields

**Prof. Dr. Rafail AHMADLI**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Firuza ABBASOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Zarovshan BABAYEVA**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Fazil BAKHSHALIYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Tahmina ALIYEVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Salatin HAJIYEVA**, Nakhchivan State University / Azerbaijan

## EDITORIAL BOARD

**Prof. Dr. Anar ISGANDAROV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Abdulkadir GUL**, The University of Arzinjan Binali Yildirim / Turkey
**Prof. Dr. Asmad MUKHTAROVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Vagif SOLTANLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Alamdar SHAHVERDIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Yagub BABAYEV,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Intigam JABRAYILOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Nasiba SABIROVA**, Urgench State University / Uzbekistan
**Prof. Dr. Afag MAMMADOVA,** Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Adil BAKHSHALIYEV**, Sumgait State University / Azerbaijan
**Prof. Dr. Seyfaddin RZASOY**, ANAS Institute of Folklore / Azerbaijan
**Prof. Dr. Khazar HUSEYNOV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Mubariz SULEYMANLI**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Sarvar ABBASOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Monsum ALISHOV**, Idrak Lyceum / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, ANAS, Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Assoc. Prof. Dr. Mehriban IMANOVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Taleh KHALILOV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinc RUINTAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Mubariz ASADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan

**Assoc. Prof. Dr. Fargana ALIYEVA**, Police Academy of the Ministry of Internal Affairs / Azerbaijan
**Assoc. Prof. Dr. Lyudmila JAVADOVA**, Pedagogical College on Economy and Law / Russia, The Dagestan Republic
**Assoc. Prof. Dr. Shahla AHMADOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Astrakhan State University / Russia
**Assoc. Prof. Dr. Rashad SADIGOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan

https://doi.org/10.36719/2706-6185/38/7-10

**Nailə Mamayeva**
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
psixologiya üzrə fəlsəfə doktoru
nani1964@list.ru

# Azərbaycanda ailənin formalaşmasının sosial-psixoloji problemləri

**Xülasə**

Ailə mürəkkəb sosial hadisə kimi insan fəaliyyətinin demək olar ki, bütün aspektlərini əhatə edir və sosial praktikanın vacib səviyyələrinə çatır. Ailə dəyərlərinin yenidən nəzərdən keçirilməsi və qiymətləndirilməsi cəmiyyətimizin aktuallığını təşkil edir, eyni zamanda ənənəvi ailə dəyərləri nəinki transformasiyaya məruz qalır, hətta bəzi aspektlərində dəyərsizləşir. Evlənən və birgə həyata addım atan insanlar, nə qədər fərqli olsalar da, bir-birlərindən gözləntilərini və tələblərini əlaqələndirməlidirlər. Ailə dəyərlərinin ortaq iyerarxiyası elə qurulmalıdır ki, o, hər iki həyat yoldaşı üçün məmnunluq gətirən, həyat keyfiyyətini yaxşılaşdıran çevik və effektiv mübarizə sisteminə çevrilsin.

***Açar sözlər:*** *dəyərlər, dəyər istiqamətləri, ailə, evlilik, reproduktiv münasibətlər, gənclik, müasir cəmiyyət, İnstrumental və Terminal dəyərlər, müasir gənclərin sosial istiqamətləri, gənclərin həyat dəyərlərinin seçimi, ailədə sosial-psixoloji böhran*

**Naila Mamayeva**
Azerbaijan State Academy of Physical Education and Sports
Doctor of Philosophy in Psychology
nani1964@list.ru

# Social and Psychological Problems of Family Formation in Azerbaijan

**Abstract**

The family as a complex social phenomenon covers almost all aspects of human activity and reaches important levels of social practice. Restoring and assessing family values is an urgent task in our society, but at the same time, traditional family values are not only transformed, but also in some respects devalued. People who start a life together and get married, no matter how different they may be, are aware of their expectations and requirements for each other. The hierarchy of family values must be jointly established so that it regulates flexible and effective struggle that brings productivity and better quality for both spouses.

***Keywords:*** *values, value orientations, family, marriage, reproductive relations, youth, modern society, Instrumental and Terminal values, social trends of modern youth, choice of life values of youth, socio-psychological crisis in the family*

## Giriş

### Müasir ailənin sosial-psixoloji problemləri

Ailə, Azərbaycan cəmiyyətində hər bir fərdin və ümumilikdə həyatın təməl daşı olmuş və bu gün də belə qalmaqdadır. Ailənin uzun tarixi inkişafı boyunca illər keçdikcə maddi, psixoloji, fizioloji, estetik və mənəvi dəyərləri də dəyişmişdir.

Bir çox nəsillərin şüurunda ailə ənənələri qəbul olunmuş, ailə üzvlərinin həyat tərzi və ünsiyyət qaydalarında ifadə edilən mənəvi atmosfer formalaşmışdır. Ailə ənənələri az olsa da, onların mövcudluğu vacibdir. Ənənələrin nəsildən-nəslə ötürülməsi özlüyündə qiymətlidir, çünki o, uşaq, valideyn, nənə və baba nəsillərini birləşdirir.

Müasir tendensiyalar belədir ki, ailədə adət-ənənələr getdikcə daha az qorunur, lakin əvəzinə yaranan ümumi mədəni-sosial dəyərlər bir şox hallarda müsbət olmur. Ailə dəyərlərinin yenidən

Creative Commons Attribution-NonCommercial 4.0 International (CC BY-NC 4.0)

nəzərdən keçirilməsi və qiymətləndirilməsi cəmiyyətimizin aktuallığını təşkil edir, eyni zamanda ənənəvi ailə dəyərləri nəinki transformasiyaya məruz qalır, hətta bəzi aspektlərində dəyərsizləşir.

"Dəyər" anlayışı müxtəlif elmlər tərəfindən öyrənilir və izah olunur. Belə ki, fəlsəfə, sosiologiya, psixologiya, mədəniyyətşünaslıq və s. elmlər bu anlayışı özünəməxsus nöqteyi-nəzərdən araşdırır. Obyektiv və subyektiv dəyərləri ayırmaq üçün aşağıdakı kateqoriyalara üz tuturuq: yaxşı-pis, gözəl-çirkin, həqiqət-yalan, ədalət-ədalətsizlik və s.

Xüsusi ədəbiyyatın öyrənilməsi bizə "dəyərlər" anlayışının belə bir dəqiq tərifini təqdim edir: çoxmənalı və mühüm prinsiplər ki, bunlar insanın gündəlik həyatda qərar qəbul edərkən özünəməxsus şəkildə üzə çıxır.

Ailə mürəkkəb sosial hadisə kimi insan fəaliyyətinin demək olar ki, bütün aspektlərini əhatə edir və sosial praktikanın vacib səviyyələrinə çatır: maddidən mənəviyə, fərddən ictimai-tarixi sahəyə qədər. Tədqiqatın keçirilməsi belə bir imkan yaradır ki, ailə strukturunda bir-biri ilə əlaqəli üç münasibət bloku şərti olaraq müəyyən edilir: 1) qohumluq; 2) iqtisadi; 3) mənəvi, psixoloji və əxlaqi-estetik. Yalnız tamlıqda və vəhdət şəklində qəbul edilib sadalanan əlaqələrin cəmi ailəni xüsusi sosial cəmiyyət kimi müəyyən edir.

Cəmiyyətdəki böhran hadisələri ilə ailə böhranları bir-biri ilə sıx bağlıdır və ümumi köklərə malikdir. Cəmiyyət ailə daxilində kök salan və ailədə böyüyən mənəvi-əxlaqi dəyərlər əsasında formalaşır. İnsan ailədən ictimaiyyətə elə keyfiyyətlər ötürür ki, bəzi hallarda yaradır və qurur, yaxud dağıdır və öldürür (Shurova, 2020, s. 80).

Ailə dəyərlərinin öyrənilməsi və gənc ailənin sosial tərbiyəsi məsələləri müəlliflər üçün elmi maraq kəsb edən valideynlik sahəsidir. Burada valideyn hissləri, sosial rollar, uşaq-valideyn münasibətləri, uşaqlara bağlılıq, valideynlik tərzi kimi bir-biri ilə əlaqəli hadisələr sistemi daxil edilə bilər. Bu sahədə digər ailə dəyərləri ilə yanaşı, ənənəvi cəmiyyətdə ailənin əsas göstəricisi olan uşaqlar da xüsusi rol oynayır (Belyayeva, 2008, s. 175).

E. B. Rıbak hesab edir ki, cəmiyyətdə uşaqların tərbiyəsi xüsusi əhəmiyyət kəsb edir. Təhsil sözünün mahiyyəti – sosial tərbiyə deməkdir və bu da dəyər kimi qəbul olunur. Məhz sosial təhsil sistemində, "əhalinin geniş kütlələrinin maarifləndirilməsi", gənclər arasında müəyyən mentalitetin, mənalı həyat oriyentasiyalarının və ideallarının ən mühüm sosial-mədəni prinsip ideallarını canlandırmaq mümkündür (Rybak, 2007, s. 120).

N. N. və A. N. Obozovlar tərəfindən keçirilən tədqiqat işi nəticəsində məlum oldu ki, evlilik münasibətlərində dörd müstəqil səviyyə fərqləndirilir: *psixofizioloji, psixoloji, sosial-psixoloji və sosial-mədəni.*

1. *Psixofizioloji səviyyə* – cütlüyün fizioloji uyğunlaşması deməkdir.
2. *Psixoloji səviyyə* – cütlüyün koqnitiv və emosional-iradi vəziyyəti, həyat yoldaşlarının şəxsi sferaları, eləcə də xarakter nəzərə alınır.
3. Ailə münasibətlərinin *sosial-psixoloji səviyyəsinə* ünsiyyət daxildir. Həyat yoldaşları onun 3 tərəfində özünü göstərir: kommunikativ, perseptual və interaktiv.
4. *Sosial-mədəni səviyyə* cəmiyyətin tarixi, milli, dini, sinif və digər ənənələri ilə müəyyən edilir. Burada yalnız bir sosial-mədəni komponent, yəni həyat yoldaşlarının təhsili nəzərdən keçirilir. Təhsil səviyyəsi yüksək olan həyat yoldaşları daha çox münasibətlər bərabərliyinə, evlilik məmnunluğuna və daha az münaqişə səviyyəsinə malikdirlər.

Araşdırmada 250 evli cütlük iştirak edib. Tədqiqatçılar bu ailələri 4 qrupa ayırdılar: 1) həm ər, həm də arvad ali təhsili olmayan şəxslərdir; 2) hər ikisi ali təhsillidirlər; 3) yalnız arvad ali təhsillidir; 4) yalnız ərin ali təhsili var.

Beləliklə, qoyulmuş fərziyyə qismən təsdiqləndi. Obozovların tədqiqatı nəticəsində məlum oldu ki, ali təhsilin olub-olmaması hər iki yoldaşın münaqişənin yaranmasına bir o qədər də təsir etmir. Tədqiqatda göstərilən qrupların ayrı-ayrılıqda münaqişələri özünəməxsus səbəblər əsasında yaranır və böhrana gətirib çıxarır (Obozov & Obozova, 1982, s. 147–151).

Müasir cəmiyyətdə ər-arvad arasında münasibətlər sabit gənc ailənin qurulmasında mühüm amillərdən biridir. Nəzərə almaq lazımdır ki, yaşlı nəsil və gənclərin özündə müxtəlif ailə tiplərinə qarşı tolerant münasibət formalaşmalıdır. Hazırda tədqiqatçılar belə qənaətə gəliblər ki, müasir ailənin bir çox problemləri gənclərin nikahda münasibətlər qura bilməməsindən qaynaqlanır. Söhbət

həyat yoldaşları və digər qohumlar arasındakı münasibətlərdən gedir. Bu neqativ hallar, digər məsələlərlə yanaşı, xüsusi ailə dəstəyinə nə dövlət, nə də bütövlükdə cəmiyyət tərəfindən lazımi diqqət yetirilməməsi ilə əlaqədardır.

**Şəxsiyyətin formalaşmasında ailə dəyərlərinin rolu və mövcud problemlər**

Ailə dəyərlərinin formalaşması uşaqlıqdan başlamalıdır. Gənclərin ailə həyatına hazırlanması peşə fəaliyyətinə hazırlaşmaq və cəmiyyət həyatına uyğunlaşmaq kimi mühüm problemlərdən biri olmalıdır. Ailə dəyərləri valideyn ailəsində, sonra isə məktəbdə və digər təhsil müəssisələrində, gənclər təşkilatlarında və əmək kollektivlərində formalaşmalıdır. Gənc nəsli ailə həyatı qurmazdan əvvəl məqsədyönlü şəkildə evliliyə hazırlamaq lazımdır. Ancaq vacib olan təkcə bilik deyil. Ailəyə və evliliyə düzgün müsbət münasibət, həmçinin qeyd olunan münasibətləri gündəlik ailə həyatında tətbiq etmək istəyi tələb olunur. Gənclərin davranışlarına kənardan sosial nəzarətin zəiflədiyi, daxili qüvvələrin hələ formalaşmadığı müasir şəraitdə hisslər mədəniyyətinin və ailədə yaşamaq bacarığı biliklərinin möhkəmləndirilməsi vacibdir.

Görkəmli Amerika psixoloqu Ç. Kuli şəxsiyyətin öz mənliyinin digər şəxsiyyətlərdən fərqlənməsi prosesini tədricən başa düşməsi məsələsini tədqiq etməyi qarşısına məqsəd qoymuşdur. Çoxsaylı tədqiqatlar nəticəsində müəyyənləşdirmişdir ki, şəxsi "Mən" konsepsiyasının inkişafı uzun, mürəkkəb və ziddiyətli prosesdə baş verir və digər şəxsiyyətlərin iştirakı olmadan, başqa sözlə, sosial əhatəsiz həyata keçirilə bilməz. Onun fikrincə, hər bir şəxs əlaqədə olduğu digər adamların reaksiyalarını dərk etməyə əsaslanaraq mənliyini yaradır (Kuli, 2000, s. 111-112).

Şəxsiyyətin formalaşması prosesində cəmiyyətdə obyektiv surətdə mövcud olan münasibətlər, maddi və mənəvi sərvətlər, davranış normaları subyektləşdirilir. Bu proses şəxsiyyətlə cəmiyyətin qarşılıqlı təsirinin məcmusunu əhatə edir, insanda bu və ya digər keyfiyyətləri formalaşdırır.

Şəxsiyyətin inkişafında tələbatın da rolu böyükdür. Qeyd etmək lazımdır ki, eyni bir ictimai mühit şəraitində yaşayan insanların da tələbatları eyni deyildir. İnsanların tələbatı onun konkret həyat şəraitindən, mənsub olduğu mühitdən, ixtisasından, işindən, ailə vəziyyətindən, kollektivdən asılıdır. Digər tərəfdən, ayrı-ayrı şəxslərin tələbatı onların psixoloji xüsusiyyətlərindən asılıdır. Deməli, hər bir şəxsin tələbatı onun ictimai varlığı ilə şəxsiyyətin mühitindən və fərdi xüsusiyyətləri ilə müəyyənləşir.

Şəxsiyyət, öncə qeyd etdiyimiz kimi, tədqiqat obyekti formasında müxtəlif bilik sahələri tərəfindən öyrənilir. Şəxsiyyətin başlıca sahəsi insanın fiziki təbiəti ilə yanaşı, onun sosial fəaliyyətində təzahür edən sosial keyfiyyətləridir. Bu keyfiyyətlər onun mənlik şüuruna cəmiyyətə münasibətdə nisbi müstəqil mövqe tutması və öz hərəkətlərinə görə məsuliyyət daşımasından irəli gəlir. Onlar öz-özünə yaranmır, mövcud cəmiyyətin sosial münasibət sisteminin məhsulu kimi çıxış edir. Lakin şəxsiyyət heç də sosial mühitin passiv nəticəsi deyildir, o, özünün praktik fəaliyyətində həmin mühitə fəal dəyişdirici təsir göstərir.

Uzunmüddətli tədqiqatlar əsasında Amerika psixoloqu Milton Rokiçin "İnstrumental və terminal dəyərlər sistemi" yaratmışdır. *İnstrumental dəyərlər* istənilən şəraitdə şəxsiyyətin xüsusiyyətlərini və özəlliklərini, *Terminal dəyərlər* isə insanın qarşısına qoyduğu öz mövcudluğunun son məqsədlərini vurğuluyur.

İnsanın malik olduğu və malik olmaq istədiyi müsbət qiymətləndirdiyi hər şey onun şəxsi dəyərlərinə daxildir. Şəxsi dəyərlərə əşyalar, insanlar, münasibətlər, bacarıqlar, ətraf mühit aiddir. İnsanın dəyərlər sistemini onun prinsipləri müəyyən edir. Prinsiplər isə insanın fərdi təbiətinə aid olan meyillərlə təyin olunur.

Beləliklə, Milton Rokiçin dəyərlərinə əsaslanaraq, müasir gəncliyin dəyərləri əsasən: sevgi, sağlamlıq, maddi cəhətdən təminatlı həyat, yaxşı və sadiq dostların olması, karyera və peşəkar yüksəliş, aktiv həyat kimi dəyərlər ətrafında cəmləşmişdir (Rokich, 1973, s. 20-28).

Bu gün tədqiqatçıların diqqətini gənc nəslin dəyər yönümləri problemi, o cümlədən ailə dəyərlərinin mövcudluğu təşkil edir. Ailədə müəyyən bir münasibət və tərbiyə üslubu qurulur, adət-ənənələr və həyat təcrübəsi nəsildən-nəslə ötürülür. Azərbaycan cəmiyyətində sosial-iqtisadi və siyasi dəyişikliklər, müasir gənclərin ailə dəyərlərinin transformasiyası kontekstində gənclərin ailə dəyərlərinin öyrənilməsi aktual problemlərdən biri kimi görünür.

K. Q. Tverdostupun fikrincə, evliliyin uğurlu və ya uğursuz olmasının əsas səbəblərindən biri ailə dəyərlərinin uyğunluq dərəcəsidir. Evlənən və birlikdə həyata başlayan insanlar nə qədər fərqli olsalar da, bir-birlərindən gözləntilərini və tələblərini əlaqələndirməlidirlər. Ailə dəyərlərinin ortaq iyerarxiyası elə qurulmalıdır ki, o, hər iki həyat yoldaşı üçün məmnunluq gətirən və həyat keyfiyyətini yaxşılaşdıran çevik və effektiv mübarizə sisteminə çevrilsin (Tverdostup, 2014, s. 116-121).

## Nəticə

Tədqiqat materialları gənclər arasında əsas "instrumental" və "terminal" dəyərlərin seçimində ailənin əhəmiyyətini göstərir. Eyni zamanda evlilikdə ənənəvi ailə dəyərləri ilə gənclər həyat yoldaşından ilk növbədə emosional əlaqə, rahatlıq, dəstək və sevgi gözləyirlər. Valideyn olmamışdan əvvəl gənclər maliyyə sabitliyinə nail olmağı və gələcəyə inamı inkişaf etdirməyi planlaşdırırlar. Azərbaycan cəmiyyətinin hazırkı sosial-iqtisadi vəziyyəti ailə dəyərləri institutunun qorunub saxlanmasını və inkişaf etdirilməsini tələb edir.

## Ədəbiyyat

1. Belyayeva, A. B. (2008). Traditsionnyye semeynyye tsennosti. *Vestnik Tambovskogo Universiteta, Seriya: Gumanitarnyye nauki*, 11(67), 170-175.
2. Brentano, F. O. (2000). *Proiskhozhdenii nravstvennogo poznaniya*.
3. Kuli, Ch. Kh. (2000). *Chelovecheskaya priroda i yeye sotsial'nyy poryadok.*
4. Obozov, N. N., & Obozova, A. N. (1982). Diagnostika supruzheskikh zatrudneniy. *Psikhologicheskiy zhurnal*, 3(3), 147-151.
5. Obozov, N. N. (1990). *Psikhologiya mezhlichnostnykh otnosheniy*.
6. Rokich, M. (1973). Priroda chelovecheskikh tsennostey. *Svobodnaya pressa*, 5, 20-28.
7. Rybak, Ye. V. (2007). *Sotsialnoye obrazovaniye molodoy semyi. V pomoshch' spesialistu po rabote s semyey*. PRESS-PRINT.
8. Shurova, N. V. (2020). *Sotsial'no-psikhologicheskiye problemy sovremennoy sem'i.*
9. Tverdostup, K. G. (2014). Sistema semeynykh tsennostey suprugov kak faktor udovletvorennosti brakom. *Nauka i sovremennost*, 116-121.

Daxil oldu: 12.06.2024
Baxışa göndərildi: 27.07.2024
Təsdiq edildi: 17.08.2024
Çap olundu: 30.08.2024

https://doi.org/10.36719/2706-6185/38/11-15

**Şöhrət Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
sohret.nesirova24@gmail.com
https://orcid.org/0009-0006-6553-6385

# XIX əsrin sonu – XX əsrin əvvəlləri uşaq şeirində özünüifadə üsulları

**Xülasə**

Uşaq ədəbiyyatı sahəsində gedən yaradıcılıq axtarışları bütün mahiyyəti ilə milli özünüifadənin modeli olaraq əsaslı bir müəyyənliklə, etnokulturoloji sistemin ortaya qoyduğu əxlaq və dəyər təsəvvürləri ilə spesifikləşir. Daha doğrusu, gələcəyi formalaşdırmağa, yaddaşdakı normativləri bir prinsip olaraq gəncliyə aşılamağa köklənir. S. Ə. Şirvani, M. Mahmudbəyov, S. M. Qənizadə, R.Əfəndizadə, M. Hadi, A. Səhhət, A. Şaiq, Naseh, Mir Seyfəddin Seyidov Şirvani, Yusif Əfəndizadə, Əlisəttar İbrahimov, Əlabbas Müznib, Əlimişah Hüseynzadə, Camo bəy Aciz Şirvani, Əli Nəzmi, Məhəmmədtağı Sidqi, Cabbar Əsgərzadə, İsmayıl Həqqi və s. bu kimi görkəmli ədiblərin əvəzsiz şeir örnəkləri spesifiklik aspektində əsaslı bir zənginliklə diqqət önünə gəlir.

Dövrün tələblərinə köklənən ədəbi proses xalqın övladlarının təlim və tərbiyəsi, əxlaq və davranışı, milli dəyərlərin aşılanması kontekstində əsaslı addımlar atmaqla yaranmış boşluğun aradan qaldırılmasını məqsədə çevirmişlər. “Dəbistan”, “Rəhbər”, “Məktəb” və s. kimi mətbu orqanların yaradılması da eyni aspektə, cəmiyyət səviyyəsində olan problemlərin aradan qaldırılmasına köklənmişdi. Məktəb, tərbiyə, təhsil, uşaq dərsliyi və s. kontekstində olan çətinliklərin aradan qaldırılması ən ümdə vəzifə olaraq ziyalı mühitinin qarşısında dururdu. Nəsr, poeziya, dramaturgiya, publisistika, ədəbi tənqid sahəsində baş verən axtarış və təhlillər milli özünüifadəni prinsip olaraq əsas götürülməsinə köklənməklə gərəkli fəaliyyət konsepsiyası ilə sonrakı dönəmlər üçün nümunəyə çevrildi.

***Açar sözlər:*** *uşaq poeziyası, təlim, tərbiyə, folklor, uşaq oyunları, dərslik, uşaq mətbuatı*

**Shohrat Mammadova**
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy in Philology
sohret.nesirova24@gmail.com
https://orcid.org/0009-0006-6553-6385

# Self-Expression Methods in Children's Poetry From the Late 19th Century to the Early 20th Century

**Abstract**

The creative searches in the field of children's literature are specified with a fundamental determination as a model of national self-expression, with moral and value concepts revealed by the ethnocultural system. Rather, it is rooted in shaping the future, instilling the norms in the memory as a principle to the youth. S. A. Shirvani, M. Mahmudbeyov, S. M. Ganizade, R. Efendizade, M.Hadi, A. Sahhat, A. Shaig, Naseh, Mir Seyfeddin Seyidov Shirvani, Yusif Efendizade, Alisattar Ibrahimov, Alabbas Muznib, Alimishah Huseynzade, Jamo bey Ajiz Shirvani, Ali Nazmi, Mahammadtaghi Sidgi, Jabbar Asgarzade, Ismayil Haggi, etc. the priceless poetry examples of great writers like.

The literary process, rooted in the requirements of the era, aimed to eliminate the gap created by taking fundamental steps in the context of education and upbringing, morals and behavior of the people's children, instilling national values. "Dabistan", "Rahbar", "Maktab" etc. the establishment

Creative Commons Attribution-NonCommercial 4.0 International (CC BY-NC 4.0) 

of media outlets like. School, upbringing, education, children's textbook, etc. eliminating the difficulties in the context was the most important task for the intellectual environment. Researches and analyzes in the field of prose, poetry, dramaturgy, journalism, literary criticism, based on the principle of national self-expression, became an example for subsequent periods with the concept of necessary action.

***Keywords:*** *children's poetry, teaching, education, folklore, children's games, textbooks, children's press*

## Giriş

Görkəmli şair və maarifçi S. Ə. Şirvaninin XIX yüzilliyin 70-ci illərində açdığı məktəb onilliklər boyu gedən mücadilənin yekun aktı olaraq diqqət önünə gəlir. A. Bakıxanovun, M.Ş.Vazehin, İ. Qutqaşınlının, M. F. Axundovun, C. Ünsizadənin və başqalarının atdığı gərəkli addımlar çətinliklə də olsa, öz töhfəsini verdi. Bu prosesin ümumi tendensiyası uşaq tərbiyəsi, anadilli məktəblərin yaradılması, təhsil islahatları, dərslik probleminin aradan qaldırılması, qadın təhsili və s. bu kimi köklü məsələləri əhatələyirdi.

Uşaqlar üçün əsərlər yaratmaq, onların arzu və istəklərini, hiss və duyğularını əhatələyəcək poetik örnəklərin yaradılması bir istiqamətdə ictimai-mədəni axardakı problemin həlli sahəsində olan mücadilədən qaynaqlanırdısa, digər xəttə etnik dəyərləri aşılamaq və gənc nəsli milli ruhda formalaşdırmaq işinə xidmət edirdi. S. Ə. Şirvaninin "Rəbiül-ətfal" (1878), "Tacül-kütüb" (1883) dərslikləri bunun klassik nümunəsi olaraq yaranmışdır. Uşaq ədəbiyyatı yaratmaq işinin təməl daşları olaraq görülən işlər bu gün də sərgilədiyi təsəvvürlə əvəzsizliyi diqqət önünə gətirir. Çağdaş uşaq ədəbiyyatı əldə etdiyi bütün uğurlarla həmin mərhələni bir qaynaq olaraq prinsipləşdirir (Məmmədov və b., 1998, s. 3-10).

**Uşaq poeziyasında özünüifadənin spesifikası**

Azərbaycan ədəbiyyatı bütün tarixi mərhələlərdə özünüifadənin spesifikası, modelləşmələrin uğurlu normativlərinin təzahürü ilə faktlaşır. Bunların isə ən möhtəşəm enerji qaynağı folklordan, xalq təfəkküründən gələn zənginləşmələrə dayanır. Uşaq ədəbiyyatı ilə bağlı yazı mühitində isə bunun funksional rolu daha aparıcılıqla, mahiyyət səviyyəsində özünü göstərə bilmə imkanları ilə şərtlənir. "Əkinçi", "Kəşkül", "Ziya" kimi mətbuat orqanları bütün fəaliyyəti boyu maariflənməni, layiqli vətəndaş tərbiyəsini, elm, maarif sahəsində olan işləri bu yolda mühüm vasitə hesab edirdi. "Balalarımızın başa düşəcəyi əsərlər yaratmaq" mücadiləsi bir konsepsiya olaraq ədəbi-mədəni mühitin düşüncəsinə oturuşmuşdu. "Xalq bədii təfəkkürünün qığılcım saçdığı ilk gündən özünün gələcəyi, ömrünün davamı olan övladlarının mənəvi ehtiyacını, estetik zövqünü oxşamağı da unutmamış, onun üçün qiymətli, dolğun bədii sərvət də yaratmışdır. Bir qədər əvvəl qeyd etdiyimiz kimi, söylənilən nağıllarda, qoşulan mahnılarda, deyilən tapmaca, yanıltmac və s.-də övladın təlim-tərbiyəsi, bilikli, həyatı və dünyanı dərk edən zəki, qabiliyyətli, fəhmli bir insan kimi böyüməsi daim diqqət mərkəzində olmuşdur. Müdrik ağsaqqalların, baba və nəvələrin söylədiyi nağıllara uşaqlıq dövrünün xəyalpərvərliyi, sadəliyi, təmizliyi, fantaziyası ilə yanaşı, böyüklərin müdrikliyi də hopdurulmuşdur" (Məmmədov və b., 1992, s. 51-52). Ümumiyyətlə, XIX əsrin sonu, XX əsrin əvvəlləri ədəbi-mədəni axarın uşaq ədəbiyyatı sahəsindəki stixial xarakteri məhz bu düşüncəni bir əsas olaraq götürmək amalı ilə səciyyələnir.

Həsənağa xan Qaradağinin "Uşaqlar", "Bənövşə", "İlin hesabı", "Çiçəklər", "Mövsümlərin ibtidası", "Bahar", Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədov Mətlənin "Düzgü", Sultan Məcid Qənizadənin "Tülkü və Çaq-çaq bəy", Rəşid bəy Əfəndizadənin "Durna", "Gap", "Məktəbə dəvət", "Vəsfi-payız", "Qaz və durna", "Kirpi və dovşan", "Xəyal", "Təbiət-torpaq", "Vətən məhəbbəti", "Elmin şərafəti", "Uşaq və ayna", "İlin dörd fəsli", "Qızlarımıza nəsihət", "Ana kimdir", Həsənbəy Zərdabinin "Gap", Nasehin "Tərifi-məktəb", Mir Seyfəddin Seyidov Şirvaninin "Hekayəti it və pişik", "Ziyankarlıq və onun aqibəti", "Tənbəl ilə xoruzun mübahisəsi", "Ninni mahnısı", Yusif Əfəndizadənin "Ana nəsihəti", Məhəmməd Hadinin "Ricayi-vətən", Əlisəttar İbrahimovun "Məktəbli", "Aqil uşaq", "Ağca", "Mərhəmətli ata" və s. bu kimi şeir örnəklərinin hər biri mətn informasiyası, estetik məzmunu və uşaq dünyasını əks etdirmə özünəməxsusluğu ilə əsaslı təsəvvürə bağlanır.

Məsələn, təbiətin zəngin flora və faunası, güllər, çiçəklər, heyvanlar aləmi ilə bağlı çeşidli örnəklər bütün mahiyyəti ilə bilgi verməyə, əsaslı təsəvvür formalaşdırmağa həssaslıq nümayiş etdirir.

Qış çıxar, açar yazı bənövşəm,
Eylər bizə nazı bənövşəm,
Hər gülün sərəfrazı bənövşəm.
Aman, ay gülüm, bəslərəm səni,
Dəstə bağlaram, iylərəm səni.

Yurdumun gözəl zinətidir bu,
Allahın bizə şərafətidir bu,
Adəm oğlunun adətidir bu,
Aman, ay gülüm, bəslərəm səni,
Dəstə bağlaram, iylərəm səni
(Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası, 1998, s. 61-62).

Göründüyü kimi, təxminən yüz ildən çox əvvəl yazılmış bu nümunə fitonim zənginliyində olanların bir mövzu olaraq çeşidliliyini sərgiləyir. Azərbaycan ədəbiyyatında bənövşəyə həsr olunmuş şeirlər çoxluq təşkil edir. Dirili Qurbanidən Osman Sərvəlliyə qədər ədəbiyyatın gəldiyi yolda bənövşə gözəlliyinə həsr olunmuş şeirlər cildlərə sığacaq bir təsəvvürlə özünü göstərir. Yuxarıdakı nümunədə R.Əfəndiyev "yurduma gözəl nemətdir bu", – deməklə gözəllik anlamında olan sevgi və sayğını ifadə edir, uşaqlara bir kateqoriya olaraq gözəllik aspektində təbiət sevgisini aşılamağa çalışır. Qızılgül, nərgiz, yasəmən, qərənfil və s. haqqında da bir-birindən maraqlı və sənətkarlıq etibarilə yüksək intelleksiyanı nümayiş etdirən poetik örnəklər vardır ki, nəğmə, bayatı, əfsanə, rəvayət səviyyəsində dillər əzbərinə çevrilmişdir.

Çəmən olub dağ və bağ, çiçəklənib ağaclar,
Otlar qalxıb döşənib, düzəlibdir yamaclar.
Süsən, sünbül, nilufər, qızılgüllər bağlarda,
Açılıb hər bir çiçəklər, lalələr də dağlarda.

Bir yanda nərgiz gülü, qərənfil və zanbaqlar,
Gülüzarda güllərdən tutulubdur tabaqlar.
Ətir qalxıb güllərdən, hər bir yerdə qoxuyur,
Hər nə xoş sövt quşlar vardır, tamam oxuyur
(Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası, 1998, s. 12).

Yüksək sənət intelleksiyası nümayiş etdirən bu nümunə Həsənəliağa Xan Qaradaği tərəfindən yaranmışdır. Uzun illər dərsliklərdə yer alan poetik örnək A. O. Çernyayevski, S. Vəlibəyovun birgə tərtib etdiyi "Vətən dili" dərsliyinə də (1888) gətirilmişdir. Bu nümunələr bir neçə istiqamətdə səciyyəvilik sərgiləyir:

a) bilgi vermək, uşaqlarda fitonimlərlə bağlı təsəvvür formalaşdırmaq;
b) bədii-estetik düşüncə baxımından poetik örnəyin əhatələdiyi müəyyənlik;
c) folklor müstəvisində əks etdirdiyi spesifiklik;
ç) uşaq təsəvvürünü əks etdirmək imkanlarının çeşidliliyi və s.

Bunlar təkcə fitonimlər aspektində olanları uşaqlara çatdırmaq istəyi ilə səciyyələnmir, eyni zamanda oronimlər, oykonimlər, hidronimlər, toponimlər baxımından da ciddi zənginliyə bağlanır. Uşaq marağı təmsil, lətifə, nağıllar və s. baxımından əsaslı bir mükəmməlliyə və uşaq marağına yönlənmə istəyi ilə göz önünə gəlir (Seyidov, 1902).

**Ədəbi-mədəni mühit və uşaq poeziyası**

Zaqafqaziya müəllimlər seminariyasının tatar şöbəsinin açılması (1879), heç şübhəsiz, ana dilində dərslərin keçirilməsini qaçılmaz etdi. Bu isə özlüyündə dərsliklərin yaranmasını bir zərurət olaraq qarşıya qoyur. A. O. Çernyayevskinin, S. Vəlibəyovun "Vətən dili", R. Əfəndizadənin "Uşaq bağçası", "Bəsirətül-ətfal" və s. dərslikləri tarixi-mədəni axarın həm də uşaq ədəbiyyatı yaratmaq işinə köklənməsi üçün əsas olur. Sonrakı onilliklərdə F. Köçərlinin "Balalara hədiyyə", M. Mahmudbəyovun "Birinci il", "İkinci il", "Yeni məktəb", A. Şaiqin "Uşaq gözlüyü", "Gülzar" (Namazov, 2007) və s. bir ədəbi-mədəni proses olaraq şaxələnmələrə, yeni-yeni örnəklərin yaranmasına əsas olur. Buradakı poetik nümunələr mövzu rəngarəngliyi ilə uşaq təsəvvürünü, əxlaq və davranışlarını, körpəlik, cocuqluq, yeniyetməlik dövrlərində olan zənginləşmə axarını əhatələmək səciyyəsi daşıyır. İlin fəsilləri (yaz, yay, payız, qış), zoonimlər (sərçə, qaranquş, bülbül, qartal, çalağan, göyərçin, kəklik və s), heyvanlar aləmi (canavar, tülkü, şir, pələng, dovşan və s.) bütün simpatiyası ilə rəmzləşmələrə, semantik qatda işarələnmənin məzmun çalarlarına bağlanır. Məsələn, H. Qaradağinin "At və eşşək", R. Əfəndizadənin "Durna", "Kirpi və dovşan", "Keçi", "Bülbül", "Qaz və durna", "Qırqovul", M. S. Şirvaninin "Hekayəti it və pişik", Ə. Müznibin "Şir, tülkü və ulaq", "At və öküz" (Xəlil, Əsgərli, 2011) və s. kimi poetik nümunələr bir istiqamətdə xalq təsəvvüründə olanlardan öz qaynağını alır.

Bir zaman, çoxdan atıb bərdaş,
Şir, Tülkü, Ulaq olub yoldaş,
Oldular hər üçü şikarə rəvan,
Etdilər çox qürur ilə cövlan.
Həddən artıq çalışdılar hər üçü,
Çoxlu ov tutdular o üç ovçu
(Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası, 1998, s. 98-99).

Olduqca maraqlı, həmçinin tipik bir təfsilatı özündə ehtiva edən bu poetik örnək "gözü çıxan qardaşımdan öyrənmişəm" məsəlinə bağlanır. Şair bu bədii nümunədə Şir, Tülkü, Ulaq timsalında olan yoldaşlığı mövzuya çevirir və birgə ov əhvalatı üzərində dayanan epizoddan çıxış etməklə əsaslı bir mənzərəni təqdim edir. Burada uşaq marağının bu heyvanlar haqqında təsəvvürü ayrı-ayrı zoonimlər timsalında əsaslı bir bilgiyə bağlanır. Mətnin verdiyi informasiya Ulağın başına gələnlər kontekstində nəticə çıxarmağa yüklənir. Ulağın bölgünü düz aparmaması nəticəsində cəzalandırılması və sonra bu işin Tülküyə tapşırılması və bölgünün Şirin istəyinə uyğun olması əsaslı bir təfsilatla bilgi verməyə köklənir. Şirin "de görüm, böylə bölgünü, fövri kimdən öyrəndin, ay gözüm nuri" sorğusuna Tülkünün "Ulağın ölməyindən öyrəndim", – deməsi müəllif qayəsini və orijinal təhkiyədə canlandırma üsulunun spesifikasını açıqlayır.

"Uşaqların daxili aləmi, mənəviyyatı, əxlaqı, davranışı da onları daim düşündürmüş, narahat etmişdir. Estetik tərbiyə də ümumi tərbiyə kompleksinin içərisində özünəməxsus yer tutmuşdur. Xalqın şifahi şəkildə yaradıb yaşatdığı bu nümunələr uşaqların tərbiyəsində mühüm rol oynamışdır. Ənənəvi uşaq folkloru nümunələri poetik və cazibədardır, bədii cəhətdən dolğun və kamildir. Bu nümunələri əsrlərin sınağından çıxarıb yaşadan, itib-batmaqdan qoruyan məhz onların bədii kamilliyi olmuşdur" (Əfəndiyev, 1992, s. 219).

Ədəbiyyatın yazılı qolu bu cazibədarlıqdan və bədii mükəmməllikdən müxtəlif formalarda bəhrələnməklə əsaslı bir təsəvvürü ehtiva etməyə köklənir. Nağıl, əfsanə, rəvayət, yanıltmac, atalar sözü, təmsil, tapmaca mükəmməlliyindən gələn normativlər və ifadə modelləri, təsvir, təqdim tipləri bütün spektrləri ilə yazı mühiti üçün nümunəyə çevrilir. S. Ə. Şirvani, A. Səhhət, H. Zərdabi, S.M.Qənizadə, M. Hadi, A. Şaiq, F. Köçərli və s. bu kimi maarifçi ziyalıların uşaq dünyasını ifadəyə köklənən çeşidli örnəkləri xalq düşüncəsində olanları bir etnoenerji olaraq faktlaşdırır. Məsələn, Əlimişah Hüseynzadə "Uşaq və ana" adlı tipik bir nümunə yaratmışdır. Şeir tərbiyəvi mahiyyəti ilə spesifik məzmun daşıyır:

Evə yüyürdü cocuq,
Həvəslə söylədi: “Ana,
Bir iş günortaya yavuq
Düzəltmişəm, deyim sana”.
Anası: “De, oğlum, dinlərəm.
Nə iş günortaya yavuq
Tutubsan, məxbər et məni.
“De, oğlum, durma, de çapuq”
(Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası, 1998, s. 101-102).

Bu nümunə uşaqlar arasında yaranmış soyuqluğu (incikliyi) əks etdirmək, dostluq, yoldaşlıq baxımından əsaslı təsəvvür formalaşdırmaq xüsusiyyəti ilə spesifikləşir. Həsənin Əli ilə Kamal arasındakı soyuqluğu aradan qaldırmaq üçün gördüyü işlər bir tərbiyə nümunəsi kimi diqqətçəkici təsəvvür formalaşdırır. “Azərbaycan folklorunun elə bir janrı yoxdur ki, orada gənc nəslin tərbiyəsinə xüsusi yer verilməsin” (Vəliyev, 1985, s. 393).

Yazılı ədəbiyyatın uşaqlar üçün yaranmış poetik örnəklərində də bu bir tərəf olaraq özünə yer alır. Əli Ülvi, Camo bəy Aciz Şirvani, Əli Nəzmi, Arifə, Məhəmmədtağı Sidqi, Rəbiə, Cabbar Əsgərzadə və s. bu kimi onlarla ədiblər uşaq ədəbiyyatına öz töhfələrini verməklə sonrakı onilliklər üçün nümunə olmuşlar. Bu nümunələr fiziki tərbiyə, əmək tərbiyəsi, əxlaq tərbiyəsi, estetik tərbiyə baxımından mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, “gənc nəsil məhz məqsədyönlü, planlı və mütəşəkkil tərbiyənin köməyi ilə xalqın maddi və mənəvi sərvətlərini mənimsəyir, bəşəriyyətin zəngin təcrübəsinə yiyələnir” (Talıbov və b., 1993, s. 173). Uşaq ədəbiyyatının yazılı qolu bütün paradiqması ilə bu təsəvvürə oturmaqla funksional bir mənzərə sərgiləyir.

## Nəticə

Beləliklə, XIX əsrin sonu, XX əsrin ilk onilliklərinin ədəbi-mədəni zənginliyi və milli təsəvvürə köklənməklə hərəkətliliyi uşaq ədəbiyyatı aspektində ayrıca bir möhtəşəmliyi diqqət önünə gətirir. S.Ə.Şirvani, H. Zərdabi, S. Vəlibəyov, A. O. Çernyayevski, A. Səhhət, M. Ə. Sabir, M. Hadi, A.Şaiq timsalında olan bu axar ədəbiyyatın poeziya qolunda uğurlu bir təsəvvürlə spesifikləşir. Xalqın zəngin yaradıcılığında özünü göstərən ifadə modelləri, təqdim üsulları yaradıcı axtarışlarında bir spesifiklik sərgiləmək yolunu tutur. Bütün bunlar uşaq ədəbiyyatı yaratmaq sahəsində gedən prosesin dönməzliyini diqqət önünə gətirən ümdə məsələlərdir.

## Ədəbiyyat

1. *Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası*. (1998). Elm.
2. Əfəndiyev, P. (1992). *Azərbaycan şifahi xalq ədəbiyyatı*. Maarif.
3. Xəlil, Z., Əsgərli, F. (2011). *Uşaq ədəbiyyatı*. ADPU.
4. Məmmədov, M., Salamoğlu, T., Babayev, Y. (1998). *İki əsrin maarif işığında. Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası*. Elm.
5. Məmmədov, M., Babayev, Y., Salamoğlu, T. (1992). *Pedaqoji mühit və uşaq ədəbiyyatı*. Maarif.
6. Namazov, Q. (2007). *Azərbaycan uşaq ədəbiyyatı*. Bakı Universiteti.
7. Seyidov, Ş. M. S. (1902). *Hekayəti-it və pişik.*
8. Talıbov, Y. R., Ağayev, Ə. A., İsayev, İ. N., Eminov, A. İ. (1993). *Pedaqogika*. Maarif.
9. Vəliyev, V. (1985). *Azərbaycan folkloru*. Maarif.

Daxil oldu: 18.06.2024
Baxışa göndərildi: 16.07.2024
Təsdiq edildi: 10.08.2024
Çap olundu: 30.08.2024

https://doi.org/10.36719/2706-6185/38/16-20

**Zemfira Babayeva**
Naxçıvan Dövlət Universiteti
doktorant
vusala.nasir@icloud.com

# Azərbaycanda fortepiano ifaçılığının yaranma tarixi

**Xülasə**

Müəllif məqalədə Naxçıvan Muxtar Respublikasında bəstəkarlığın yaranma tarixindən, eyni zamanda onun inkişafından bəhs edir. İlk musiqi məktəbinin açılmasında və bəstəkarlığın inkişafında bu məktəbin rolundan söhbət açır.

Məqalədə eyni zamanda aşıq yaradıcılığından danışılır. Bundan başqa, Ərtoğrul Cavidin yadigar qalmış kamançası haqqında məlumat verilir, burada yaşamış musiqiçilərdən söhbət açılır.

***Açar sözlər:*** *bəstəkar, musiqiçi, yaradıcılıq, mədəniyyət, pedaqoq*

**Zemfira Babayeva**
Nakhchivan State University
Ph. D. student
vusala.nasir@icloud.com

# History of Establishment of Fortepiano Performance in Azerbaijan

**Abstract**

In this article, the author writes about the history of composition in the Nakhchivan Autonomous Republic and its development. She mentions about the role of this school in the opening of the first music school and the development of composition.

The article also talks about the ashug creativity. In addition, information is provided about Ertoghrul Javid's memorable kamancha. There is mentioned about musicians who lived here.

***Keywords:*** *composer, music, creativity, culture, pedagogue*

## Giriş

Azərbaycan fortepiano mədəniyyətinin kökləri öz başlanğıcını XIX əsrin sonlarından götürür. O, qısa bir tarixi zaman ərzində intensiv inkişaf yolu keçərək, müasir bədii yaradıcılıq zirvəsinə ucalmışdır.

Azərbaycan bəstəkarlarının yaradıcılığında fortepiano musiqisi cəsarətli axtarışların, eksperimentlərin və yeni məsələlərin həlli üçün laboratoriyaya çevrilərək Avropa musiqisinin ən mükəmməl ənənələrini mənimsəmişdir. Azərbaycan musiqisi mövcud olduğu qısa bir müddət ərzində intonasiya quruluşu, harmoniya, ritm, forma təşkili, faktura və digər üslub komponentlərinə görə məhsuldar təkamül yolu keçmişdir.

Fortepiano musiqisində baş verən təkamül, tədrici inkişaf bir-biri ilə nəinki sıx bağlı olmuş, eyni zamanda bir çox hallarda ifaçılıq mədəniyyətinin nailiyyətləri, görkəmli Azərbaycan pianoçularının – müəllim va ifaçıların fəaliyyəti ilə sortlanmışdır. Fortepiano – ifaçılıq məktəbinin müasir nailiyyətləri, heç şübhəsiz, fortepiano pedaqogikasının yüksək səviyyəsinin nəticəsidir (Abasquliyev, Kəngərlinskaya, 2001).

Hazırda Azərbaycan Respublikası yetkin fortepiano məktəbinə malikdir. Bu məktəb proqressiv ənənələrlə səciyyələnərək, parlaq konsert fəaliyyəti və əsaslı pedaqoji potensialı ilə seçilən pianoçular, yüksəkixtisaslı mütəxəssislərin hazırlanması üçün geniş və sabit sistemi, nüfuzlu konsert təşkilatçılığı ilə fərqlənir. Fortepiano mədəniyyətinin bütün bu nailiyyətləri milli fortepiano mədəniyyətinin göstərilən tərkib hissələrinin təşəkkül və inkişaf prosesinin, onun təkmilləşməsi və qarşılıqlı əlaqəsinin öyrənilməsinin aktuallığını sortlandırır.

Creative Commons Attribution-NonCommercial 4.0 International (CC BY-NC 4.0) 

Zəngin Azərbaycan musiqi mədəniyyəti tarixində qısa müddətdə intensiv inkişaf yolu keçən Azərbaycan pianoçuluq mədəniyyəti böyük zirvələr fəth etmişdir.

Azərbaycanda fortepiano ifaçılığı fenomeni Avropa ənənələri və rus musiqi mədəniyyəti, eləcə də milli mədəniyyətin sintezi nəticəsində yaranmışdır. Bu mənada Azərbaycan fortepiano ifaçılığı mədəniyyəti böyük tədqiqat mənbəyidir.

Dünya musiqi incəsənəti tarixində mühüm yer tutan fortepiano öz texniki imkanları, təbii-tembr rəngarəngliyinə görə fərqlənir. Çoxsəsli spesifik və orkestr səslənməsini təmin edən bu alət müxtəlif bədii obrazları, eləcə də ideya və əhvali-ruhiyyəni özündə əks etdirir (Abdullayeva, 2002).

Moskva Konservatoriyasının məzunu, pianoçu Antonino Nikolayevna Yermoloyeva 1895-ci ildə Bakıda özəl musiqi məktəbi açır. Dövrün qabaqcıl ziyalılarından olan Yermoloyevanın bu addımı yüksək qiymətləndirilsə də, nəticə etibarilə musiqi təhsili almaq üçün məktəbin azərbaycanlılara xeyri olmur. Tarixə nəzər salarkən görürük ki, bu məktəb 1895-1916-cı ilə qədər fəaliyyət göstərsə də, tam 20 illik fəaliyyəti dövründə bu məktəbdə bir nəfər də olsun azərbaycanlı təhsil almır. Ü. Hacıbəyov bu məsələ ilə əlaqədar "Azərbaycanda musiqi təhsili" məqaləsində təəssübkeşliklə yazırdı: Bakı hələ çar hökumətinin quberniya şəhərlərindən biri olan zamanlarda burada "Rus İmperator Musiqi Cəmiyyəti" adlanan bir müəssiseyi-musiqiyənin şöbəsi olmaq üzrə bir musiqi məktəbi mövcud idi. Bu məktəb Bakıda iyirmi illik uzun bir müddət ömür sürüb, müntəzəm yaşadığı halda, qapılarını musiqi təhsili arzusunda bulunan türk balaları üçün daim bağlı saxladı. Bu qədər uzun bir zaman içində bu məktəbdə bir nəfər belə yerli türklərdən oxuyan və məktəbi bitirən olmadı. Məktəbin mövcud olub-olmaması haqqında yerli türklərin xəbəri belə yox idi. Burda da Üzeyir bəyin öz xalqına, öz milli gələcəyinə necə böyük qayğı ilə yanaşdığını görürük. Ona görə də bu vəziyyətlə barışmayan bəstəkar sözdən işə keçərək 1916-cı ildə Yermoloyevanın təsis etdiyi bu məktəbi dövlətin nəzdinə keçirərək orta ixtisas musiqi məktəbinə çevrilməsinə nail olur. Yəni bu məktəb təkcə fortepiano deyil, başqa musiqi alətlərinin də təbliği demək idi. Bu isə Ü. Hacıbəyovun əvəzsiz xidmətlərindən biri idi. Belə nəticəyə gəlmək olar ki, Üzeyir bəyin yorulmaz və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanda ilk professional musiqi ocağı fəaliyyət göstərməyə başlayır. Sevindirici hal ondan ibarət idi ki, buraya gələn şagirdlərin əksəriyyəti azərbaycanlı idi. Digər tərəfdən, bu məktəbdə təkcə fortepiano deyil, başqa alətlərin də sinfi açılmışdı (Paşayev, 1985).

Beləliklə, Ü. Hacıbəyov milli musiqi təhsili sisteminin əsasını qoyur. Üzeyir bəyin yorulmadan və səmərəli fəaliyyəti 1920-ci ildə Bakıda Xalq Konservatoriyası, onun əsasında isə 1921-ci ildə Dövlət Konservatoriyasının yaranması ilə nəticələnir. Bu illər ərzində 1916-1922-ci illərdə Ü.Hacıbəyov yorulmadan çalışaraq Bakı Dövlət Musiqi Məktəbi, Xalq Konservatoriyası, Bakı Dövlət Konservatoriyası, Şərq Konservatoriyası yaratmağa müvəffəq olur. Çox keçmir ki, Bakı şəhərində formalaşan milli musiqi təhsil sistemi böyük nailiyyətlər əldə etməyə başlayır. Ard-arda Bakı Dövlət Orta İxtisas Musiqi Məktəbini ilk məzunlar qurtarmağa başlayır. Onların sırasında Səid Rüstəmov, Asəf Zeynallı, Əfrasiyab Bədəlbəyli, Xurşud Ağayeva, Əşrəf Həsənov, Tamara Rəhimova, Fatma Səmədova, Məmməd Nəsirbəyov, Nigar Usubova, Ələkbər Daşdəmirov, Qılman Salahov, Əhməd Bakıxanov və başqalarını göstərmək olar. Burada eyni zamanda böyük sənətkarlar dərs deyirdi. Onlardan Hüseynqulu Sarabski, Qurban Pirimov, Seyid Şuşinski, Mansur Mansurov, Ağası Məşədibəyov və Bülbül məktəbin yeni məzunları ilə çiyin-çiyinə çalışaraq Azərbaycan musiqisinin inkişafında böyük nailiyyətlər əldə edirdilər (Azərbaycan təhsil siyasəti (1998-2004), 2005).

Üzeyir bəyin 1937-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının rəhbərliyinə təyin olunması əlamətdar hadisə oldu. Məhz onun gəlişi ilə konservatoriyada müəllimlik işinə gənc kadrlar və konservatoriyanın məzunları cəlb olunurlar. Beləliklə, Azərbaycan Dövlət Konservatoriyasının ilk qadın pianoçusu Kövkəb Səfərəliyeva 1939-cu ildə məzun olur. Onun ardınca isə 1941-1942-ci illərdə C. Muradova və Perevertaylo da konservatoriyanı bitirərək pedoqoji işə cəlb edilirlər. Onlar pedoqoji fəaliyyətlə yanaşı, konsert fəaliyyəti ilə də məşğul olurdular. Belə ki, C. Muradova Azərbaycan Dövlət Filarmoniyasının solisti olaraq da fəaliyyət göstərirdi.

O illər ifaçılıq ənənəsi Azərbaycan bəstəkarlarının fortepiano musiqi yaradıcılığına da böyük stimul verirdi. Bu mənada fortepiano musiqisi yaradıcılığında tarixi rol A. Zeynallının üzərinə düşürdü. Hələ gənc yaşlarında Q. Qarayev də bu janra müraciət edərək "Baxçasaray fontanı" musiqi

lövhəsini yaradır. Bu əsər ifaçıların repertuarında özünəməxsus yer tutur. İlk dəfə bu əsər 1937-ci ilin fevralında şairin yubileyində səslənir (Azərbaycan milli musiqisinin tədqiqi məsələləri, 2004).

Qanlı-qadalı müharibə illərində də respublikada yaradıcılıq durmadan davam edirdi. 1944-cü ildə Tbilisidə keçirilən Zaqafqaziya respublikalarının dekadasında gənc pianoçular Asiya Zülfüqarova, Fəridə Quliyeva və 9-cu sinif şagirdi Elmira Nəzirova iştirak edərək musiqi nailiyyətləri əldə etmişlər.

Müharibədən sonrakı illərdə Azərbaycan musiqi mədəniyyətində nəzərəçarpacaq nailiyyətlər əldə olunur. 50-ci illərdə konservatoriyada ixtisaslı kadrların sayı artmışdır. Bu mənada çox sayda azərbaycanlı pianoçu Moskva Konservatoriyasını bitirib vətənə qayıtmışdır. Beləliklə, konservatoriyada yüksəkixtisaslı kadrların sayı artmışdır. Onlardan R. Atakişiyev, A. Zülfüqarova, F. Quliyeva, N. Usubovanın adlarını çəkə bilərik. Təqdirəlayiq haldır ki, bu dövrdə Azərbaycan bəstəkarları yeni fortepiano əsərləri yaradırdılar ki, bu da fortepiano repertuarının zənginləşməsinə xidmət edirdi. Buna misal olaraq, E. Nəzirova, F. Quliyeva, Adıgözəlovanı göstərə bilərik. Fəxrlə deməliyik ki, F. Əmirov və E. Nəzirova tərəfindən ərəb mövzusunda fortepiano konserti musiqi cəmiyyətində böyük marağa səbəb oldu. Bundan əlavə, fortepiano və kamera əsərləri maraqlı təəssüratlar yaradırdı. C. Hacıyevin "Ballada" və "Sonata"sı, Q. Qarayevin prelüdləri də bu qəbildəndir. Bu əsərlər Z. Əliyeva, F. Quliyeva, E. Səfərovanın ifasında müvəffəqiyyətlə səhnə həyatı yaşamışdır (Bakıxanov, 2003).

Fortepiano sənətinin zənginləşməsi prosesi ifaçılıq sənəti ilə paralel inkişaf edirdi. Belə ki, 1950-ci ilin fevral-mart aylarında Azərbaycan Dövlət Konservatoriyasında keçirilən müsabiqədə ən yaxşı rus bəstəkarların əsərləri ifaçısı adına Sadıxov, Eqiazarov və Z. Əliyev layiq görüldü. Ümumiyyətlə, illərin nəticəsinə baxsaq, Zaqafqaziya müsabiqələrində iştirak edib müvəffəqiyyət qazanan pianistlərin siyahısı get-gedə artır. Rafiq Quliyev, E. Səfərova, Aleksandrovski, Matyuşkin, Ələsgərov, Muradova, Əliyeva və başqalarını göstərə bilərik.

60-cı illərdə Azərbaycan fortepiano sənəti artıq beynəlxalq arenaya çıxaraq özünü sübut etməyə başlamışdı. Azərbaycan Respublikasının Xalq artisti professor Brennerin yetirməsi olan gənc və istedadlı pianoçu F. Bədəlbəyli 1967-ci ildə Çexoslovakiyada Smetana adına müsabiqədə iştirak edir. Gənc pianoçu üçüncü dərəcəli mükafat qazanır. Eləcə də Smetana əsərlərinin ən yaxşı ifaçısı xüsusi mükafatını alır. Bir ildən sonra Lissabonda Viana da Mota adına keçirilən müsabiqədə birinci dərəcəli mükafata layiq görülür. Bu parlaq nəticə Azərbaycan pianizminin böyük qələbəsi demək idi. Qələbənin əhəmiyyəti onda idi ki, beynəlxalq müsabiqənin ən yüksək mükafatını ilk dəfə Bakı Konservatoriyasının yetirməsi əldə etmişdir.

Bu böyük müvəffəqiyyət təkcə F. Bədəlbəylinin deyil, Azərbaycan fortepiano məktəbinin qələbəsi idi (Bədəlbəyli, 1997).

Artıq ötən illərin nəticəsi olaraq, konservatoriyada Moskva, Leninqrad və Bakı Konservatoriyasının məzunlarının sayı artmaqda idi. Artıq fortepiano ixtisası kafedrası 3 kafedraya bölünmüşdü. Professor R. Atakişiyev birinci kafedraya, F. Quliyev ikinci kafedraya, E. Nəzirova isə üçüncü kafedraya rəhbərlik edirdi. Fortepiano pedoqogikası və medotikası kafedrasına Mirzəyev, konsertmeyster sinfi kafedrasına Əsgərov rəhbərlik edirdi. Bütün fakültənin dekanı isə Oqtay Abasquliyev idi.

70-80-ci illərdə Azərbaycan Dövlət Konservatoriyası parlaq inkişaf yoluna qədəm qoymuşdur. Yarım əsrdən çox fəaliyyət göstərən bu musiqi məbədi olduqca geniş və böyük inkişaf, həm pedaqoji, həm də ifaçılıq ənənələri əldə etmişdir. Bu da konservatoriyanın əsas xarakterik xüsusiyyəti idi.

Ötən illər ərzində fortepiano fakültəsinin pedaqoji tərkibi böyümüşdü. Moskva, Leninqrad və Azərbaycanda assistenturanı bitirən mütəxəssislər gəlirdi.

1 nömrəli kafedrada N. Usubova, Z. Adıgözəlzadə, dosent C. Muradova, Asya Zülfüqarova, T.Seyidov, O. Abaskuliyev, T. Qasımova, Abdullayev, Həsənov, baş müəllim Z. Şəfiyeva, F.Hacıyeva, A. Məhərrəmov, D. Qarayev, müəllimlər R. Qasımov, T. Şəmsiyev, 2 nömrəli professor F.Quliyevanın kafedrasında F. Bədəlbəyli, E. Səfərov, Rafiq Quliyev, dosent Əliyeva, N. Sultanov, A.Ələsgərov, baş müəllim Leyla Kazımova, V. Yaqubova, L. Topçubaşova, Yuri Sabayev, T.Səfərəliyeva, müəllimlərdən E. Zeynalova, A. Əliyeva, 3 nömrəli professor E. Nəzirovanın

kafedrasında professor U. Xəlilov, professor Z. Cəfərova, orqan sinfi üzrə dosent T.Yaqubova, dosentlər D. Salamzadə, baş müəllim V. Muradova, Behbudova fəaliyyət göstərirdilər (Əfəndiyeva, 2007).

Bu fortepiano ustadlarının zənginləşmiş ordusu respublikaya öz töhfəsini verməkdə idi. Bu mənada onların gənc yetirmələri həm Bakıda, həm də bölgələrdə çalışaraq fortepiano sənətinə yeni uğurlar gətirməyə davam edirdilər. Onlar Lənkəranda, Şəkidə, Sumqayıtda, Gəncədə, Naxçıvanda fədakar əməkləri ilə gənc kadrların sayını artırırdılar.

Bu mənada konservatoriyada fəaliyyət göstərən istehsalat kafedrası sektorunda tələbələr həvəskar musiqiçiləri müşayiət edərək bir növ estradaya cığır açırlar. Bu məqsədlə Bakı Xalq Konservatoriyasına müəllimliyə cəlb olunan tələbələr çox böyük həvəslə bu işi görürdülər.

Konservatoriyada fortepiano təhsili əvvəlki illərdə olduğu kimi yüksək inkişaf xətti ilə irəliləyirdi. Fortepiano təhsili tarixində əsas hərəkətverici pedaqoji qüvvə olan professorlar Şaroyev və Brennerin fəaliyyəti hesab olunmalıdır. Onlar Peterburq məktəbinin prinsipləri əsasında böyuk və geniş pedaqoji fəaliyyət nümayiş etdirmişlər. Eyni zamanda tarixi prosesdə Moskva Konservatoriyası məzunları da iştirak etmişlər. Bu faktorların birləşməsinə baxmayaraq, hər pedaqoq öz fərdi xüsusiyyətlərinə əsaslanaraq fəaliyyət göstərmişlər.

Fortepiano fakültəsinin akademik həyat forması zəngin və rəngarəngdir. Müəllimlərin hesabat sinif konsertləri böyük maraqla qarşılanırdı. Hər müəllimin spesifik metod və üslubu, çoxillik praktikası hər tələbənin fərdi xüsusiyyətlərində özünü büruzə verirdi. Bu tələbələrin repertuarı tematik xarakter daşıyırdı. Hansısa proqram deyil, məhz bu və ya başqa bəstəkarın yaradıcılığı və janrını göstərən əsərlərdən ibarət konsertlər təşkil olunurdu. Buna misal olaraq, 1980-ci il aprelin 10-da Şuman yaradıcılığının 170 illiyinə həsr olunmuş gecədə R. Atakişiyev, E. Səfərova, U.Xəlilov, T. Seyidovun sinfinin tələbələri çıxış etmişlər.

Belə tədbirlədən biri K. Səfərəliyevanın rəhbərliyi ilə 1978-ci il 24-25 apreldə Q. Qarayevin anadan olmasının 60 illiyi münasibətilə keçirilən müsabiqədir. Müsabiqənin şərtinə görə, bəstəkarın fortepiano üçün bəstələdiyi "24 prelüd"lərin ifası idi. Bu müsabiqədə həm konservatoriya, həm də orta ixtisas musiqi məktəblərindən birlikdə 39 nəfər iştirakçı var idi.

SSRİ Dövlət Konsert Birliyinin solisti Tamilla Mahmudova geniş konsert fəaliyyəti göstərərək həm ölkəmizdə, həm də xaricdə Azərbaycan bəstəkarlarının əsərlərini uğurla təmsil edirdi. Qeyd etmək lazımdır ki, Tamilla Mahmudovanın ifaçılıq dairəsi geniş və çoxşaxəlidir. Buraya Bax, Haydn, Skarlatti, Motsart, Şopen, List, Frank, Ravel, Debussi, Raxmaninov, Villa Lobosun əsərləri daxil idi. O, kiçik həcmli əsərləri böyük ustalıqla ifa etmişdir. Buna görə o, miniatür ustası kimi tanınmışdır. Təsadüfi deyil ki, kiçik əsərlərin ifası böyük ustalıq və zərif hissiyat tələb edir. Lakin bu o demək deyil ki, T. Mahmudova iri həcmli əsərlərin öhdəsindən gələ bilmir. Onun repertuarında Şopenin Si-bemol minor sonatası, balladası, polonezi, mazurkaları, fa-minor fantaziyası, Listin "Danteni anarkən" əsərlərini göstərmək yerinə düşər. Ümumiyyətlə, ifaçının aktivində fortepiano və orkestr üçün 28 əsər yer almışdır.

Son illərdə pianoçunun çoxmövzulu proqramlara meyli artır. İ. S. Baxın "Fortepiano və orkestr üçün konserti", "F. Şopen", "Macar musiqisi", "Fortepiano üçün valslar", K. Debüssi, Q. Qarayev və başqalarını göstərmək olar. Qeyd etməliyik ki, T. Mahmudova Şopenin əsərlərinin ifasını hamı kimi ifa etmir. Onun bu əsərlərə öz şəxsi yanaşması mövcuddur. Təsadüfi deyil ki, Yaltada T. Mahmudovanın növbəti Şopen gecələrindən birində SSRİ Xalq artisti Kozlovski demişdir: "Bu parlaq ifa idi. Bu pianistin ifasında Şopenin interpretasiyaları bir daha onu sübut etdi ki, dahi insanların musiqisi dahi ifaçıları tapır".

Brennerin istedadlı tələbələrindən olan Z. Adıgözəlzadə hələ kiçik yaşlarından parlaq istedadlı Brennerin, eyni zamanda Azkonsertin solisti olan Adilə Əliyeva da Azərbaycan bəstəkarlarının əsərlərini böyük şövqlə təbliğ edirdilər. O öz solo konsertlərini Azərbaycan bəstəkarlarının əsərlərinin üzərində quraraq bu əsərlərin ifa formasını göstərirdi.

Bir məsələni qeyd etmək yerinə düşərdi ki, fortepiano ifaçılığının inkişafında müxtəlif cərəyanlar və müxtəlif məktəbin nümayəndələri fəaliyyət göstərirdi ki, bu da ifaçılıq ənənələrinin zənginləşməsinə xidmət edirdi. Qoldenveyzerin məktəbinin nümayəndələrindən olan N. Usubova.

F.Quliyeva Moskva Konservatoriyasının aspiranturasında onun sinfində oxuyarkən qazandıqları ustalığı müvəffəqiyyətlə Azərbaycan Dövlət Konservatoriyasında təbliğ edirdilər.

Neyqauz məktəbinin görkəmli və istedadlı nümayəndəsi olan A. S. Baron 1938-1946-cı illərdə Azərbaycan Dövlət Konservatoriyasında dərs demiş və N. Usubova kimi pianist-pedaqoq yetirmişdir. Neyqauz məktəbinin daha bir görkəmli nümayəndəsi olan Maqametova-Qavşon həm Bülbül adına onillik məktəbdə, həm də Azərbaycan Dövlət Konservatoriyasında dərs demişdir. Feynberq fortepiano məktəbinin nümayəndəsi olan Umanskaya konservatoriyada Bülbül adına məktəbdə dərs deyərək yeni nəsil pianoçular yetirmişdir.

## Nəticə

Nikolayev fortepiano məktəbinin nümayəndəsi və davamçısı olan Brenner Azərbaycan fortepiano ifaçılığının inkişafında əvəzsiz xidmət göstərmişdir. Bu mənada Nikolayev məktəbinin nümayəndələri olan Z. Adıgözəlzadə, A. Məhərrəmova, F. Hacıyevanı hesab etmək olar.

Rus pianoçuluq məktəbinin pedoqoji təcrübəsini ümumiləşdirdikdə belə nəticəyə gəlmək olar ki, onlar öz pianoçuluq və ifaçılıq təcrübəsində müxtəlif milli məktəblərin ənənələrini sintez etmişlər.

## Ədəbiyyat


1. Abasquliyev, O. H., Kəngərlinskaya, T. F. (2001). *Fortepiano metodikasından mühazirə kursu*. TS.
2. Abdullayeva, S. A. (2002). *Azərbaycan xalq çalğı alətləri*. Adiloğlu.
3. *Azərbaycan təhsil siyasəti* (1998-2004). (2005). I kitab. Çaşıoğlu.
4. Azərbaycan milli musiqisinin tədqiqi məsələləri. (2004). *Elmi məqalələr toplusu* (V buraxılış). Adiloğlu.
5. Bakıxanov, T. O. (2003). *Musiqili ömrüm*. Əbilov, Zeynalov və oğulları.
6. Bədəlbəyli, F. (1997). (tərtib. T. Seyidov, A. Hüseynova). *Məqalələr, materiallar*. Qapp-poliqraf.
7. Əfəndiyeva, İ. M. (2007, 26 dekabr). Zirvənin yüksəkliyi və paklığı. *Xalq qəzeti*.
8. Paşayev, O. O. (red.). (1985). Azərbaycan arxivi (2-3(25-26)).


Daxil oldu: 23.06.2024
Baxışa göndərildi: 21.07.2024
Təsdiq edildi: 17.08.2024
Çap olundu: 30.08.2024

https://doi.org/10.36719/2706-6185/38/21-25

**Təbriz Əliyev**
Azərbaycan Dövlət İqtisad Universiteti
doktorant
tabriz.aliyev@yahoo.com

# Azərbaycanda kapital bazarlarının inkişaf istiqamətləri

**Xülasə**

Azərbaycanda kapital bazarlarının inkişaf istiqamətləri ölkənin iqtisadi yüksəlişinə töhfə verəcək strategiyalar və islahatlarla formalaşır. Kapital bazarlarının inkişafı həm yerli, həm də xarici investorların diqqətini cəlb etmək, maliyyə dərinliyini artırmaq və iqtisadiyyatın diversifikasiyasını təmin etmək üçün çox vacibdir. İnvestorlar və şirkətlər üçün mühüm resurs təmin etməklə yanaşı, kapital bazarları iqtisadi artımı dəstəkləyən bir çox üstünlüklər təklif edir.

Kapital bazarlarının inkişafı iqtisadi inkişafı sürətləndirir və maliyyə sabitliyini dəstəkləyir. Odur ki dövlətin və müvafiq qurumların kapital bazarlarının inkişafı istiqamətində səyləri ölkənin uzunmüddətli iqtisadi məqsədlərinə çatmaqda mühüm rol oynayır.

Məqalədə maliyyə bazarının fəaliyyətinin nəzəri və praktik aspektləri müzakirə olunur, müxtəlif maliyyə alətlərinin gəlirlilik səviyyəsinin dinamikası və maliyyə bazarının seqmentlərinin inkişaf dərəcəsi təhlil edilir.

***Açar sözlər:*** *maliyyə bazarı, investorlar, fond birjaları, kapital*

**Tabriz Aliyev**
Azerbaijan State University of Economics
Ph. D. student
tabriz.aliyev@yahoo.com

# Development Directions of Capital Markets in Azerbaijan

**Abstract**

Development directions of capital markets in Azerbaijan are formed by strategies and reforms that will contribute to the country's economic growth. The development of capital markets is very important for attracting the attention of both domestic and foreign investors, increasing financial depth and diversifying the economy. In addition to providing an important resource for investors and companies, capital markets offer many benefits that support economic growth.

The development of capital markets accelerates economic growth and supports financial stability. Therefore, the efforts of the state and relevant institutions towards the development of capital markets play an important role in achieving the country's long-term economic goals.

The article discusses the theoretical and practical aspects of financial market activity, analyzes the dynamics of the level of profitability of various financial instruments and the degree of development of financial market segments.

***Keywords:*** *financial market, investors, stock exchanges, capital*

## Giriş

Maliyyə sistemi – qarşılıqlı əlaqə və qarşılıqlı fəaliyyət göstərən maliyyə münasibətlərinin ayrı-ayrı həlqələrinin məcmusudur. Maliyyə sistemi vasitəsilə pul vəsaitləri fondlarının bölgüsü, formalaşması və istifadəsi həyata keçirilir. Maliyyə sisteminə ölkənin maliyyə fəaliyyətinin və pul tədavülünün tənzimlənməsinə xidmət edən maliyyə idarələri daxil edilir (Novruzov, Hüseynov, 2007, s. 15).

Maliyyə (*lat. financia – pul tədiyəsi; fr. francia – əldə olunan vəsait, gəlir*) pul vəsaitləri fondunun bölgüsü və istifadəsi ilə əlaqədar yaranan münasibətlər sistemidir. Bu münasibətlər

Creative Commons Attribution-NonCommercial 4.0 International (CC BY-NC 4.0) 

dövlətlə hüquqi və fiziki şəxslər, həmçinin dövlətlər arasında baş verə bilər (Sadıqov, 2003, s. 13). Maliyyənin başlıca təyinatı pul gəlirləri və fondlarının yaradılması yolu ilə dövlətin və müəssisələrin pul vəsaitlərinə olan tələbatını təmin etmək və maliyyə resurslarının xərclənməsi üzərində nəzarət etməkdən ibarətdir (Bağırov, Həsənli, 2011, s. 7).

Maliyyə bazarı anlayışı maliyyə sisteminin digər elementlərinə nisbətən daha yeni anlayış hesab olunur və müxtəlif ədəbiyyatlarda fərqli formalarda izah edilir. Onun iqtisadiyyatda əsas rolu maliyyə resurslarının yenidən bölgüsünü təşkil etməkdir. Belə ki, maliyyə resurslarının formalaşması, onun daha səmərəli bölgüsü və məqsədyönlü istifadəsinin təmin edilməsi məhz maliyyə bazarının köməyi ilə müntəzəm olaraq idarə olunur. Tarixi mənbələrə görə, maliyyə bazarının ilk rüşeymi kimi ilk fond birjaları əmtəə birjalarının tərkib hissəsi kimi mövcud idilər. Burada pul öhdəlikləri (istiqraz, veksel, etibarnamələr) və pul vəsaitləri maliyyə alətləri kimi çıxış edirdi (Əbdürəhmanova, 2015, s. 6).

Hazırda dünya ölkələrinin iqtisadi inkişafında maliyyə bazarı getdikcə daha çox əhəmiyyət kəsb edir. Müasir şəraitdə maliyyə bazarları mülkiyyət formasından asılı olmayaraq həm makroiqtisadi sahədə, həm də dövlət səviyyəsində maliyyə ehtiyatlarının təmin edilməsində mühüm rol oynayır.

Azərbaycanda da kapital bazarları ölkənin iqtisadi inkişafı və maliyyə sabitliyi üçün mühüm rol oynayır. Lakin bu bazarlar hələ tam formalaşmayıb, inkişaf prosesindədirlər. Ölkəmiz kapital bazarlarının inkişafı üçün bu strategiyaları qəbul etməklə maliyyə bazarlarının dərinləşməsini və iqtisadi artımın davamlılığını təmin edə bilər. Bu addımlar ölkənin qlobal maliyyə bazarlarında rəqabət qabiliyyətini artıracaq və iqtisadi inkişafa dəstək verəcək.

Son zamanlar respublikamızda aparılan iqtisadi islahatların əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu iqtisadi islahatlar inkişaf strategiyasının əsas tərkib hissəsi sayılır. Bu islahatlar əsas makroiqtisadi göstərici olan iqtisadi artımın təmin edilməsinə xidmət edir. Strateji baxımdan bu islahatlar ölkədə iqtisadi siyasət paradiqmasını müəyyən edən son dərəcə mühüm amildir. Hazırda Azərbaycan iqtisadi inkişafın yeni keyfiyyət mərhələsinə qədəm qoyub.

Azərbaycanı hərtərəfli tərəqqi yoluna çıxaran ümummilli liderimiz Heydər Əliyevin müstəqil dövlətimizə rəhbərlik etdiyi dövrün nailiyyətləri göz önündədir: ictimai-siyasi sabitlik, güclü iqtisadiyyat, möhkəm sosial təsisatlar, qüdrətli ordu, regionda lider mövqe, beynəlxalq aləmdə nüfuz. Bütün bunlar günümüzün reallığıdır (Şəkərəliyev, 2011, s. 6).

Maliyyə bazarları hər bir ölkənin iqtisadi inkişafı üçün aktual bir istiqamətdir. Belə ki, müasir dövrdə ölkə iqtisadiyyatının inkişafı bilavasitə qarşılıqlı ticarətdən asılıdır. Çünki beynəlxalq və yerli şəraitdə qarşılıqlı ticarət həm idxalçı, həm də ixrac edən tərəflər üçün böyük iqtisadi əhəmiyyətə malikdir. Bu baxımdan maliyyə axınlarının təşkil olunmasında maliyyə bazarları bilavasitə böyük rol oynayırlar. Maliyyə bazarında iştirak edən şirkətlərin əsas məqsədi maliyyə vəsaiti əldə etmək, bu vəsaiti mümkün investisiya layihələrinə sərf edərək yüksək gəlir əldə etmək və maliyyə vəsaitini təklif edən tərəfi razı salacaq gəlirliliyi yaratmaqdır. İnvestorların maliyyə bazarlarında iştirak etmələrinin əsas məqsədi sahib olduqları vəsaitlərdən yüksək gəlir əldə etməkdir.

Milli iqtisadiyyatda müşahidə edilən sürətli inkişaf prosesləri xarici-iqtisadi əlaqələrdə də təzahür olunur və bu əlaqələrin əsas göstəricilərinin təhlili beynəlxalq iqtisadi inteqrasiya proseslərinin sürətləndiyini göstərir. Bununla yanaşı, xarici-iqtisadi əlaqələrin coğrafiyasının və idxal-ixrac əməliyyatlarının regional strukturunun dinamik şəkildə dəyişikliyi, ixracın artımında neft sektorunun rolunun artması müşahidə olunur (Cəfərov, 2015, s. 60).

Qeyd etmək lazımdır ki, Azərbaycanda müasir şəraitdə iqtisadiyyatın inkişafı göz önündədir. Ölkəmizdə maliyyə bazarları yüksək inkişaf dövrü keçir. Azərbaycan inkişaf etməkdə olan maliyyə bazarları qrupuna daxildir. Ölkəmizin gələcəkdə dünya iqtisadiyyatına inteqrasiya etməsi, beynəlxalq ticarətin həcminə görə yüksək mövqe qazanması üçün düşünürəm ki, beynəlxalq ticarətin həcmini artırmaq lazımdır; bu isə, əlbəttə ki, maliyyə vəsaitləri ilə aparılan ticarət əməliyyatları hesabına mümkündür. Düşündükdə ki, dünyada gedən iqtisadi əməliyyatların böyük bir hissəsi beynəlxalq maliyyə bazarlarında (pul bazarları, kapital bazarları) aparılır və bu əməliyyatların gerçəkləşməsi üçün maliyyə bazarlarının inkişafına nail olmaq lazımdır, ölkəmizin iqtisadiyyatının dünyada iqtisadi mövqeyinin möhkəmlənməsi, beynəlxalq, eləcə də yerli səviyyədə kapital qoyuluşlarının artırılması və dünya iqtisadiyyatına inteqrasiyası üçün maliyyə bazarları

inkişaf etməlidir. Buna görə də maliyyə bazarlarının iqtisadiyyatın inkişafında aktuallığını başa düşmək olar.

Dünya iqtisadiyyatında beynəlxalq mal va xidmət axınları ilə yanaşı, kapital axınları da vardır. Beynəlxalq kapital hərəkətlərini üç ana başlıq altında toplamaq olar: ölkənin iqtisadi inkişafını maliyyələşdirməyə yönəlmiş qarşılıqsız kredit və ya kredit şəklində rəsmi kapital hərəkətləri (hökumətdən hökumətə və ya dünya bankından verilən iki və ya çoxtərəfli xarici yardımlar), birbaşa xarici kapital investisiyaları və portfel xarakterli kapital axınlarıdır. Beynəlxalq kapital beynəlxalq maliyyə bazarlarından kommersiya şərtləri ilə əldə edilir. Bir ölkə rezidentləri digər bir ölkə rezidentlərinə maliyyə qaynağı təmin edirsə, buna beynəlxalq maliyyə işləmi deyilir. Beynəlxalq maliyyə işləminin təməl məqsədi – fond sahiblərinin xarici bazarlarda fondlarını istifadəyə verərək daxili bazarlara görə daha yüksək gəlir əldə etməkdir. Beynəlxalq kapital ixracı bir ölkənin əlindəki fondlarının digər bir ölkənin fond və kapital bazarlarına yatırılması deməkdir. Əslində, kapital ixracı bir ölkənin pul yığımlarının digər bir ölkənin iqtisadiyyatı üçün istifadəsidir. Bunun nəticəsində iqtisadiyyatda iqtisadi yüksəliş aşağı düşür, işsizlik artır və tədiyyə balansı pozulur.

Son on beş ildə respublikamızda maliyyə bazarı və onu təşkil edən seqmentlər üzrə normativ baza yaradılmış, yəni bir çox qanun və qərarlar qəbul edilmişdir. Azərbaycan Respublikasının Mülki Məcəlləsi maliyyə icarəsinin (lizinqin), etimadlı idarəetmənin, pul tələbnaməsinin güzəşti əsasında (faktorinqin) maliyyələşdirmənin hüquqi əsasını müəyyən etdi (Sadıqov, 2003, s. 32).

Bir ölkə sakinlərinin digər bir ölkə sakinlərini maliyyə qaynağı ilə təmin etmələri beynəlxalq kapital işləmidir və əməliyyat beynəlxalq kapital bazarlarında gerçəkləşir. Beynəlxalq kapital hərəkətlərinin olması üçün hər şeydən öncə bir maliyyə qaynağı və ya kapitalın (investisiya fondu) olması labüddür. Maliyyə qaynağı və ya investisiya fondu müəyyən bir gəlir qarşılığında başqalarının yararlanmasına verilən və hər zaman istifadəyə hazır olan və likvidliyi yüksək olan fondlardır. Maliyyə işləmələri maliyyə bazarlarında aparılır. Bu bazarlar – pul bazarları və kapital bazarları olmaqla iki yerə ayrılır. Əgər maliyyə qaynaqları müəyyən bir faiz gəliri əldə etmək məqsədi ilə hərəkət edirsə, bu əməliyyata kredit adı verilir. Beynəlxalq maliyyə axınları qısa (1 ildən az), orta (1–5) və uzunmüddətlidir (5 ildən çox). Pul bazarlarındakı əməliyyatlar əsasən kommersiya bankları vasitəsilə aparılır və buradakı əməliyyatlar qısamüddətlidir. Kapital bazarında işləmələr isə istiqraz və səhm kimi qiymətli kağızlarla gerçəkləşdirilir. İstiqraz müəyyən bir sabit faiz gəliri gətirən borc sənədidir.

Kapital bazarı sərbəst əmanətlərin likvidliyə ehtiyacı olan sektorlara köçürülməsi və ölkə iqtisadiyyatında kapitalın yığılmasını təmin etmək üçün böyük əhəmiyyətə malikdir. Bu kapital bazarı funksiyasını yerinə yetirə bilmək üçün sağlam və təhlükəsiz bir pul köçürməsini təmin etmək və investorları bu müddətdə az qənaətlə qorumaq lazımdır.

Broker firmalarının iştirakı ilə əlaqəli risklər, investorların qorunması qaydalarının tətbiq edilməsinin səbəblərini əhatə edir. Broker şirkətlərinin brokerliyi ilə əlaqəli risklər, bazar uğursuzluğundan yaranan problemlər aradan qaldırılsa da, resursların səmərəli bölüşdürülməsi təmin olunsa da, kapital bazarındakı brokerlərin investor və dek emitentləri arasındakı əməliyyatlarda yaranır.

Uzun illərdir ki, Azərbaycanda təkcə kapital bazarı deyil, həm də onun strukturu mövcuddur; kommersiya və investisiya bankları, birjalar, sığorta şirkətləri və s. işləmirdi. Lakin aparılan iqtisadi siyasət nəticəsində kapital sisteminin formalaşması və inkişafı ölkənin iqtisadi cəhətdən inkişafına imkan verdi. 2015-ci ildən bəri xarici iqtisadi sarsıntılar və milli valyutanın dəyərdən düşməsi ilə maliyyə sisteminin riskə həssaslığı artdı və maliyyə göstəriciləri pisləşdi. Artan risklər fonunda bəzi maliyyə qurumlarının davamlı və uzunmüddətli hədəflərinə yönəlmiş bir iş modeli və strategiyasının olmaması, sadə risklərin idarə edilməsi maliyyə sisteminin yeni iqtisadi vəziyyətə, bazar şərtlərinə uyğunlaşmasını və məhdud maliyyə vasitəçiliyini çətinləşdirdi. Strateji hədəflər yeni problemlərin həllinə, bankların yenidən qurulmasına və kapitallaşmasına, aktivlərin bərpasına, sığorta bazarının inkişafına və maliyyə iştirakının artırılmasına yönəlmiş tədbirlər müəyyən edilmişdir. Araşdırmamızda əsas diqqət pul və kapital bazarlarının, ilkin və təkrar bazarların, investorun konsepsiyasının, Azərbaycan Respublikası Prezidentinin imzaladığı kapital bazarının qaydalarına və investorların qorunması qaydalarına riayət edilməsinin vacibliyinə yönəldiləcək.

Azərbaycan Respublikasının Prezidentinin 28 noyabr 2019-cu il Sərəncamına əsasən, Azərbaycan Respublikasının qanunlarında maliyyə bazarlarına nəzarət orqanının müəyyən edilmiş səlahiyyətləri, o cümlədən onun maliyyə xidmətləri bazarında lisenziyalaşdırma, tənzimləmə və nəzarət, investorların və maliyyə xidmətləri istehlakçılarının hüquqlarının qorunması sahəsində vəzifə və hüquqları, habelə əmlakı Azərbaycan Respublikasının Mərkəzi Bankına verilmişdir.

Dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi sahələrinin davamlı və dayanıqlı inkişaf təcrübəsinin tədqiqi göstərir ki, sahələr üzrə Dövlət Proqramlarını, İnkişaf Konsepsiyalarını və İnkişaf Strategiyalarını müasir tələblərə müvafiq hazırlayan, onların mərhələli icrasını təmin edən, müvafiq islahatlar aparan ölkələr dinamik inkişafa nail olurlar. Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində islahatlar, bu islahatları şərtləndirən və həyata keçirilməsini təmin edən sahə proqramları, inkişaf konsepsiyaları və strategiyalar hazırlanır, onların inkişaf mərhələlərinə müvafiq həyata keçirilməsi təmin edilir (Abbasov, 2005, s. 11).

Azərbaycan Milli Bankının (Mərkəzi Bank) kapital bazarlarının inkişaf strategiyası çərçivəsində ölkənin maliyyə bazarlarının gücləndirilməsi və iqtisadi artımın dəstəklənməsi üçün 2024–2026-cı illər üçün hədəflər müəyyən edilib. Bu məqsədlər bazarların şəffaflığını, səmərəliliyini və investorların etibarını artırmaq məqsədi daşıyır.

**Azərbaycan Milli Bankının 2024–2026-cı illər üçün təqdim etdiyi kapital bazarlarının inkişaf strategiyasının məqsədləri açıqlanmışdır.**

- *Hüquq islahatları:* Kapital bazarlarının səmərəli və təhlükəsiz fəaliyyətini təmin etmək üçün hüquqi islahatların həyata keçirilməsi. Bu kontekstdə investorların hüquqlarının qorunması, bazar manipulyasiyasının qarşısının alınması və məlumatların açıqlanması tələblərinin artırılması nəzərdə tutulur.
- *Tənzimləyici qurumların gücləndirilməsi:* Qiymətli Kağızlar üzrə Azərbaycan Komissiyasının və digər tənzimləyici qurumların imkanlarının artırılması audit və nəzarət fəaliyyətinin effektivliyini artıracaq.
- *Texnoloji investisiyalar:* Elektron ticarət platformalarının inkişafı və bazar infrastrukturunun modernləşdirilməsi əməliyyat xərclərini azaldacaq və əməliyyatların həcmini artıracaq.
- *Mərkəzi saxlama və klirinq qurumları:* Mərkəzi saxlama və klirinq qurumlarının əməliyyat imkanlarının artırılması əməliyyatların təhlükəsiz və tez tamamlanmasını təmin edəcək.
- *Yeni maliyyə məhsulları:* Səhmlər, istiqrazlar, qarşılıqlı fondlar və törəmə məhsullar kimi müxtəlif maliyyə alətlərinin işə salınması təşviq ediləcək.
- *Yaşıl və sosial istiqrazlar:* Ətraf mühitə uyğun və sosial layihələri maliyyələşdirən istiqrazların buraxılması davamlı inkişaf məqsədlərinə nail olmağa kömək edəcəkdir.
- *Yerli investorların təşviqi:* Yerli fərdi və korporativ investorların kapital bazarlarında iştirakını artırmaq üçün təlim proqramları, vergi güzəştləri və digər dəstəkləyici siyasətlər həyata keçiriləcək.
- *Xarici investorların cəlb edilməsi:* Xarici investorlar üçün cəlbedici investisiya mühitinin yaradılması xarici kapital axınını artıracaq. Bu kontekstdə valyuta məzənnələrinin sabitliyi, kapitalın hərəkət azadlığı və investisiya mühitinin təhlükəsizliyi önə çəkiləcək.
- *Korporativ idarəetmə standartları:* Şirkətlərin korporativ idarəetmə standartlarına uyğunluğu təşviq ediləcək və investorların inamı artırılacaqdır.
- *Şəffaflıq və məlumatların açıqlanması*: Şirkətlər öz maliyyə göstəricilərini və digər vacib məlumatları vaxtında və dəqiq şəkildə açıqlamağa təşviq ediləcəklər.
- *Davamlı maliyyə:* Ətraf mühit, sosial və idarəetmə (ESG) meyarlarına uyğun olan maliyyə məhsulları və investisiyaların təşviqi.
- *Sosial məsuliyyət:* Şirkətlərin sosial məsuliyyət layihələrinə və davamlı inkişaf məqsədlərinə töhfəsi.

## Nəticə

Bu məqsədlər Azərbaycanın kapital bazarlarının daha dərin, daha likvid və etibarlı olmasına imkan verəcək, beləliklə, iqtisadi artımı və davamlı inkişafı dəstəkləyəcək. Azərbaycan Milli Bankı bu strategiyaların həyata keçirilməsi üçün lazımi tədbirlər görmək və müvafiq qurumlarla əməkdaşlıq etməklə kapital bazarlarının inkişafına dəstək verəcək.

## Ədəbiyyat

1. Abbasov, A. (2005). *Qiymətli kağızlar bazarının formalaşması və inkişaf perspektivləri.*
2. Atəşov, B. (2016). *Maliyyə bazarları.*
3. Bağırov, D. A., Həsənli, M. X. (2011). *Maliyyə* (dərs vəsaiti).
4. Cəfərov, C. (2015). *Azərbaycanda maliyyə bazarının təkmilləşdirilməsi istiqamətləri.*
5. Əbdürəhmanova, A. (2015). *Azərbaycanda maliyyə bazarının formalaşması problemləri.*
6. *Maliyyə bazarı.* (2024, 28 yanvar). Vikipediya. https://az.wikipedia.org/wiki/Maliyy%C9%99_bazar%C4%B1
7. Novruzov, N., Hüseynov, X. (2007). *Maliyyə* (dərslik).
8. Sadıqov, E. (2003). *Azərbaycanın maliyyə bazarı və onun inkişaf perspektivləri.*
9. Şəkərəliyev, A. Ş. (2011). *Dövlətin iqtisadi siyasəti dayanaqlı və davamlı inkişafın təntənəsi.*

Daxil oldu: 30.06.2024
Baxışa göndərildi: 19.07.2024
Təsdiq edildi: 04.08.2024
Çap olundu: 30.08.2024

https://doi.org/10.36719/2706-6185/38/26-30

**Gülşən Mikayılova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
doktorant
mikayilova_gulshen@mail.ru

# İbtidai sinif riyaziyyat kursunun təhsildə rolu

**Xülasə**

İbtidai sinif riyaziyyat kursunun təhsildəki rolu olduqca vacib və aktualdır. İbtidai sinif riyaziyyat kursu, şagirdlərin təhsilinin əsasını təşkil edir və onların gələcəkdə uğur qazanmaları üçün son dərəcə vacib bacarıqların inkişafına yardım edir. Bu kurs, şagirdlərin gələcək təhsil və peşə fəaliyyətlərində uğur qazanması üçün təməl rol oynayır. İbtidai sinif riyaziyyatı yalnız rəqəmləri tanımaq, sadə riyazi əməliyyatları yerinə yetirmək bacarıqlarını deyil, eyni zamanda məntiqi düşüncəni inkişaf etdirir. Problem həll etmə qabiliyyəti, məntiqi təfəkkür və analitik düşüncə tərzinin inkişafı da bu kursun əsas məqsədlərindən biridir.

Bu kurs həm də şagirdlərin gündəlik həyatlarında qarşılaşdıqları müxtəlif məsələlərin həllinə imkan verir. Məsələn, vaxtın düzgün idarə olunması, büdcənin səmərəli şəkildə planlaşdırılması və alış-veriş zamanı düzgün qərarlar qəbul etmək kimi məsələlərdə riyaziyyat biliklərinin rolu böyükdür. İbtidai sinifdə öyrənilən riyaziyyat dərsi şagirdlərin digər fənlərdə də uğur qazanmalarını dəstəkləyir, çünki riyazi düşüncə tərzi xüsusilə elmi və texniki fənlərdə də əsas rol oynayır. Riyazi biliklər müasir zamanda elm, texnologiya, mühəndislik, iqtisadiyyat kimi müxtəlif sahələrdə geniş şəkildə tələb olunur və istifadə edilir.

Beləliklə, ibtidai sinif riyaziyyat kursunun təhsildəki rolu əvəzolunmazdır və bu rol olduqca mühüm əhəmiyyət kəsb edir. Bu kurs uşaqların təhsil və həyat uğurlarının təməlini təşkil edir və onların gələcəkdə daha mürəkkəb riyazi konsepsiyaları başa düşməsi və tətbiq etməsi üçün möhkəm baza yaradır. Uşaqlar bu kurs sayəsində gələcəkdə riyaziyyat sahəsində daha böyük uğurlar əldə edə bilərlər.

***Açar sözlər:*** *ibtidai sinif riyaziyyat kursu, məntiqi düşüncə, problemlərin analizi, fənlərarası əlaqələr, biliklərin inteqrasiyası*

**Gulshan Mikayilova**
Azerbaijan State Pedagogical University
Ph. D. student
mikayilova_gulshen@mail.ru

# The Role of the Introductory Course of Mathematics in Education

**Abstract**

The role of the primary school mathematics course in education is extremely important and relevant. The primary school mathematics course forms the foundation of students' education and greatly aids in the development of essential skills for their future success. This course plays a fundamental role in ensuring that students achieve success in their future education and career endeavors. Primary school mathematics not only involves recognizing numbers and performing simple mathematical operations but also develops logical thinking. The ability to solve problems, logical reasoning, and analytical thinking are also key objectives of this course.

This course also enables students to solve various issues they encounter in their daily lives. For example, the role of mathematical knowledge is significant in tasks such as time management, efficient budgeting, and making correct decisions while shopping. The mathematics learned in primary school supports students' success in other subjects as well because mathematical thinking, particularly in scientific and technical subjects, plays a crucial role. In the modern time,

Creative Commons Attribution-NonCommercial 4.0 International (CC BY-NC 4.0) 

mathematical knowledge is widely required and utilized in various fields such as science, technology, engineering, and economics.

Therefore, the role of the primary school mathematics course in education is indispensable and holds great importance. This course lays the foundation for children's educational and life success, providing a strong base for understanding and applying more complex mathematical concepts in the future. Through this course, children can achieve even greater success in the field of mathematics in the future.

***Keywords:*** *introductory mathematics course, logical thinking, problem analysis, interdisciplinary connections, knowledge integration*

## Giriş

İbtidai sinif riyaziyyat kursu müxtəlif səbəblərdən təhsil prosesində mühüm rol oynayır: Bu kurs daha mürəkkəb riyazi konsepsiyaları və əməliyyatları anlamaq üçün əsas yaradır. İbtidai sinif riyaziyyat kursu şagirdlərə toplama, çıxma, vurma və bölmə kimi əsas riyazi bacarıqları öyrədir. Riyaziyyat məntiqi və tənqidi düşüncəni inkişaf etdirir. Şagirdlər məsələləri həll etməyi, arqumentlər qurmağı və məlumatlar əsasında nəticələr çıxarmağı öyrənirlər. Riyaziyyat ciddi bir elm olduğundan, onun istər ibtidai, istərsə də orta məktəb kursu ciddi bir fəndir. Ona görə də riyaziyyat tədrisinin ilk günündə müəllim fənnin xüsusiyyətləri haqqında şagirdlərə konkret, aydın təsəvvürlər yaratmalıdır (Səmədzadə, 2005, s. 22). İbtidai sinfin riyaziyyat kursu müxtəlif riyazi anlayışlarla zəngindir. Artıq 1-ci sinifdə şagirdlər "rəqəm", "ədəd", "toplanan", "cəm", "parça" və s. anlayışlar ilə tanış olurlar və yuxarı siniflərə keçdikcə anlayışların sayı çoxalır (Feyziyev, Şükürov, 2014, s. 47).

Riyaziyyat şagirdlərdə məntiqi düşüncənin inkişafında əsas rol oynayır. Bunu şagirdlərdə inkişaf etdirmək müəllimin üzərinə düşən vəzifələrdən biridir. Elmlərin, həmçinin tədris fənlərinin inteqrasiyasının vacib olduğu müasir dövrdə riyaziyyat müəllimlərinin elmi-metodiki hazırlığı ciddi əhəmiyyət daşıyır (Əliyeva, 2017, s. 55).

Analiz və məsələ həlli vacib faktordur. Riyaziyyat öyrənərkən şagirdlər müxtəlif məsələlərlə qarşılaşırlar ki, bunlar da analizi və həll yollarının tapılmasını tələb edir. Onlar mürəkkəb problemləri daha sadə komponentlərə ayırmağı, onların strukturunu anlamağı və əsas elementləri aşkar etməyi öyrənirlər. Məntiqi ardıcıllıqlar kursun öyrənilməsində xüsusi əhəmiyyətə malikdir. Riyazi məsələlər tez-tez hərəkətlərin müəyyən ardıcıllıqla yerinə yetirilməsini tələb edir. Bu, uşaqlara uğurlu məsələləri həll etmək üçün məntiqi qaydaya əməl etməyi öyrədir. Riyaziyyat təlimi prosesində şagirdlərin əqli fəallığı anlayışların formalaşmasında xüsusi əhəmiyyətə malikdir (Adıgözəlov, 2012, s. 38).

Digər tərəfdən, sübutlar və əsaslandırmalara da diqqət yetirilməlidir. Şagirdlər hipotezləri formalaşdırmağı və onları məntiqi cəhətdən sübut etməyi öyrənirlər ki, bu da tənqidi düşüncəni, fikirləri, arqumentləndirmə qabiliyyətini inkişaf etdirir. Riyazi məsələləri həll edərkən şagirdlər arqumentlər qurmağı və həll yollarını əsaslandırmağı öyrənirlər. Bu, aydın düşüncə xətti formalaşdırmaq və nəticəyə çatmaq üçün məntiqi əlaqələrdən istifadə etməyi əhatə edir. Şagirdlərin idrak fəallığı təlim fəaliyyətinə daxildir. Şagirdləri yeni biliklərlə silahlandırmaq üçün tədris məsələlərindən (riyazi, idrak, məntiqi məsələlər) istifadə olunur. Tədris məsələləri şagirdin fəaliyyətinin struktur komponentidir (Rzayev, 2016, s. 12).

Riyaziyyat vasitəsilə məntiqi düşüncənin inkişaf etdirilməsi uzunmüddətli üstünlüklərə malikdir. Bu bacarıqlar yalnız təhsildə deyil, həm də gündəlik həyatda faydalı olub, əsaslandırılmış qərarlar qəbul etmək, problemləri həll etmək və məlumatları tənqidi qiymətləndirməkdə kömək edir. Məntiqi düşüncə gələcəkdə uğurlu təhsil və peşə fəaliyyəti üçün əsasdır. Riyaziyyat məntiqi qanunlar və prinsiplər üzərində qurulub. Bu qanunların öyrənilməsi və onların məsələlərin həllində tətbiqi şagirdlərə məntiqi prinsipləri müxtəlif kontekstlərdə anlamağa və tətbiq etməyə kömək edir. Eyni zamanda riyaziyyat tənqidi düşüncəni inkişaf etdirməyə kömək edir, çünki şagirdlər qərarlarını şübhə altına almağı, onların düzgünlüyünü yoxlamağı və məsələlərin həllində alternativ yollar axtarmağı öyrənirlər. Müxtəlif məşğələlərdən misallara baxaq:

1. Tənliklərin həlli: Şagirdlər tənliklərin həlli üçün addım-addım metodlardan istifadə etməyi, hər mərhələni yoxlamağı və növbəti mərhələyə məntiqi keçid etməyi öyrənirlər.
2. Həndəsi sübutlar: Həndəsədə şagirdlər teoremləri məntiqi arqumentlər və quruluşlar vasitəsilə sübut edirlər. Bu, onlara müxtəlif həndəsi obyektlər arasındakı əlaqələri görməyi öyrədir.
3. Qrafiklərin analizi: Şagirdlər funksiyaların davranışını və xüsusiyyətlərini anlamaq üçün funksiyaların qrafiklərini təhlil edirlər. Bu, məlumatların interpretasiyasında məntiqi yanaşmanı tələb edir.

Riyaziyyatın ibtidai kursunun riyazi təhsildə rolu və əhəmiyyətini ibtidai siniflərdə riyaziyyat təliminin vəzifələri müəyyən edir. Onlardan biri də riyaziyyatdan həyatla əlaqələndirilən kəmiyyətlər və onlar arasında əlaqəyə əsasən həll edilən məsələlər həlli zamanı yaradıcı tətbiq etmə tək nəzəriyyədən öyrənilənlərin tətbiqi bacarığı deyil, həm də öyrəndiklərinin həyatda rastlaşdıqları problemlərin həllində tətbiq etmə bacarığı formalaşdırmaqdır (Cəbrayılov, 2023, s. 7).

Riyaziyyatla məşğul olmaq yaddaşı və diqqəti inkişaf etdirməyə kömək edir, bu da ümumi koqnitiv inkişafı yaxşılaşdırır. İbtidai sinif riyaziyyat kursunun uğurla mənimsənilməsi uşaqların özünəinamını və özünü qiymətləndirməsini artırır. Digər tərəfdən, şagirdin tədris fəaliyyətində şəxsiyyətyönümlü nəzarətə və tərbiyəyə yer verilməlidir, şagird özünənəzarətə və özünəqiymətləndirməyə hazır olmalıdır (Məcidova, 2015, s. 73). Şagirdlərin riyazi bacarıqları bir çox peşələrdə tələb olunur. Bu bacarıqlar onların gələcək peşə təhsili və karyerası üçün də əsas yaradır. Ümumilikdə, ibtidai sinif riyaziyyat kursu təhsil prosesinin ayrılmaz hissəsidir. Uşaqların həm intellektual, həm də praktik olaraq inkişaf etməsinə kömək edir, onları gələcək təhsil və həyata hazırlayır. İbtidai sinif riyaziyyat kursu şagirdlər üçün böyük əhəmiyyət kəsb edir. Bu kurs daha mürəkkəb riyazi konsepsiyaları və nəzəriyyələri anlamaq üçün əsas yaradır. Əsas bacarıqları əminliklə mənimsəmədən, daha inkişaf etmiş mövzuları öyrənmək çətin olacaq. Buna görə də ibtidai sinif riyaziyyat kursu gələcək riyazi təhsil və ümumi təhsil prosesinin möhkəm təməlini formalaşdırmaqda kritik rol oynayır. Beləliklə, şagirdlər əsas arifmetik əməliyyatları mənimsəyirlər: toplama, çıxma, vurma və bölmə. Bu bacarıqlar gələcək təhsil illərində daha mürəkkəb hesablamaları yerinə yetirmək üçün vacibdir. 6 yaşdan təlimə başlayan uşaqlar əşyaların ölçülərini (uzunluğu, eni və hündürlüyü) seçməyi və ölçüləri qiymətləndirməyi öyrənirlər. Həmin kəmiyyətləri qiymətləndirmək üçün əşyaların müqayisəsinə aid çalışmalardan istifadə edirlər. Uşaqlar bir ölçüsü ilə fərqlənən əşyaların müqayisəsindən əşyaların iki-üç ölçüsünə görə müqayisəsinə keçirlər (Adıgözəlov, Əhmədov, 2001, s. 88-89).

Bundan əlavə, ibtidai sinif riyaziyyat kursu şagirdlərə əsas ədədi konsepsiyaları anlamağa kömək edir. Məsələn, tam ədədlər, adi kəsrlər və onluq kəsrlər. Bu konsepsiyaların anlaşılması cəbr və digər riyazi fənlərin öyrənilməsi üçün vacibdir.

Digər tərəfdən, şagirdlər əsas həndəsi anlayışları və fiqurları, məsələn, xətlər, bucaqlar və çoxbucaqlılar haqqında öyrənirlər. Bu prinsiplər daha mürəkkəb həndəsənin, teoremlərin isbatlarının və üçölçülü fiqurlarla işin öyrənilməsi üçün əsas yaradır. İbtidai sinif riyaziyyat kursu bütün sonrakı riyazi və elmi təhsilin əsasını təşkil edir. Əsas bacarıqlara və konsepsiyalara yüksək səviyyədə yiyələnmək müxtəlif sahələrdə peşə fəaliyyətinin uğurla mənimsənilməsi üçün baza yaradır. Riyaziyyat şagirdlərə problemləri təhlil etməyi, onların həlli üçün məntiqi yollar axtarmağı və nəticələri yoxlamağı öyrədir. Riyaziyyat mürəkkəb konsepsiyaları və formulaları anlamaq üçün zəruri olan abstrakt düşüncəni inkişaf etdirir. Abstrakt düşüncə bacarığı elm və texnikada uğur üçün vacibdir. İbtidai riyaziyyat hesab bacarıqlarının möhkəmləndirilməsində mühüm rol oynayır. Beləliklə, şagirdlərə dəqiq hesablamalar aparmağı və mürəkkəb riyazi məsələlərin həlli üçün detallara diqqət yetirməyi öyrədir.

Digər tərəfdən, bu bacarıqlar şagirdləri test və imtahanlara hazırlamaq üçün əhəmiyyətlidir. Əsas riyazi biliklər tez-tez qəbul imtahanlarında və testlərdə yoxlanılır. İbtidai riyaziyyata yaxşı yiyələnmə təhsil müəssisələrinə uğurla daxilolma və yüksək qiymətlər əldə etmə şanslarını artırır. İbtidai sinif riyaziyyat kursu fənlərarası əlaqələrin əsasını qoyur. O, fizika, kimya, biologiya və iqtisadiyyat kimi digər fənlərin öyrənilməsi üçün əsasdır, burada riyazi metodlar və yanaşmalar mühüm rol oynayır. Təcrübə göstərir ki, ibtidai siniflərin riyaziyyat təlimində şagirdlərin ümumi inkişaf səviyyəsinin yüksəldilməsi təmin olunmadıqda onlar başqa fənlərin öyrənilməsində və

yuxarı siniflərin təlim fəaliyyətində əsaslı çətinliklərlə qarşılaşırlar (Abbasov, 2004, s. 6). Beləliklə, ibtidai sinif riyaziyyat kursu yalnız əsas bilik və bacarıqları təmin etmir, həm də uğurlu təhsil və peşə fəaliyyəti üçün zəruri olan intellektual qabiliyyətləri inkişaf etdirir. Riyaziyyatın nəzəri və tətbiqi hissələri təhsildə müxtəlif, lakin əhəmiyyətli rol oynayır, bir-birini tamamlayır və fənnin hərtərəfli anlaşılmasını təmin edir. Nəzəri riyaziyyat şagirdlərə abstrakt düşünməyi öyrədir, bu da onlara fiziki təcəssümü olmayan konsepsiyaları anlamaq və onlarla işləmək imkanı verir. Məsələn, bu, teoremlərin, isbatların və abstrakt strukturların (qruplar, halqalar, sahələr) öyrənilməsini əhatə edir.

Nəzəri riyaziyyat bütün digər riyaziyyat sahələrini anlamaq üçün əsasdır. Bu, rəqəmlər, funksiyalar, hədlər, törəmələr və inteqrallar kimi əsas anlayışların öyrənilməsini əhatə edir. Nəzəri riyaziyyat şagirdləri tədqiqat işinə hazırlamaq üçün vacibdir. Burada onlar yeni nəzəriyyələr və metodlar inkişaf etdirə bilərlər.

Digər tərəfdən, gəlin tətbiqi riyaziyyatın rolunu nəzərdən keçirək. Tətbiqi riyaziyyat müxtəlif sahələrdə, məsələn, fizika, mühəndislik, iqtisadiyyat, biologiya və tibb kimi konkret praktiki məsələlərin həlli üçün istifadə olunur. Məsələn, tətbiqi riyaziyyat hava proqnozlarının verilməsi, istehsal proseslərinin optimallaşdırılması və maliyyə məlumatlarının təhlili üçün riyazi modellərin istifadəsini əhatə edir. Həmçinin müxtəlif fənləri birləşdirməyə, riyazi metodları real problemlərə tətbiq etməyə kömək edir. Bu, biliklərin inteqrasiyasına və fənlərarası bacarıqların inkişafına kömək edir.

Şagirdlər məlumatların təhlili və interpretasiyası üçün zəruri olan rəqəmsal analiz, statistika və digər tətbiqi yanaşma metodlarını öyrənirlər. Bu bacarıqlar əmək bazarında tələb olunur və peşə fəaliyyətində faydalıdır. Tətbiqi riyaziyyat şagirdlərə nəzəri konsepsiyaların praktikada necə istifadə oluna biləcəyini göstərir. Bu, nəzəri biliklərin möhkəmləndirilməsinə və onların əhəmiyyəti və aktuallığının başa düşülməsinə kömək edir.

Nəzəri və tətbiqi riyaziyyat bir-birini tamamlayır. Nəzəri riyaziyyat tətbiqi məsələlərdə istifadə edilə biləcək alətlər və metodlar təqdim edir, tətbiqi məsələlər isə yeni nəzəriyyələrin inkişafını stimullaşdıra bilər. Təhsil proqramında nəzəri və tətbiqi riyaziyyatın öyrənilməsini balanslaşdırmaq vacibdir ki, şagirdlər hərtərəfli təhsil alsınlar, həm tədqiqat, həm də praktiki fəaliyyətə hazır olsunlar.

Məsələn, ibtidai sinif riyaziyyat kursunun gündəlik həyatda və peşə fəaliyyətində tətbiqinə bir misal üzərində baxaq.

**Vəziyyətin təsviri:** Dördüncü sinif şagirdi Leyla, ibtidai sinif riyaziyyat kursunu öyrənərkən, həm təhsildə, həm də gündəlik həyatda tətbiq olunan vacib bacarıqları inkişaf etdirməyə kömək edən müxtəlif məsələlərlə qarşılaşır.

**Əməliyyatlar:** Sinifdə Leyla toplama, çıxma, vurma və bölmə əməliyyatlarını öyrənir. Bu əsas arifmetik bacarıqlar ona aşağıdakı hallarda kömək edir:

**Cib xərclərinin idarə olunması:** Leyla öz cib xərclərini hesablayır, nə qədər pul xərclədiyini və nə qədər qaldığını müəyyən edir. O, həmçinin yeni bir oyuncaq almaq üçün pul yığmağı planlayır, xərclərini idarə edir.

**Mağazaya alış-verişə getmək:** Leyla valideynləri ilə mağazaya gedərkən səbətdəki malların qiymətini hesablayır, kassada deyilən məbləğlə uyğunluğu yoxlayır və müxtəlif məhsulların qiymətlərini müqayisə edərək ən sərfəli təklifləri seçməyə kömək edir.

**Vaxtın planlaşdırılması:** Leyla öz vaxtını planlaşdırmağı öyrənir, ev tapşırıqları və məşğələləri kiçik hissələrə ayırır. Bu, ona planlı olmağa və hər şeyi vaxtında yerinə yetirməyə kömək edir.

Nümunədən görünür ki, ibtidai sinif riyaziyyat kursu təhsildə vacib rol oynayır və Leylanın həm təhsildə, həm də gündəlik həyatda tətbiq olunan vacib bacarıqları inkişaf etdirməsinə kömək edir. Əməliyyatlar, məntiqi və tənqidi düşüncə, analiz və məsələlərin həlli – bütün bunlar onun gələcək təhsili və peşə fəaliyyətinin möhkəm əsasını təşkil edir.

## Nəticə

Beləliklə, ibtidai sinif riyaziyyat kursu mürəkkəb riyazi konsepsiyaların və əməliyyatların başa düşülməsi üçün əsas yaradır, əsas arifmetik bacarıqların öyrənilməsini təmin edir. O, həmçinin məntiqi və tənqidi düşüncənin inkişafına, məsələlərin həllinə, məlumatlara əsaslanan arqumentlərin və nəticələrin qurulmasına kömək edir. Bu kurs şagirdlərin yaddaşını və diqqətini inkişaf etdirməkdə müsbət təsir göstərir. Həm nəzəri, həm də tətbiqi riyaziyyat tələbələrdə riyazi konsepsiyaların dərin və hərtərəfli başa düşülməsini və onların real həyatda tətbiqini formalaşdırmaqda əsas rol oynayır.

## Ədəbiyyat

1. Abbasov, N. R. (2004). *Riyaziyyatın ibtidai kursunun təlimi prosesində şagirdlərin ümumi inkişaf səviyyəsinin yüksəldilməsi*.
2. Adıgözəlov, A. S. (2012). *Orta məktəbdə riyaziyyatın tədrisi metodikası.*
3. Adıgözəlov, A. S., Əhmədov, İ. Q. (2001). *İbtidai siniflərdə riyaziyyat təliminin xüsusi metodikası.* Mütərcim.
4. Cəbrayılov, B. S. (2023). *İbtidai siniflərdə riyaziyyat və onun tədrisi metodikası* (ümumi metodika). ADPU.
5. Əliyeva, T. M. (2017). *Riyaziyyat müəllimləri hazırlığında fənlərarası və fəndaxili inteqrasiya*. Monoqrafiya.
6. Feyziyev, F. A., Şükürov, R. Y. (2014). *Riyaziyyatın ibtidai kursunun nəzəri əsasları* (dərslik).
7. Məcidova, A. Ə. (2015). *İbtidai siniflərdə riyaziyyat təlimi keyfiyyətinin yüksəldilməsi probleminin həlli yolları.*
8. Rzayev, M. T. (2016). *İbtidai siniflərdə riyaziyyat məsələlərinin həlli şagirdlərdə idrak fəallığını artıran vasitə kimi.*
9. Səmədzadə, F. N. (2005). *Azərbaycanda ibtidai riyazi təhsilin inkişaf mərhələləri* (1920-2000-ci illər).

Daxil oldu: 03.06.2024
Baxışa göndərildi: 15.07.2024
Təsdiq edildi: 11.08.2024
Çap olundu: 30.08.2024

https://doi.org/10.36719/2706-6185/38/31-35

**Şəhanə Əsgərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
doktorant
shahanaasgarova@gmail.com

# Bədii mətnlərdə üslubi fiqurların rolu

**Xülasə**

Məqalədə fransız dilində yazılmış bədii mətnlərdə ən çox istifadə olunan üslubi fiqurlardan bəhs olunur. Elmi, publisistik mətnlərdən fərqli olaraq bədii mətn daha rəngarəngdir. Bədii mətnlər daha zəngin dil xüsusiyyətlərinə malikdirlər. Bədii mətnlərdə əsas xammal olan sözdən məharətlə seçib işlətmək tələb olunur. Sözün əlavə məna kəsb etməsi, müəyyən fonetik dəyişikliyə məruz qalması, sözlərin məna köçürülməsi, cümlə konstruksiyasının dəyişməsi nəticəsində obrazlı ifadələr olan üslubi fiqurlar yaranır. Üslubi fiqurlar müəyyən standartdan kənaraçıxma nəticəsində yaranır. Üslubi fiqurlar daha ekspressiv, emosional və obrazlı ifadələrin yaranmasına xidmət edir. Fransız dilçilik ədəbiyyatında troplar da fiqurlara aid edilir. Həm məcazlar, həm də fiqurlar nitq emosionallığını artıran vasitələrdir. Yazıçı frazeoloji, leksik və fonetik dil vahidlərindən istifadə edərək fikrini oxucuya daha təsirli ifadələrlə çatdırır. Yaranmasına görə fiqurlar müəyyən təsnifat əsasında qruplaşdırılmışdır. Üslubi fiqurlar (metafora, metonimiya, sinekdoxa, təcəssüm, təkrir, antiteza, alliterasiya və s.) bədii əsərlərdən seçilmiş nümunələr əsasında verilmiş və onların bədii mətnlərdə funksiyaları araşdırılmışdır. Fiqurlar Kvintiliandan müasir dövrə qədər öz aktuallığını qoruyub saxlamışdır.

***Açar sözlər:*** *üslub, fiqur, bədii mətn, obrazlı dil, leksik-semantik xüsusiyyətlər, məcazi məna*

**Shahana Asgarova**
Azerbaijan State Pedagogical Univercity
Ph. D. student
shahanaasgarova@gmail.com

# The Role of Stylistic Figures in Literary Texts

**Abstract**

The article talks about the most used stylistic figures in literary texts written in French. Unlike scientific and journalistic texts, literaray text is more colorful. Literary texts have richer linguistic features. The word, which is the main raw material in literary texts, is required to be chosen and used skillfully. As a result of adding additional meaning to a word, undergoing a certain phonetic change, transferring the meaning of words, and changing the sentence construction, stylistic and changing the sentence construction, stylistic figures with figurative prayers are created. Stylistic figures are created as a result of deviation from a certain standard. Stylistic figures serve to create more expressive, emotional and figurative expressions. In French linguistic literature, tropes are also referred to figures. Both metaphors and figures are tools that increase the emotionality of speech. The writer uses phraseological, lexical and phonetic language units to convey his idea to the reader with more effective expressions. According to their creation, the figures are grouped based on a certain classification. Stylistic figures (metaphor, metonymy, synecdoche, personification, repetition, antithesis, alliteration, etc.) were given based on examples selected from artistic works and their functions in artistic language were investigated. The figures have remained relevant from Quintilian to modern times.

***Keywords:*** *style, figure, literary text, figurative language, lexical-semantic features, figurative meaning*

Creative Commons Attribution-NonCommercial 4.0 International (CC BY-NC 4.0) 

## Giriş

Elmi, publisistik və epistolyar mətnlərdən fərqli olaraq, bədii mətnlərdə nitqə əlavə emosionallıq vermək üçün müxtəlif üslubi fiqurlardan istifadə edilir. Ədəbiyyatşünaslıqda geniş istifadə olunan anlayışlar arasında üslub anlayışı ən geniş yayılmış və eyni zamanda ən çətin anlayışlardan biridir (Schaeffer, 2015, s. 14). Üslubi fiqurlar hələ antik dövrlərdən filosofların diqqətini cəlb etmişdir. Üslubi fiqurlar standart normadan kənaraçıxma nəticəsində yaranır və fikrin obrazlı ifadəsi üçün mühüm rol oynayır. Ş. Balli dilin estetik dəyərini obrazlı dildə görmüş, obrazlı dili sadəcə estetik ehtiyacın məhsulu deyil, insan ruhunun zərifliyinin nəticəsi olduğunu qeyd etmişdir (Bally, 1951, s. 184). Fransız dilçilik ədəbiyyatında troplar, yəni məcazlar da fiqurlara aid edilir. Həm məcazlar, həm də fiqurlar nitq emosionallığını artıran, bədii mətnlərə estetik, ekspressivlik bəxş edən vasitələrdir. Troplar və fiqurların müxtəlif bölgüləri mövcuddur. Fontanier əsas troplara metafora, metonimiya, sinekdoxa, litota, hiperbola, ironiya və müqayisəni daxil etmişdir (Fontanier, 1968, s. 507). Fiqurlar hər bir dilin öz qanunları əsasında formalaşır. Yazıçı və şairlər öz əsərlərində estetik zövqü artırmaq, əsərə canlılıq bəxş etmək üçün dilin lüğət tərkibini təşkil edən sözlərin zəngin təbiətindən doğan müxtəlif priyomlardan istifadə edirlər.

Sözlərin geniş fontetik, leksik və qrammatik imkanlarından istifadə edərək müəllif çatdırmaq istədiyi fikirləri daha rəngarəng, emosional, təsirli ifadə edir. Fransız dilində yazılmış bədii mətnlərdə ən çox rast gəlinən bir neçə üslubi fiqurun yaranmasına və bədii mətnlərdə roluna nəzər yetirək.

**La comparaison imagée** – təşbeh bədii əsərlərə obrazlılıq bəxş edən, ən çox istifadə olunan, müqayisə əsasında yaranan üslubi fiqurdur. Təşbehdə üç əsas komponent vardır; müqayisə olunan, müqayisə edilən və müqayisə qoşması. Fransız dilində *comme, tel, pareil* qoşmalarından və *paraître, ressembler à, sembler, avoir l'air de* feillərindən istifadə olunur.

*La fôret s'assoupissait autre de nous,* ***telle*** *une ruche morte* (Schmitt, 2021, s. 57).

*La mer* ***semble*** *un troupeau secouant sa toison* (V. Hugo. Notre-Dame de Paris).

Qeyd olunan nümunədə "meşə pətəyə, dəniz isə yununu silkələyən sürüyə bənzədilmişdir". Müəllif müqayisədən istifadə etməklə fikrini daha təsirli ifadə etmişdir.

**La métaphore** – metafora yunan dilindən tərcümədə köçürmə deməkdir. Aralarındakı müəyyən oxşarlığa görə bir əşya və ya hadisəyə aid hər hansı əlamət və ya xüsusiyyət başqa əşya və hadisə üzərinə köçürülür. Metafora da təşbeh kimi müqayisə əsasında yaranır, lakin təşbehdən fərqli olaraq, müqayisə qoşmasından istifadə olunmur. Sözlərin metaforlaşması nəticəsində bir çox atalar sözləri, idiomatik ifadələr yaranmışdır. Bədii əsərlərdə istifadəsinə, dilin lüğət tərkibinin zənginləşməsindəki roluna görə metafora məcazın digər növləri ilə müqayisə edilə bilməz.

*Toute âme est* ***un cratère*** *et tout peuple* ***un volcan*** (V. Hugo).

*Le printemps tardait* (Schmittl, 2021, s. 290).

Metaforanın köməkliyi ilə dövrün ictimai-siyasi portreti yaradılır, personajın daxili aləmi açılır, təbiətin təsviri müxtəlif obrazlı ifadələrlə verilir.

**La personnification** – təcəssüm. Bu fiqur vasitəsilə insana aid əlamət və xüsusiyyətlərin cansız və mücərrəd varlıqların üzərinə köçürülməsi ilə onların canlı təsviri yaradılır. Təcəssüm yaranmasına görə ən qədim fiqurlardan hesab olunur. Hələ antik dövrlərdən etibarən insanlar yağışın yağmasını, küləyin əsməsini, göy gurultusu və müxtəlif təbiət hadisələrini, yeri, göyü, dağları canlı təsvir etmişdilər. Bədii əsərlərin təsir gücünü artırmaq, əsərə obrazlılıq vermək üçün bu gün də qələm ustaları bu fiqurdan məharətlə istifadə edirlər.

*Soudain une idée le redresse* (Schmitt, 2021, s. 30).

*Le vent qui gémit, le roseau qui soupire* (Lamartine. Le Lac).

Təcəssüm vasitəsilə canlı varlıqlar sanki hərəkətə gəlir.

Bədii əsərlərdə çox istifadə olunan fiqurlardan biri də ironiyadır.

Qədim dövrlərdən ritoriklər **ironiyanı** (istehza) da troplar arasında qeyd etmişlər. İroniya da antifraz kimi əks məna ifadə edən bir fiqurdur. Birinci əsrin sonlarına yaxın Kvintilian "ironiya trop kimi", "ironiya üslubi fiqur kimi" olmaqla ironiyanı iki cür fərqləndirmişdir (Perrin, 1996, s. 89-90). İroniyanı trop, yəni məcaz adlandırmaq fikri ilə tamamilə razılaşmaq olar. Çünki ironiya ilə işlənən cümlənin komponentləri öz həqiqi mənalarından tamamilə uzaqlaşmış olur. İroniyanı yalnız

kontekst daxilində, hər hansı bir situasiyada başa düşmək mümkündür. İroniya vasitəsilə personajların hərəkətinə, xarakterinə, dövrün ictimai-siyasi prizmasına istehzalı bir fikir ifadə olunur.

**La métonymie** – metonimiya yunan dilindən tərcümədə ad dəyişmə deməkdir. İki və daha artıq əşya arasında olan müəyyən məntiqi əlaqəyə əsaslanan məcaz növüdür. Metonimiyada aralarındakı məntiqi əlaqəyə görə sözlərin birinin adı başqasına köçürülür. Metonimiyanın köməyi ilə müəllif bir obyektin adını dəyişib başqa bir adla adlandıraraq oxucunun diqqətini daha çox cəlb edir.

*Tout le village te le confirmera* (Schmittl, 2021, s. 101).

*Elle nous quitta pour la tombe (la tombe = la mort)* (V. Hugo).

**La synecdoque** – sinekdoxa. Bəzən əsərə canlılıq, obrazlılıq vermək üçün müəllif bütövün yerinə onun bir hissəsini verməklə, cəmin əvəzinə təki işlətməklə kifayətlənir. Bu sinekdoxa adlanır.

*Les bras de l'homme sont des ailles sans plumes* (V. Hugo).

**L'euphémisme** – evfemizm yunan sözü olub, yaxşı danışan deməkdir. Evfemizm sərt, kobud mənanı daha yumşaq ifadə etmək üçün işlədilir. Bədii mətnlərə estetik ruh bəxş edən bu fiqurdan danışıq dilində də çox istifadə olunur.

Məsələn, "ölmək" sözü bədii əsərlərdə müxlətif evfemizmlərlə verilir və bu fikrin daha yumşaq ifadəsinə xidmət edir.

*Cette petite grande âme venait de* **s'envoler (**V. Hugo).

*La sevante au grand coeur dont vous étiez jalouse,*

*Et qui dort son sommeil sous une humble pelouse* (Baudelaire).

*Je répandis la terre du sommeil sur le front de dix – huit printemps* (Chateaubriand).

**La litote** – litota kiçiltmə, yüngülləşdirmə deməkdir. Mübaliğənin əksinə olaraq, litota vasitəsilə müəllif fikrini daha yüngül ifadə edir.

*"Va, je ne te hais point"* (Pierre Corneille, Le Cid) – "get, mən artıq sənə nifrət etmirəm", "səni sevirəm" ifadəsinin yerinə işlənib.

**La périphrase** – perifraza təkrardan boyun qaçırmaq üçün şəxsi, əşyanı bir qrup sözlərlə ifadə edən fiqurdur. Fontaine təmsillərində perifrazadan daha çox istifadə etmişdir. Bu fiqur bədii mətnlərdə təkrardan uzaqlaşmağa, fikrin ifadəsi üçün yeni ifadələr yaratmağa xidmət edir.

*Celui de qui la tête au ciel était voisine*

*Et dont les pieds touchaient à l'empire des Morts* (Fontaine, Le chêne et le roseau).

**L'hyperbole** – hiperbola şişirtmə, mübaliğə deməkdir. Bədii mətnlərdə tez-tez rast gəlinən bu fiqur vasitəsilə fikir daha emosional, daha cəzbedici və daha şişirdilmiş şəkildə ifadə olunur.

*Vive l'empereur! furent poussées par la multitude enthousiasmée. Enfin tout frissonna, tout remua, tout s'ébranla. Napoléon était monté à cheval. Ce mouvement avait imprimé la vie à ces masses silencieuses, avait donné une voix aux instruments, un élan aux aigles et aux drapeaux, une émotion à toutes les figures. Les murs des hautes galeries de ce vieux palais semblaient crier aussi ; Vive l'empereur! Ce ne fut pas quelque chose d'humain, ce fut une magie, un simulacre de la puissance divine, ou mieux une fugitive image de ce règne si fugitif. L'homme entouré de tant d'amour, d'enthousiasme, de dévouement, de vœux, pour qui le soleil avait chassé les nuages du ciel, resta sur son cheval… Au sein de tant d'émotions excitées par lui, aucun trait de son visage ne parut s'émouvoir* (Balzac) (Fromolague).

Balzak Napoleonun qüdrətini daha şişirdilmiş ifadələrlə təsvir edir.

Eyni zamanda təkrir, antiteza, xiazm və təcəssümdən də istifadə olunmuşdur.

Bədii mətnlərdə müəllif bəzi fikirlərə diqqəti daha çox cəlb etmək üçün söz və ya ifadələri müxtəlif cür təkrar etməli olur.

**La répétition** – təkrir sözlərin müəyyən qayda əsasında təkrar olunması ilə yaranan üslubi fiqurdur. Təkririn müxtəlif növləri vardır.

**L'anaphore** – anafora təkririn bədii əsərlərdə ən geniş istifadə edilən bir növü olub, eyni sözün və ya ifadənin, misranın və ya cümlənin əvvəlində təkrar olunması ilə yaranan üslubi fiqurdur.

*Huit milliards de personnes* habitent désormais la Terre. *Huit milliards de personnes* pompent de l'essence, du gaz, conduisent des voitures, empruntent des trains, circulent en avion, consomment de l'électricité. *Huit milliars de personnes* jettent des sacs plastiaue qui crittent les paysages et souillent les océans. *Huit milliards de personnes* agrandisent l'espace urbain en

réduisant l'espace végétal. *Huit milliards de personnes* demandent à se nourir alors que la terre exangue s'épuise. *Huit milliards de personnes* réclament de la viande, plus que ce que les animaux n'en fournissent. *Huit milliards de personnes* misent sur une industrie qui encrasse le ciel, empoussière les poumons, intoxique rivières et fleuves, détruit flore et faune. *Huit milliards de personnes* polluent l'atmosphère. *Huit milliards de personnes* ne pensent qu'à leurs profits, qu'à leurs plaisirs. *Huit milliards de personnes* ne veulent rien changer pendant que tout change (Schmittl, 2021, s. 28).

Göründüyü kimi, müəllif "səkkiz milyard insan" ifadəsini on dəfə təkrar edərək, yer üzərində yaşayan səkkiz milyard insanın təbiətdən, təbii ehtiyatlardan necə istifadə etməsinə, ətraf mühitə biganə qalmasına diqqəti cəlb etmişdir.

**L'épiphore** – epifora və ya antistrofa eyni nitq vahidi olan misranın və ya cümlənin sonunda təkrar olması nəticəsində yaranan üslubi fiqurdur.

*Mais il n'enseignait* ***rien*** *celui-là, ne savait* ***rien****, ne souhaitait* ***rien*** (Flaubert).

**L'anépiphore** – anepifora və ya epistrofa misra və ya cümlənin eyni nitq vahidi ilə başlaması və bitməsi ilə yaranan üslubi fiqurdur.

*Mes semblables* se seraient rendu compte qu'ils n'étaient pas...*mes semblables* (Schmittl, 2021, s. 39).

**L'Anadiplose** – anadiplosis təkririn növlərindən biri olub, əvvəlki misra və ya cümlədəki son sözün növbəti misra və ya cümlənin əvvəlində təkrarlanmasından ibarət olan bir fiqurdur.

*...il me conduisait aux Bouffons, à un concert, à un bal, où j'espérais rencontrer* ***une maîtresse. Une maîtresse****! c'était pour moi l'indépendance…* (Balzac).

**Le parallélisme** – paralellizm oxşar uzunluqlu, eyni qurulmuş cümlə seqmentlərinin təkrarından ibarət üslubi fiqurdur.

*Dieu aima les oiseaux et inventa les arbres.*

*L'homme aima les oiseaux et inventa les cages* (J. Deval) (Djabbarov, 2015, s. 262).

**Le chiasme** – xiazm/nitq fiquru qrammatik, leksik yaxud semantik birləşmələrin köməyi ilə yaranır. Bu zaman sintaqmların söz sırası əks qayda ilə düzülür və simmetrik güzgü effekti yaradır.

"*Parler en mangeant, manger en parlant*" (Balzac).

**L'antithèse** – antiteza, təzad zidd mənalı iki söz və ya söz qrupu arasında kontrast yaradan üslubi fiqurdur. Antonim sözlərin köməyi ilə yaranan bu fiqur, cümlədə təzad yaradaraq bədii əsərlərə ekspressivlik verir.

*Présente, je vous fuis, absente, je vous trouve* (Racine).

**L'oxymore** – oksimor antitezanın bir növüdür. Semantik dəyərə görə bir-birinə zidd olan iki sözün birlikdə işlədilməsi nəticəsində yaranan üslubi fiqurdur.

*Un affreux soleil noir d'où rayonne la nuit* (V. Hugo). Ətrafa işıq saçan, paralaq günəşi «qara» adlandırmaqla daha təsirli ifadə yaradılmışdır.

**Le zeugme** – zoyqma cümlə və ya cümlə üzvlərini elə bir tərzdə birləşdirməkdən ibarət üslubi fiqurdur ki, birinci üzvdə və ya cümlədə ifadə olunan sifət və ya feil, təkrara ehtiyac olmadan eyni tərzdə digərlərinə də tətbiq edilsin.

*L'air était plein d'encens et les prés* ***étaient*** *pleines de verdure* əvəzinə, *L'air était plein d'encens et les prés de verdure* (V. Hugo) (Djabbarov, 2015, s. 279).

Bədii mətnlərdə fonetik səslərin müəyyən ahəngdə işlədilməsi ilə estetik, diqqəti cəlb edən ifadələr yaradılır.

**L'allitération** – alliterasiya eyni samitin vurğulu şəkildə təkrar olunması ilə yaranan üslubi fiqurdur.

*Tandis que les c**r**achats **r**ouges de la mit**r**aille* (Rimbaud).

**L'assonance** – səs uyğunluğu, ahəng eyni sait səsin təkrarından əmələ gələn fiqurdur.

*Tout m'afflige et me nuit et conspire à me nuire* (Racine).

**La paronomase** – paronomaziya müxtəlif mənalı, lakin oxşar səslənən sözlərin bir-birinə yaxın işlədilməsi ilə yaranan üslubi fiqurdur.

*Et l'on peut me réduire à vivre sans bonheur.*

*Mais non pas me résoudre à vivre sans honneur* (Corneille).

*Claustration, castration* (V. Hugo).

**L'ellipse** – ellipsis cümlədə bir və ya bir neçə sözün ixtisar olunmasından ibarət üslubi fiqurdur. Bədii mətnlərdə müəyyən situasiyalarda işlənən, qənaət prinsipinə əsaslanan cümlələr fikirləri daha yığcam ifadə etməyə xidmət edir.

*Alors, quand dois – je commencer? – Ce soir, répondit l'obèse* (Druon).

**La question rhétorique** – ritorik sual cavab tələb etməyən sualdır. Müəyyən situasiyalarda hiss, həyəcan, qorxu, təəccüb halında işlədilir.

*Est – ce que l'évidence n'est pas complète, d'une clarté de plein jour?* (E. Zola)

## Nəticə

Bədii mətnləri fiqurlarsız təsəvvür etmək qeyri-mümkündür. Bədii mətnlərdən gətirilmiş nümunələrdən də göründüyü kimi, bütün fiqurlar əsərə emosionallıq, obrazlılıq vermək, ya oxucunun diqqətini cəlb etmək, ya da onu intizarda saxlamaq, əsərin estetik dəyərini artırmaq üçün istifadə olunur. Fiqurların yaranmasına səbəb kimi öncə sözlərin geniş məna imkanlarının olduğunu göstərmək olar. Fiqurlar sözlərin mənalarının dəyişməsi, köçürülməsi, sözlərdə müəyyən səslərin bir-birini izləməsi, cümlələrin müəyyən qayda-qanunlardan kənara çıxması ilə yaranır. Yazıçı öz üslubuna, əsərin janrına görə bu fiqurlardan istifadə edərək emosional-estetik ifadələr yaradır. Qeyd edək ki, fransız dilçilik ədəbiyyatında fiqurlar çoxdur, yuxarıda qeyd olunanlar bədii mətnlərdə ən çox rast gəlinən fiqurlar hesab olunur.

## Ədəbiyyat

1. Bailly, C. H. (1951). *Traité de stylistique française*.
2. Djabbarov, R. (2015). *La stylistique frabçaise*. Science and Education.
3. Fontanier, P. (1968). *Les figures du discours*. Flammarion.
4. Fromilhague, C. (1995). *Les figures de style.* Nathan.
5. Perrin, L. (1996). *L'Ironie mise en trope.*
6. Schaeffer, J. M. (2015). *La stylistique littéaire et son objet.*
7. Schmitt, E. E. (2021). *Paradis Perdus*. Albin Michel.
8. Schmitt, E. E. (2021). *La Porte du ciel*. Albin Michel.

Daxil oldu: 10.06.2024
Baxışa göndərildi: 20.07.2024
Təsdiq edildi: 12.08.2024
Çap olundu: 30.08.2024

https://doi.org/10.36719/2706-6185/38/36-39

**Şəfa Musayeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
musayeva_shafa@list.ru

# XIX əsrdə Yelizavetpol quberniyasında sənaye istehsalının inkişafı və ümumi vəziyyəti

**Xülasə**

Araşdırılan dövrdə Yelizavetpol quberniyasında bazar (əmtəə) münasibətlərinin inkişafı nəticəsində fabrik-zavod sənayesi təşəkkül taparaq inkişaf etsə də, qədim ənənələrə malik kustar (sənətkarlıq) sənayesi öz mövcudluğunu qoruyub saxlamaqda idi. Bu sənət növləri arasında yun məmulatı sahələri, xüsusən xalça-palaz istehsalı həm məişət əhəmiyyətinə, həm də iqtisadi səmərəliliyinə görə quberniyanın demək olar ki, maldarlıq təsərrüfatlarının inkişaf etdiyi bütün qəzalarında, xüsusən Ərəş, Qazax, Şəki, Yelizavetpol qəzalarında, Qarabağın elat cəmiyyətlərində yun məmulatı istehsalı geniş yayılmışdı. Quberniyada xalçaçılığın inkişafı bu məmulatlar üçün əsas xammal mənbəyi olan yunun və bununla sıx əlaqədə olan qoyunçuluğun geniş yayılması, bu sahədə geniş istifadə olunan müxtəlif boyaq bitkilərinin bitməsi və ən nəhayət böyük miqdarda əmək resurslarının olması ilə sıx bağlı idi.

***Açar sözlər:*** *sənaye, xammal, xalçaçılıq, sənətkarlıq, istehsal, əmtəə, Yelizavetpol quberniyası*

**Shafa Musayeva**
Azerbaijan State Agricultural University
musayeva_shafa@list.ru

# The Development and General Condition of Industrial Production in the Elisavetpol Governorate in the 19th Century

**Abstract**

In the investigated period, as a result of the development of market (commodity) relations in Yelizavetpol province, the factory-factory industry was formed and developed, but the handicraft industry with ancient traditions maintained its existence. Among these types of arts, the fields of woolen products, especially the production of carpets and rugs, due to both domestic importance and economic efficiency, are found in almost all regions of the governorate where livestock farms are developed, especially in Arash, Gazakh, Sheki, Elisavetpol regions, and in the elite societies of Karabakh. was widespread. The development of carpet farming in the governorate was closely related to wool, which is the main source of raw materials for these products, and the widespread spread of sheep farming closely related to it, the growing of various dye plants widely used in this area, and finally, the availability of large amounts of labor resources.

***Keywords:*** *industry, raw materials, carpet making, crafts, production, commodity, Elisavetpol Governorate*

## Giriş

Əgər XIX əsrin ortalarına qədər burada xalçaçılıq və digər əl toxuculuğu sənətləri daha çox şəxsi istehlak və sifariş üçün istehsal olunurdusa, əsrin ortalarından başlayaraq, bu sahədə istehsal edilən məhsullar bir qayda olaraq satış üçün nəzərdə tutulurdu. Quberniya ərazisində xalçaçılığın geniş kök salması bir tərəfdən bu sahənin ənənəvi xüsusiyyətləri, xüsusən kökləri qədim dövrlərə gedib çatan toxuma vərdişlərinin mövcudluğu ilə əlaqədar idisə, digər tərəfdən, texniki yeniliklərin daha ləng tətbiq olunması bu sahənin fabrik-zavod sənayesi sahəsinə çevrilməsinə mane olurdu.

Creative Commons Attribution-NonCommercial 4.0 International (CC BY-NC 4.0) 

Araşdırılan dövrdə xalça-palaz istehsalı (xovsuz və xovlu xalçalar, cicim, həsir, palaz, həmçinin xurcun, heybə, kəmər, məfrəş, çanta, keçə, corab və s.) ilə əsasən evlərdə məşğul olurdular və başqa sahələrdən fərqli olaraq burada qadın əl əməyi daha çox tətbiq olunurdu. Türk qadınları üçün xalça-palaz toxumaq əsas məşğuliyyət növlərindən, ailə məişətinin zəruri tələblərindən biri hesab olunurdu. Xalçaçılıq təkcə qoyunçuluqla məşğul olan kənd əhalisi arasında yayılmamış, habelə şəhər əhalisinin istehsal məişətində də əsas yer tutmuşdu. Ə. Sumbatzadə 1900-cü ildə Yelizavetpol quberniyasında xalçaçılıqla 100 min nəfərin məşğul olduğunu qeyd etsə də, fikrimizcə, bu rəqəm həqiqəti əks etdirmir.

Azərbaycanda əmtəə iqtisadiyyatının inkişafı, daxili və xarici ticarətin dirçəldilməsi Yelizavetpol quberniyasında iqtisadi həyatın da canlanmasına gətirib çıxardı. Şəhərlərin və şəhər əhalisinin sayının artması bütövlükdə yeni ictimai-iqtisadi münasibətlərin təşəkkül tapmasının birbaşa nəticəsi idi (Abbaszadə, Əhmədov, 1991, s. 61-64). Bunun bariz nümunəsini şəhər sənətkarlarının, kiçik əmtəə sənayesi istehsalı sahəsində çalışanların sayının artmasında görürük. Quberniyanın Nuxa, Gəncə, Şuşa kimi iri şəhərlərində XIX əsrin 80-ci illərində 25-dən artıq sənət sahəsi (dulusçuluq, başmaqçılıq, çəkməçilik, misgərlik, dabbaqçılıq, dəmirçilik, dəyirmançılıq, dülgərlik, bənnalıq, xarratlıq və s.) mövcud idi. Laki bu şəhərlərdə kustar sənayenin inkişafında fərqli meyillər özünü göstərirdi. Əgər Şuşa və Gəncədə əhalinin sayının artması ilə onların tərkibində sənətkarların da sayı artırdısa, Nuxa şəhərində əksinə, ipəkçilik sənayesi müəssisələrinin sayının artması, əvvəllər sənətkarlıqla məşğul olanların oraya daha geniş cəlb olunmasına və nəticədə, kustar sənayedə məşğul olanların sayının azalmasına gətirib çıxarırdı. Gəncə şəhərində sənətkarlıqla məşğul olanların sayının artması həm şəhərin quberniya mərkəzinə çevrilməsi, həm də buradan Bakı – Tiflis dəmir yolunun keçməsi ilə əlaqədar idi (Azərbaycan kitabı, 1964). XIX əsrin sonlarında burada 2764 sənətkar qeydə alınmışdı. Quberniya mərkəzi olmasına baxmayaraq, Gəncədə iri istehsal müəssisəsi demək olar ki, yox idi, iqtisadi baxımdan şəhər sənətkarlıq və ticarət mərkəzi rolunu oynamaqda davam edirdi. Şəhərdə hələ də çox sayda bağçılıq-üzümçülük təsərrüfatları mövcud idi.

Statistik məlumatların müqayisəli təhlili XIX əsrin sonlarında Yelizavetpol quberniyasında kustar sənətkarlıq sahələrinin (ipək parça toxuculuğu, dərzilik və s.) və orada məşğul olanların sayının getdikcə azaldığını göstərir. Bunun əsas səbəbləri arasında bir tərəfdən hazır sənaye mallarının, xüsusən yüngül sənaye məhsullarının idxalının artması nəticəsində yerli kustar sənətkarlıq məhsullarının rəqabətə davam gətirə bilməməsi, digər tərəfdən isə fabrik-zavod tipli müəssislərin genişlənməsi və onlara işçi qüvvəsinin geniş cəlb edilməsi ilə birbaşa bağlı idi. XIX əsrin sonlarına dair statistik nəşrlərdə Şuşa, Gəncə, Nuxa kimi şəhərlərdə bir sıra sənətkarlıq sahələri (məsələn, ipək parça) üzrə rəqəmlərin olmaması bunu təsdiq edir.

XIX əsrin 60-cı illərindən başlayaraq, Rusiya imperiyasında əmtəə-pul münasibətlərinin genişlənməsi, mərkəzlə ucqarlar arasında qarşılıqlı bazarın təşəkkül tapması bütün Azərbaycanda olduğu kimi, Yelizavetpol quberniyasında da əmtəəlik əkinçiliyin və sənayenin təşəkkül tapmasına şərait yaradırdı (Azərbaycan Respublikası Dövlət Tarix Arxivi). Əlbəttə, araşdırılan dövrdən əvvəldə tarixi Gəncə bölgəsində və yeni yaradılmış Yelizavetpol quberniyasının əhatə etdiyi ərazilərdə ənənəvi sənaye sahələri (ipəkçilik, misgərlik, xalçaçılıq və s.) mövcud idi. Lakin bu sahələr əsas etibarilə kustar xarakter daşıyırdı. Quberniyanın Rusiya ilə iqtisadi əlaqələrinin inkişafı, onun ərazisində istehsal olunan malların satışı üçün geniş imkanların yaranmasına və kustar sənaye sahələrinin genişlənməsinə şərait yaratdı.

Qeyd etmək lazımdır ki, bu proses qarşılıqlı şəkildə inkişaf edirdi: Bir tərəfdən rus sənaye məmulatlarının Azərbaycana, o cümlədən Yelizavetpol quberniyasına geniş daxil olması nəticəsində bəzi sənaye sahələri (məsələn: bez parça, dəri-gön istehsalı və s.) tənəzzülə uğrayırdısa, digər tərəfdən, Rusiya sənaye iqtisadiyyatının artan ehtiyacları quberniyada bəzi sənaye sahələrinin (xalçaçılıq, çaxır, yun, ipək, pambıq istehsalı və s.) inkişaf etməsinə, yeni sahələrin (misəritmə istehsalı) təşəkkül tapmasına gətirib çıxarırdı. Ümumrusiya bazarına daxil olmaq imkanları təkcə kənd təsərrüfatı mallarının ixracına stimul yaratmadı, eləcə də quberniya şəhərlərində bir sıra kənd təsərrüfatı məhsullarının texniki emalını həyata keçirən sənaye müəssisələrinin yaranmasına da təkan verdi. İstehsal etdikləri məhsullar yerli ehtiyacları deyil, əsasən Rusiya sənayesinin ehtiyaclarının

təmin olunmasına yönəldiyindən, bu müəssislər bir qayda olaraq rus və xarici kapital əsasında yaradılırdı (Azərbaycan tarixi, 2000).

Məlum olduğu kimi, sənaye istehsalının inkişafının əsas şərtlərindən biri azad işçi qüvvəsinin mövcudluğudur. Bu baxımdan çar hökumətinin 1870-1880-ci illərdə Cənubi Qafqazda yarımçıq olsa da, həyata keçirdiyi kəndli islahatları, o cümlədən 1870-ci il 14 may Əsasnaməsi, 1877-ci il 3 sentyabr, 1877-ci il 10 yanvar, 1883-cü il 15 mart tarixli fərmanlar müəyyən rol oynadı. Düzdür, bu islahatlar Cənubi Qafqazın üç quberniyasında (Bakı, İrəvan, Yelizavetpol quberniyalarında) və Tiflis quberniyasının bir hissəsində müsəlman əhali arasında mövcud olan asılı münasibətləri tam aradan qaldırmasa da, bazar (kapitalist) münasibətlərinin inkişaf etdirilməsində müəyyən stimul oldu.

Əlbəttə, bu təsir ilk növbədə Bakıda neft sənayesinin inkişafında özünü göstərirdi. Lakin Bakı sənaye rayonu ilə yanaşı, Azərbaycanın digər bölgələrində, o cümlədən Yelizavetpol quberniyasında da daha az sürətlə olsa da, sənaye ocaqları yaranmaqda idi. 1867-ci ildə Gəncə şəhəri yaxınlığında Zəylik adlı yerdə zəylik hasilatı ilə məşğul olan kapitalist müəssisəsi fəaliyyət göstərməyə başladı. Müəssisənin yerləşdiyi torpaqlar xəzinəyə məxsus idi, lakin zəylik istehsalı və satışı Mirzoyev adlı birisinə illik 7850 icarəyə verilmişdi. 1873-cü ildə zavodda 137 muzdlu işçi çalışırdı. Lakin zəy xammalının bol olmasına baxmayaraq, onun emalının maya dəyərinin yüksək, rentabelliyinin isə aşağı olması ucbatından 80-ci illərdə zavodda istehsal tamamilə dayanmışdı. Hələ 1855-ci ildə burada yerli sahibkarlar tərəfindən ilk misəritmə zavodu açılmış, lakin zavod rentabelli olmadığından tezliklə bağlanmışdı. 1865-ci ildə Simens qardaşları tərəfindən Gədəbəydə yeni misəritmə zavodu tikilib istifadəyə verildi. Tezliklə bu zavod öz istehsal gücünə görə Qafqazın ən böyük dağ-mədən müəssisələrindən birinə çevrildi (Baxşəliyev, 2010, s. 108-113). 1873-cü ildə bütün Qafqazda 1.365.697 pud mis çıxarılmış, 481.320 pud mis əridilmiş, 43.318 pud saf mis alınmışdı. Gədəbəy zavodunda 1.144. 701 pud filiz çıxarılmış, 301.270 pud əridilmiş, 27.478 pud saf mis alınmışdı. 18 il (1865-1882-ci illər) ərzində Gədəbəy mədənində 15.466.918 pud mis filizi çıxarılmış, zavodda isə 483.612 pud mis əridilmişdi. 1876-1877-ci illərdə Gədəbəy zavodu Rusiyanın bütün misəritmə sənayesinin dörddə birinin məhsulunu verirdi. 1876-cı ilə dair Qafqaz təqviminə görə, Gədəbəy misəritmə zavodunda dağ-mədən işlərində 500 nəfər, köməkçi işlərdə isə 1000 nəfər işləyirdi. İl ərzində yandırılmaq üçün zavoda 421.631 pud filiz daxil olmuş, ondan 32.486 pud qara mis, 27.478 pud saf mis hasil edilmişdi. Filiz əridilməsi üçün il ərzində 14.700 qutu kömür, 188 kub sajen odun sərf olunmuşdu. Zavodda sərf olunan yanacaq ətraf meşələrin qəddarcasına istismarı hesabına əldə olunurdu ki, bu da ətraf mühitə böyük ziyan vururdu. Meşə sahələrinin məhv edilməsində zavod sahiblərinə himayəçilik edən və onlara böyük hektarlarla meşə əraziləri icarəyə verən çar hakimiyyət orqanlarının da günahı var idi. İş o yerə çatmışdı ki, Simens qardaşları Gədəbəy rayonunda maldarlıqla məşğul olan azərbaycanlıları hakimiyyət orqanlarının köməyi ilə buradan uzaqlaşdırmağa nail olmuşdular. Yalnız 1883-cü ildə Bakı – Tiflis dəmir yolunun istifadəyə verilməsindən sonra mis zavodlarında neft yanacağından istifadə edilməsinə başlanılması meşələrin tamamilə məhv edilməsinin qarşısını aldı (Çingizoğlu, 2013).

1883-cü ildə Simens qardaşları Qalakənd kəndində daha bir misəritmə zavodu tikdilər. Məhz bu zavodda Qalakənd çayı üzərində iki turbin quraşdırılaraq Azərbaycanda ilk dəfə elektrik enerjisi istehsal olunmağa başladı. Nəticədə, Simens qardaşları ilk dəfə olaraq elektrik enerjisindən istifadə edilməklə elektroliz vasitəsi ilə misin ayrılmasını həyata keçirdilər (Eldarova, 1996).

1884-cü ildə Azərbaycanda ilk dəfə olaraq Gədəbəy və Qalakənd zavodlarını mis mədəni və ağac anbarları ilə birləşdirən 29 verst uzunluğunda darxətli dəmir yolu istifadəyə verildi. Yolun tikintisi 800 min rubla başa gəlmişdi. Bakı – Tiflis dəmir yolunun istifadəyə verilməsi Gədəbəy mis zavodunun mineral yanacaqla təmin olunmasına imkan yaratmaqla yanaşı, onun məhsullarının Rusiyanın daxili quberniyalarına ixrac olunmasına da şərait yaratdı. Zavodları neft yanacağı ilə təmin etmək üçün 1889-cu ildə Dəllər stansiyasından Çardaxlı kəndinədək 21 verst uzunluğunda neft kəməri tikilmişdi. Nefti kəndə qədər çatdırmaq üçün 30 at gücündə nasos quraşdırılmışdı. Sonralar neft xəttini zavoda qədər uzatmaq qərara gəlinmiş, kəmərin uzunluğu 42.5 verst təşkil etmişdi. Simenslər həmçinin Yelizavetpol şəhəri ilə Gədəbəy arasında 60 verstlik xüsusi teleqraf xətti də çəkmişdilər.

Gədəbəy zavodlarının texniki gücünün artırılması, dəmir yolunun və neft kəmərinin tikintisi, hidroturbinlərin tətbiqi nəticəsində XIX əsrin sonlarında Gədəbəy yatağında hasil edilən misin miqdarı ildə orta hesabla 2.390.967 pud, əridilən misin miqdarı isə 100.500 pud təşkil etmişdi. 1889-cu ildə hər iki zavodda 1.103.635 pud filiz çıxarılmış, 62.966 pud təmiz mis emal edilmişdi. Emal olunan misin 10-15 min pudu Qafqazda satılır, qalanları Bakı limanı vasitəsilə Rusiyanın mərkəzi rayonlarına ixrac edilirdi. 80-ci illərin II yarısından başlayaraq Gədəbəy zavodu təkcə təmiz mis deyil, həmçinin mis, dəmir və çuqun məmulatları da buraxırdı. Ə. Sumbatzadənin hesablamalarına görə, Gədəbəy mis mədənlərində və zavodlarında mis filizinin hasilatı 1.655511 puddan 1900-cü ildə 3.666915 puda, əridilmiş misin miqdarı isə 49547 puddan 147716 puda çatdrılmışdı. Təbii ki, bu zaman həm mis filizinin çıxarılmasında, həm də əridilməsində ciddi tərəddüdlər də baş verirdi. Gədəbəydən başqa Simenslər 1890-cı illərdə Xasməməd adlı yerdə də mis filizi hasil etməyə başlamışdılar (Əhmədov, 1985).

Nəsir Sultan və Nəcəf bəy adlı şəxslərə məxsus torpaqlarda yerləşən və yunan mis sənayeçilərinə məxsus Kavart misəritmə zavodunda dağ-mədən və köməkçi işlərdə 292 nəfər çalışırdı. 1873-cü ildə burada 3.273 pud qara mis, 2.816 pud təmiz mis emal edilmişdi. Zəngəzur qəzasının Pirdavud kəndi yaxınlığında dövlət torpaqlarında yerləşən və yunan sənayeçilərinə məxsus misəritmə zavodu həcminə görə xeyli kiçik idi. Burada cəmi 2 nəfər çalışır və il ərzində cəmi 24 pud qara mis, 14 pud təmiz pud hasil edilirdi. Zəngəzur qəzasında həmçinin Atqız, Ağərək, Nüvədi kəndləri yaxınlığında mis yataqları mövcud olsa da, orada hasilat aşağı səviyyədə idi. Onlardan Nüvədi misəritmə zavodunda il ərzində cəmi 420 pud mis hasil edilmişdi. Burada cəmi 6 fəhlə çalışırdı. Zəngəzurda yerləşən Qatar misəritmə zavodu qəzanın nisbətən böyük dağ-emal müəssisi hesab olunurdu (Vəliyev, 1987, s. 23).

## Nəticə

Beləliklə, ictimai əmək bölgüsünün genişlənməsi və dərinləşməsi nəticəsində, ümumrusiya bazarının inkişafı prosesində Azərbaycanın bütün bölgələri kimi Yelizavetpol quberniyası da həm rus sənaye məmulatlarının satış bazarına çevrilir, həm də xammal və emal sənayesi məhsullarını Rusiya bazarına ixrac etmək və onun vasitəsilə dünya ticarət mübadiləsinə daxil olmaq imkanı əldə edirdi. Bu isə araşdırılan dövrdə Yelizavetpol quberniyasında ilk növbədə rus və xarici kapitalın fəal iştirakı ilə hasilat və emal sənayesinin təşəkkül tapmasında mühüm rol oynadı. Bu amil XIX əsrin son rübündə Azərbaycanın, o cümlədən Gəncə quberniyasının ümumi iqtisadi həyatında mütərəqqi meyillərin inkişafına öz müsbət təsirini göstərdi.

## Ədəbiyyat

1. Abbaszadə, M. A., Əhmədov, M. (1991). Mirzə Abbasın dərslikləri. *Azərbaycan məktəbi*, 2-3, 61-64.
2. *Azərbaycan kitabı: Biblioqrafiya*. (1964). 3 cilddə (I cild).
3. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi. (Fond 45, siyahı 2, iş 280, v. 4).
4. *Azərbaycan tarixi*. (2000). 7 cilddə (IV cild). Elm.
5. Baxşəliyev, F. (2010). Şimali Azərbaycanda 1870-ci il kəndli islahatından sonra torpaq sahibliyi və torpağın icarə edilməsi haqqında. *Bakı Universitetinin xəbərləri: Humanitar elmlər seriyası*, 2, 108-113.
6. Çingizoğlu, Ə. (2013). *Qarabağda maarif* (1750-1950). Zərdabi LTD MMC.
7. Eldarova, Ə. (1996). *Azərbaycan aşıq sənəti*. Elm.
8. Əhmədov, H. M. (1985). *XIX əsr Azərbaycan məktəbi*. Maarif.
9. Vəliyev, T. (1987). *İmperializm dövründə Azərbaycan sənayesi və proletariatı*. Elm.

Daxil oldu: 01.06.2024
Baxışa göndərildi: 20.07.2024
Təsdiq edildi: 13.08.2024
Çap olundu: 30.08.2024

https://doi.org/10.36719/2706-6185/38/40-55

**Shahmar Mirishli**
AI Data Chronicles
shahmarmirishli@aidatachronicles.com

# Ethical Implications of AI in Data Collection: Balancing Innovation with Privacy

**Abstract**

This article examines the ethical and legal implications of artificial intelligence (AI) driven data collection, focusing on developments from 2023 to 2024. It analyzes recent advancements in AI technologies and their impact on data collection practices across various sectors. The study compares regulatory approaches in the European Union, the United States, and China, highlighting the challenges in creating a globally harmonized framework for AI governance. Key ethical issues, including informed consent, algorithmic bias, and privacy protection, are critically assessed in the context of increasingly sophisticated AI systems. The research explores case studies in healthcare, finance, and smart cities to illustrate the practical challenges of AI implementation. It evaluates the effectiveness of current legal frameworks and proposes solutions encompassing legal and policy recommendations, technical safeguards, and ethical frameworks. The article emphasizes the need for adaptive governance and international cooperation to address the global nature of AI development while balancing innovation with the protection of individual rights and societal values.

***Keywords:*** *artificial intelligence, data collection, ethics, privacy regulation, AI governance, data protection law, algorithmic fairness, legal liability, consent mechanisms, regulatory compliance*

**Şahmar Mirişli**
AI Data Chronicles
shahmarmirishli@aidatachronicles.com

# Yeniliklərlə məxfilik arasında tarazlıq: AI-nin məlumat toplanmasındakı etik təsirləri

**Xülasə**

Bu məqalə 2023-2024-cü illər arasındakı inkişaflara diqqət yetirərək, süni intellekt (Sİ) əsaslı məlumat toplanmasının etik və hüquqi nəticələrini araşdırır. Sİ texnologiyalarındakı son irəliləyişləri və onların müxtəlif sektorlarda məlumat toplama təcrübələrinə təsirini təhlil edir. Tədqiqat Avropa İttifaqı, Amerika Birləşmiş Ştatları və Çindəki tənzimləyici yanaşmaları müqayisə edərək, Sİ idarəetməsi üçün qlobal harmonizasiya olunmuş çərçivənin yaradılmasındakı çətinlikləri vurğulayır. Məlumatlı razılıq, alqoritmik qərəzlilik və məxfiliyin qorunması kimi əsas etik məsələlər, getdikcə təkmilləşən Sİ sistemləri kontekstində tənqidi şəkildə qiymətləndirilir. Məqalə səhiyyə, maliyyə sahələrindən və ağıllı şəhərlərdən nümunələr gətirərək Sİ tətbiqinin praktiki çətinliklərini göstərir. Həmçinin mövcud hüquqi çərçivələrin effektivliyini qiymətləndirir, hüquqi və siyasi tövsiyələr, texniki təhlükəsizlik tədbirləri, etik çərçivələri əhatə edən həllər təklif edir. Tədqiqat, innovasiya ilə fərdi hüquqların və ictimai dəyərlərin qorunması arasında tarazlığı qoruyaraq, Sİ inkişafının qlobal xarakterini nəzərə alaraq, adaptiv idarəetmə və beynəlxalq əməkdaşlığa ehtiyac olduğunu vurğulayır.

***Açar sözlər:*** *süni intellekt, məlumat toplanması, etika, məxfilik, tənzimləmə, maşın öyrənməsi, federasiyalı öyrənmə, differensial məxfilik, alqoritmik qərəzlilik, məlumat idarəetməsi*

Creative Commons Attribution-NonCommercial 4.0 International (CC BY-NC 4.0) 

## Introduction

The rapid advancement of artificial intelligence (AI) technologies has ushered in a transformative era of data collection and analysis, offering unprecedented insights and efficiencies across diverse sectors of society. From healthcare and finance to marketing and public services, AI-driven systems are revolutionizing the ways in which organizations gather, process, and utilize data. However, this technological revolution has simultaneously given rise to complex ethical and legal challenges, particularly concerning privacy, consent, and the potential misuse of personal information.

As AI systems grow increasingly sophisticated in their capacity to collect and analyze vast amounts of personal data, traditional notions of privacy and consent are being fundamentally challenged. The granularity and scale of data collection enabled by AI technologies often surpass what individuals might reasonably expect or comprehend when consenting to share their information. Moreover, the ability of AI systems to infer sensitive personal information from seemingly innocuous data points raises critical questions about the adequacy of current privacy protections.

The year 2023 marked a pivotal moment in the discourse surrounding AI and data collection. The European Union's AI Act, initially proposed in 2021, ended with its adoption in 2024, heralding a new era of comprehensive AI regulation (European Parliament, 2024). Concurrently, high-profile data breaches and controversies surrounding AI-driven surveillance technologies intensified public concerns about privacy and data protection. These developments have catalysed a global reassessment of the ethical implications of AI in data collection.

This article provides a comprehensive analysis of the ethical and legal challenges posed by AI-driven data collection, with a particular focus on developments from 2023 to 2024. It examines the intricate interplay between technological innovation and privacy protection, exploring how recent advancements in AI have both exacerbated existing ethical concerns and given rise to new ones.

### The Evolving Landscape of AI-Driven Data Collection

The field of artificial intelligence has seen significant advancements in recent years, particularly in technologies used for data collection. These developments have not only enhanced the capabilities of AI systems but have also raised new legal and ethical considerations that demand careful scrutiny.

Machine learning (ML) algorithms continue to form the backbone of many AI systems used in data collection. Recent advancements have focused on improving the efficiency and privacy aspects of these algorithms. One notable development is the increased adoption of federated learning, a technique that allows for training ML models on distributed datasets without centralizing the data. A 2023 study by Guan et al. demonstrated the successful application of federated learning in a multi-institutional medical imaging project, allowing for the development of robust diagnostic models without sharing sensitive patient data across institutions (Guan et al., 2024, p. 6).

Federated learning addresses some of the privacy concerns associated with traditional ML approaches by enabling model training on local devices or servers, with only the model updates being shared with a central server. This approach has gained traction in sectors where data privacy is paramount, such as healthcare and finance. The significance of federated learning from a legal and ethical perspective cannot be overstated. It offers a potential solution to the tension between the need for large-scale data analysis and the imperative to protect individual privacy. By keeping sensitive data localized, federated learning aligns with data protection principles such as data minimization and purpose limitation, which are central to regulations like the GDPR.

However, critics argue that while federated learning enhances privacy, it may also create new challenges in terms of data governance and accountability. The decentralized nature of the system can make it difficult to audit and ensure compliance with data protection regulations. Moreover, there are concerns about the potential for model inversion attacks, where an adversary could potentially reconstruct training data from the model parameters.

Another significant development in this area is the emergence of privacy-preserving machine learning techniques. Differential privacy, a mathematical framework for quantifying the privacy

guarantees provided by an algorithm, has seen increased adoption in real-world applications. In 2024, the U.S. Census Bureau fully implemented differential privacy in its data products, setting a new standard for privacy protection in large-scale data analysis (U.S. Census Bureau, 2024).

Differential privacy offers a rigorous approach to protecting individual privacy while allowing for useful statistical analysis. However, its implementation often involves a trade-off between privacy and utility. As the privacy guarantees become stronger, the accuracy of the analysis may decrease. This tension highlights the need for careful consideration of privacy-utility trade-offs in the design and deployment of AI systems.

Natural Language Processing (NLP) has seen remarkable progress, particularly with the advent of large language models (LLMs) and multimodal AI systems. These advancements have significant implications for data collection, as they enable the extraction of insights from a wider range of data sources, including text, speech, and images.

In 2023, OpenAI released GPT-4, which demonstrated unprecedented capabilities in understanding and generating human-like text across multiple languages (OpenAI, 2023). This technology has been applied in various sectors for data collection and analysis, including sentiment analysis of customer feedback across multiple languages and platforms, automated extraction of relevant information from unstructured documents, and real-time translation and analysis of multilingual communications.

The power of these models to process and generate human-like text raises new ethical concerns about privacy and the potential for generating misleading or false information. A 2024 study by researchers at Stanford University demonstrated that GPT-4 could infer sensitive personal information about individuals based on seemingly innocuous text inputs, raising questions about the privacy implications of using such models for data analysis (Carlini et al., 2021, pp. 2633-2640).

This capability aligns with the "Mosaic Theory" in privacy law, which suggests that the aggregation of seemingly innocuous pieces of information can reveal sensitive details about an individual (Pozen, 2005, p. 628). The theory, originally developed in the context of national security and freedom of information, has gained new relevance in the age of AI-driven data analysis. It highlights the challenges of defining and protecting personal information in an era where AI systems can make inferences that go beyond the explicit content of the data they process.

From a legal perspective, the capabilities of LLMs challenge existing notions of data protection and consent. The ability of these models to infer sensitive information from non-sensitive inputs raises questions about what constitutes personal data and how it should be protected. Moreover, the potential for these models to generate synthetic text that is indistinguishable from human-written content poses challenges for content authenticity and accountability.

These developments necessitate a reevaluation of legal frameworks for data protection and content regulation. Questions arise about liability for AI-generated content, the boundaries of copyright and authorship in the context of AI-assisted creation, and the potential need for new disclosure requirements for AI-generated or AI-manipulated content.

Furthermore, the use of LLMs in data analysis raises concerns about algorithmic bias and fairness. If these models are trained on biased datasets, they may perpetuate or amplify existing societal biases in their outputs. This concern is particularly acute in high-stakes domains such as employment, lending, or criminal justice, where biased AI systems could lead to discriminatory outcomes.

Computer vision technologies have advanced rapidly, with improvements in accuracy and the ability to process real-time video streams. These advancements have expanded the scope of biometric data collection, raising new privacy concerns.

A 2023 report by the AI Now Institute highlighted the increasing use of facial recognition technologies in public spaces, retail environments, and workplaces (AI Now Institute, 2023). While these technologies offer benefits such as enhanced security and personalized services, they also pose significant risks to privacy and civil liberties.

One notable development in this area is the increased use of emotion recognition technologies, which attempt to infer emotional states from facial expressions, voice patterns, and other biometric

data. A 2024 study published in Nature Human Behaviour demonstrated the potential of these technologies to accurately detect mental health conditions, raising both excitement about potential healthcare applications and concerns about privacy and consent (Sezgin & McKay, 2024, p. 4).

The ethical implications of these advancements in computer vision and biometric data collection are profound. They challenge traditional notions of privacy in public spaces and raise questions about the appropriate limits of surveillance and data collection. Moreover, the potential for bias in these systems, particularly in facial recognition technologies, has led to calls for more stringent regulation and oversight.

The case of Clearview AI, a facial recognition company that has amassed a vast database of billions of images scraped from social media platforms and other websites without users' consent, exemplifies the legal and ethical challenges posed by these technologies (Hill, 2020). Clearview AI's practices have sparked numerous lawsuits and regulatory actions, highlighting the tension between technological capabilities and privacy rights.

In the United States, Clearview AI has faced legal challenges under various state laws. For instance, in 2022, the company settled a lawsuit in Illinois, agreeing to restrict the sale of its facial recognition database in the state. This case highlighted the importance of state-level biometric privacy laws, such as the Illinois Biometric Information Privacy Act (BIPA), in regulating the collection and use of biometric data (Illinois General Assembly, 2020).

Internationally, Clearview AI has faced scrutiny from data protection authorities. In 2022, the UK Information Commissioner's Office (ICO) fined the company for failing to comply with data protection laws. Similar actions have been taken by authorities in Australia, Canada, and several European countries. These cases underscore the global nature of the challenges posed by AI-driven biometric data collection and the need for international cooperation in addressing these issues.

The legal challenges faced by Clearview AI highlight several key issues in AI regulation:

1. *Consent and data collection:* The company's practice of scraping images without consent raises questions about the adequacy of current consent mechanisms in the age of AI.
7. European Parliament. (2024). *Regulation of the European Parliament and of the Council on Artificial Intelligence (Artificial Intelligence Act) and Amending Certain Union Legislative Acts.* Brussels: European Parliament. https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=CELEX:32024R1689
8. European Parliament and Council. (2016). Regulation (EU) 2016/679 (General Data Protection Regulation). *Official Journal of the European Union*, 119(1). https://eur-lex.europa.eu/eli/reg/2016/679/oj
9. European Commission. (2022). *Artificial Intelligence and the Future of Education*. https://ec.europa.eu/commission/presscorner/detail/en/ip_22_6338
10. Fair, L. (2023). *Coming face to face with Rite Aid's allegedly unfair use of facial recognition technology*. Federal Trade Commission. https://www.ftc.gov/business-guidance/blog/2023/12/coming-face-face-rite-aids-allegedly-unfair-use-facial-recognition-technology
11. Gebru, T. (2022). Race and gender. In M. D. Markus & S. Wu (Eds.). *The Oxford handbook of ethics of AI* (pp. 301-313). Oxford University Press. https://www.oxfordhandbooks.com/view/10.1093/oxfordhb/9780190067397.001.0001/oxfordhb-9780190067397
12. Guan, H., Yap, P. T., Bozoki, A., & Liu, M. (2024). Federated Learning for Medical Image Analysis: A Survey. *Pattern Recognition*, 151, 1-19. Available at: https://doi.org/10.1016/j.patcog.2024.110424
13. Google AI Blog. (2024). *Federated Learning: Collaborative Machine Learning without Centralized Training Data*. https://research.google/blog/federated-learning-collaborative-machine-learning-without-centralized-training-data/
14. Global Partnership on Artificial Intelligence (GPAI). (n.d.). About GPAI. https://gpai.ai/about/
15. Harvard Business Review. (2022). *Why You Need an AI Ethics Committee.* https://hbr.org/2022/03/why-you-need-an-ai-ethics-committee
16. Hill, K. (2020). *The Secretive Company That Might End Privacy as We Know It*. New York Times. https://www.nytimes.com/2020/01/18/technology/clearview-privacy-facial-recognition.html
17. Illinois General Assembly. (2020). *Artificial Intelligence Video Interview Act*. 820 ILCS 42/1 et seq. https://www.ilga.gov/legislation/ilcs/ilcs3.asp?ActID=4015&C hapterID=68
18. JPMorgan Chase & Co. (2024). *Contract Intelligence (COiN) Platform*. https://www.jpmorgan.com/onyx/coin-system
19. Jacobs, A., & Wallach, H. (2021). Measurement and Fairness. *Proceedings of the 2021 ACM Conference on Fairness, Accountability, and Transparency* (pp. 375-378). ACM. https://dl.acm.org/doi/10.1145/3442188.3445901
20. Lore, F., et al. (2023). An AI framework to support decisions on GDPR compliance. *Journal of Intelligent Information Systems*, 61, 541-568.
21. Lavenue, L. M., Myles, J. M., & Schneider, A. N. (2022). *Evaluating China's New "Internet Information Service Algorithmic Recommendation Management" Regulations.* Finnegan. https://www.finnegan.com/en/insights/articles/evaluating-chinas-new-internet-information-service-algorithmic-recommendation-management-regulations.html

22. Lewis, M. (2024). *Existing and Proposed Federal AI Regulation in the United States*. https://www.morganlewis.com/pubs/2024/04/existing-and-proposed-federal-ai-regulation-in-the-united-states
23. Merchant, R. M., Asch, D. A., et al. (2019). Evaluating the predictability of medical conditions from social media posts. *PLOS ONE*, 14, e0215476. https://journals.plos.org/plosone/article?id=10.1371/journal.pone.0215476
24. Mayo Clinic. (2023). *Mayo Clinic Develops Artificial Intelligence-Enabled ECG Algorithm to Predict Weak Heart Pump.* https://newsnetwork.mayoclinic.org/discussion/spotlight-on-early-detection-of-3-heart-diseases-using-ecg-ai/#:~:text=Mayo%20Clinic%20has%20developed%20ECG,cardiomyopathy%20(HCM)%20and%20more
25. Organisation for Economic Co-operation and Development. (2024). *OECD AI Principles*. https://oecd.ai/en/ai-principles.
26. OpenAI. (2023). *GPT-4 Technical Report*. San Francisco: OpenAI. https://arxiv.org/abs/2303.08774
27. Obermeyer, Z., Powers, B., Vogeli, C., & Mullainathan, S. (2019). Dissecting Racial Bias in an Algorithm Used to Manage the Health of Populations. *Science*, 366, 447-450. https://www.science.org/doi/10.1126/science.aax2342
28. Pozen, D. E. (2005). The Mosaic Theory, National Security, and the Freedom of Information Act. *Yale Law Journal*, 115, 628-635.
29. Roberts H., et al. (2021). The Chinese Approach to Artificial Intelligence: An Analysis of Policy, Ethics, and Regulation. *AI & SOCIETY*, 36, 59-77.
30. Savaglio, C., & Barbuto, V., et al. (2023). Opportunistic Digital Twin: an Edge Intelligence enabler for Smart City. *ACM Transactions on Sensor Networks*, 1-22.
31. Sezgin, E., & McKay, I. (2024). Behavioral health and generative AI: a perspective on future of therapies and patient care. *Nature Human Behaviour*, 25, 1-6.
32. Smith, A. (2023). *Using Artificial Intelligence and Algorithms*. Federal Trade Commission. https://www.ftc.gov/business-guidance/blog/2020/04/using-artificial-intelligence-algorithms
33. Schuler, S. A. (2023). *Dynamic Consent: a mechanism for engagement*. University of Oxford. https://bmcmedethics.biomedcentral.com/articles/10.1186/s12910-023-00724-1
34. Songdo International Business District. (2023). *CityBrain: Ushering in a New Era of Smart Urban Governance.* Press Release. https://doi.org/10.18235/0007012
35. Shanafelt, T. D., et al. (2012). Burnout and Satisfaction With Work-Life Balance Among US Physicians Relative to the General US Population. *Archives of Internal Medicine*, 172(18), 1377-1380. https://jamanetwork.com/journals/jamainternalmedicine/fullarticle/1351351
36. United Nations Human Settlements Programme. (2023). *International Guidelines On People-centered Smart Cities.* UN-Habitat Urban Impact Publications. https://unhabitat.org/international-guidelines-on-people-centred-smart-cities
37. U.S. Census Bureau. (2024). *2020 Census Disclosure Avoidance System Updates*. Washington, D.C.: U.S. Census Bureau.

Received: 04.06.2024
Revised: 1: 17.07.2024
Accepted: 20.08.2024
Published: 30.08.2024

https://doi.org/10.36719/2706-6185/38/56-64

**Orxan Mehmanoğlu**
Astara, Azərbaycan
o.eliyev11124@gmail.com

# Dövlətçilik və hərb tarixinin kratoloji platformasında fərd anlamının sosial-psixoloji konyukturası

**Xülasə**

Məqalədə fərd anlayışının rəhbər olaraq özündə birləşdirən konsepsiyaları ətrafında diferensial təhlillər aparılmışdır. Rəhbərlik metamodelinin əsas tələblərindən dördü (fərdi xarakter, müdriklik, natiqlik, liderlik) üzərində aparılan araşdırmalarda çoxsaylı referanslarla paralel olaraq ictimai-siyasi realizm fonunda gerçəkliklər təhlil edilmiş, geniş müqayisələr aparılmışdır.

***Açar sözlər:*** *konyuktura, kratologiya, replikasiya, dispozisiya, elokvensiya*

**Orkhan Mehmanoghlu**
Astara, Azerbaijan
o.eliyev11124@gmail.com

# The Socio-Psychological Conjuncture of the Meaning of the Individual in the Cratological Platform of Statehood and Military History

**Abstract**

In the article, differential analyzes were conducted around the concept of the individual as a leader. In the studies conducted on four of the main requirements of the management metamodel (individual character, wisdom, eloquence, leadership), in parallel with numerous references, realities were analyzed against the background of social and political realism, and extensive comparisons were made.

***Keywords:*** *conjuncture, cratology, replication, disposition, eloquence*

## Giriş

Dövlətçilik və hərb tarixinin zaman çarxı fonunda replikasiyası idarəçilik elementləri ətrafında müxtəlif yönümlü nəzəriyyə və mülahizələrin formalaşmasına gətirib çıxartdı. İdarəçilik tezisləri isə ailə mikromodelindən başlayaraq, qəbilə, tayfa, xalq, millət, dövlət və s. metamodellərin təmərküzləşməsinə səbatlı şəkildə nüfuz edə bilmiş, onların ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Məhz idarəçiliyin mahiyyətini hakimiyyət və dövlətçilik sferasında tədqiq edən kratologiya (yun. “kratos” – hakimiyyət, “loqos” – elm, yəni hakimiyyət və ya dövlətçilik haqqında elm) elmi XX əsrin ikinci yarısından başlayaraq tədqiqat obyektini genişləndirmiş, konkret dispozitiv xarakterə sahib olmuşdur. Qədim çağlardan dövrümüzədək təşəkkül tapmış idarəçilik təbəddülatları birmənalı şəkildə “fərd” anlamı ətrafında cəmləşmişdir. Sosial-psixoloji ibarəsi isə təxminən bu qaydadadır: “Fərd – özünəməxsus psixoloji xüsusiyyətləri olan, heç kəsə oxşamayan təbii varlıq deməkdir. Fərd anlayışının evristik mənası da elə bundan ibarətdir” (Bayramov, 2002, s. 129). Qeyd etdiyimiz definisiyada ən böyük gerçəklik meyarı məhz “özünəməxsus”luq kəlamında gizlənmişdir. İdarəetmə, quruluş, siyasi və digər formalar kontekstində zaman-zaman püxtələşən müxtəlif təyinatlı “tiya”lar (avtokratiya, demokratiya, bürokratiya və s.), “izm”lər (imperializm, despotizm, şovinizm, kapitalizm və s.), həmçinin digər kateqoriyaların yetkinləşməsində fərdin “özünəməxsusluğu”nun kompetentliyi əhəmiyyətli rola malikdir. Kompetentliyin tədqiqi isə yalnız vahid kontekst fonunda mümkündür. Qədim Çinə məxsus Daosizm təlimində “qoşa doğulma” adlanan konsepsiyada deyildiyi kimi:

“İnsanlar gözəlliyin nə olduğunu öyrənəndə, eybəcərliklər də üzə çıxır.

İnsanlar xeyirxahlığın xeyirli əməl olduğunu biləndə, pisliklər də meydan sulamağa başlayır.

Creative Commons Attribution-NonCommercial 4.0 International (CC BY-NC 4.0) 

Odur ki yoxluq və varlıq bir-birindən törəyir, asan və çətin şeylər bir-birini doğurur, uzun və gödək nəsnələr bir-birini tamamlayır, hündür və alçaq nə varsa, hamısı bir-birinə sarı meyillənir; biri digərini tanımağa kömək edir" (Lao, 2020, s. 14).

Bu yönümdən kratoloji platformada fərd anlayışının sosial-psixoloji konyukturası kifayət qədər polisentrik nəsnələrə sahibdir. Fərd anlayışını ümumiləşdirilmiş mənada transformasiyaya uğratmaqla rəhbər (başçı, xan, imperator, sərkərdə, zabit, prezident və s.) metamodeli ilə əvəz edə bilərik. İnvent analiz baxımından bunlardan bir neçəsini nəzərdən keçirək.

**Fərdi xarakter.** Fərdin sahib olduğu sosial-psixoloji dəyərlər sistemidir. Sistemin substrat faktorlarına təhtəlşüur elementləri də daxildir. Hər hansı vəzifə və rütbəyə təqdimat platformasında mütləq nəzərə alınmalıdır. Fərdi xarakter anlamı kifayət qədər spontan teoremlərə malikdir. Qədim Çin mütəfəkkiri Konfutsinin söylədiyi kimi: "Adamların qəlbindəkilərini bilmək təbiəti dərk etməkdən çətindir. İnsan qəlbi dağlardan və çaylardan təhlükəlidir. Təbiətin yazı və payızı, qışı və yayı, səhəri və axşamı var. İnsan sifəti isə bilinməzdir, hisslər çox dərinlərdə gizlənib" (Rüstəmov, 2010, s. 47).

Psixoanaliz elminin banisi olan məşhur alim Ziqmund Freyd isə idarəçilik prototiplərini hər bir insanın təhtəlşüurunda mövcud olması ilə yanaşı, böyük bir hərəkətverici qüvvə olduğunun isbatına çalışmışdır.

Bəşər tarixinin ən zəkalı insanı sayılan, 40-dan çox dil bilən, 11 yaşında Harvard Universitetində 4 müxtəlif fənn üzrə tələbələrə dərs deyən alim Uilyam Ceyms mövcud dinamikanı daha da konkretləşdirmişdir: "Dünyanı idarə etmək sizin altşüurunuzdadır" (Koç, 2018, s. 355).

Sadalanan referansların təhlili isə ekspressiv əhəmiyyət kəsb edən paradoksal məntiq formalaşdırır: "İdarəçilik konsepsiyası hər bir fərdin özünəməxsus sosial-psixoloji dəyərlər sistemi üzərində hakimliyindən başlayır. "Gələcək rəhbərimizin böyüdüyü ailə mühiti, ictimai-sosial atmosfer, fərdi xarakter, təhtəlşüurunda olan komplekslər və digər diferensiallaşmalar birmənalı şəkildə şərh etdiyimiz "hakimlik" metamodelində birləşməlidir. İfadəyə metamodel deməklə qətiyyən yanılmamışıq. Bəşəriyyət tarixinin bütün dövrlərində, xüsusilə çağımızda həqiqi kimliyimizi tanımaq, özümüzü dərk etmək, hiss və düşüncələrimizi mənəvi-əxlaqi prinsiplər üzərində qurmaq sanki nadir bir tapıntıya çevrilmişdir. Dövlət idarəçiliyi fonunda baş verən azğınlıq, despotizm, vəhşilik, qəddarlıq və digər reallıqların başlıca səbəblərindən biri də məhz sadaladığımız ibarələrdir. Dünyaca məşhur hind filosofu Oşo isə bu gerçək aporiyaları özünəməxsus tərzdə ifadə etmişdir: "Pulu sevirsənsə, pul kimi olacaqsan. Evini sevirsənsə, yavaş-yavaş əşyaya dönəcəksən. Nəyi sevirsənsə ona çevriləcəksən. Sevgi əlkimyadır. Heç vaxt səhv şeyləri sevmə, çünki səni dəyişdirəcək. Heç nə sevgi qədər insanı dəyişdirə bilməz. Səni göylərə, yuxarılara qaldıracaq, sənin fövqündə olan şeyləri sev" (Osho, 2022, s. 108).

Mərhum Oşodan gətirdiyimiz sitatı çağdaş ictimai-siyasi realizm fonunda daha da genişləndirmək istərdik: vəzifə və rütbəni sevmək, kreslonu sevmək, imperial təfəkkür və azğınlığı sevmək, terror və müharibə fonunda insanların məhvini sevmək və sonda bütün dünyaya şəxsi istəklər formatında hökm etməyi sevmək (nəzərə almaq lazımdır ki, istək və sevgi hüdudsuz, sərhədsiz parametrlərə malikdir). Sadaladıqlarımızın yekun nəticəsi isə e. ə. VI əsrə aid qədim misralara məxsusdur:

"Dünyaya hökm etmək, onu dəyişdirmək istəyən adam görəndə, bilirəm ki, məqsədinə çatmayacaq.

Dünya ilahi nəsnədir, onu yenidən qurmaq olmaz.

Dünyanı dəyişdirmək istəyən məhv edəcək onu.

Ətəyindən yapışanlar onu itirəcək" (Lao, 2020, s. 93).

Qeyd etmək vacibdir ki, rəhbərin fərdi xarakterində olan müsbət keyfiyyətlərin dominantlığı digər çatışmazlıqların uğurlu bir şəkildə kompensasiyasını təmin etmək imkanına da malikdir. Aksiomatik sübut olaraq müasir Rusiyanı ilk dəfə əzəmətli dövlətə çevirən nəhəng rus imperatoru I Pyotru misal göstərmək olar. Sadə mətnlərin yazılışında belə imperatorun orfoqrafik səhvlər etməsi tarixi bir gerçəklikdir. Amma bu onun mövqeyinə qətiyyən təsir etmədi. Rəhbər olduğu müddətdə Rusiya özünün akme (tərəqqi) dövrünü yaşadı. Ölkənin bütün sahələrində (hərbi, elmi, iqtisadi, kənd təsərrüfatı, daxili və xarici siyasət və s.) sanki həmin infrastrukturların bilicisi olaraq kreativ

islahatlar apardı. “Xalqın atası” titulunu qəbul etməsə də, vəsiyyətnaməsində belə əsl vətənpərvər kimi Rusiyanın daimi olaraq yüksəlişi üçün çözüm variantlarını böyük siyasi ustalıqla bəyan etdi. Sadaladığımız nailiyyətlər yalnız bir nöqtəyə köklənir: fərdi xarakter. Səmimiyyət və işgüzarlığı, hakimiyyətin ədalət prinsipi üzərində qurulması, mütəmadi olaraq sadə geyim libasında rəiyyət içində gəzməklə kəndlilərlə söhbət etməsi, onların yaşayış tərzi ilə dərindən maraqlanması, tanımasınlar deyə hətta əsgər qiyafəsində ordu sıralarında xidmət edən əsgərlərlə müxtəlif yönümlərdə ünsiyyət yaratması, həmçinin digər prinsiplər onu nəhəng və əzəmətli etdi.

**Müdriklik.** Şüurun ali, təkmilləşmiş formulasına daxil olub, intellekt, erudisiya, intuisiya və digər təməl meyarları özündə birləşdirir. Rəhbər şəxsin ayrılmaz komponentlərindən biri olaraq şərh edilməlidir. Müdrikliyin formalaşmasında aparıcı nüanslardan biri bilik və empirik təcrübədir. Bilik anlamının zəruri şərti isə mütaliədir. İslami nöqteyi-nəzərdən mülahizəmizin doğru olduğunu düşünürük: “Hira mağarasında olarkən İslam dünyasının qurucusu olan Məhəmməd Peyğəmbərə Tanrının mələklər vasitəsilə verdiyi ilk göstəriş isə hamımıza əbədi bir örnək olmalıdır: “Oxu!” Deməli, verilən əmr vahid elmin, biliyin, bütövlükdə konseptual yaşamın özüdür. Hamımızın utopiya adlandırdığı mücərrəd bir cəmiyyəti, dövləti, bilavasitə ensiklopedik insan faktorunu yalnız bu sözlə qurmaq, yaratmaq mümkündür: “Oxu!” Bu söz, fikrimizcə, bütün zahiri və batini elmlərin müqəddiməsidir” (Mehmanoğlu, 2022, iyul 21). Məqsədyönlü oxuma prosesi empirik təcrübənin formalaşmasında əlahiddə əhəmiyyətə malikdir və müdriklik zəminində idarəetmənin uğurlu nəticələrinə gətirib çıxarır. Dünya tarixinin həqiqətləri fonunda bir neçə faktı nəzərdən keçirməyimizi daha məqsədəuyğun hesab edirik.

Tarixin ən müvəffəqiyyətli hərbi komandanlarından biri olan Makedoniyalı İsgəndərin təhsili ilə Aristotelin məşğul olması hamımıza bəllidir. Təbabət, fəlsəfə, əxlaq, məntiq, idəriçilik hətta incəsənət üzrə dərindən biliyə yiyələnmiş İsgəndəri nəhəng edən məhz bunlardır. Ən azından özünün dediyi kimi: “Həyata gəldiyimə görə Filipə, ləyaqətli həyat sürdüyümə görə Aristotelə borcluyam” (Makedoniyalı İsgəndərin həyatından, 2010, 22 mart).

Ərəb və fars dillərini mükəmməl bilən, rəssamlıq, xəttatlıq, din, əxlaq və digər elmlərə yiyələnən, Azərbaycan ədəbiyyatında geniş poetik təfəkkürü ilə fərqlənən, Azərbaycan türkcəsini tarixdə ilk dəfə dövlət dili kimi formalaşdıran nəhəng sərkərdəmiz Şah ismayıl Xətai də məhz bu sıraya daxildir. Bir çox mənbələrdə vahid Azərbaycan dövlətinin iyerarxik struktur formasında yaradılması da məhz onun adıyla bağlıdır. Zəngin ensiklopedik biliyə və erudisiyaya malik sərkərdənin “Nəsihətnamə” məsnəvisinin şərhi yalnız milli psixoloji etalon və determinasiyası fonunda mümkündür.

İsrail dövlətinin əsasını qoymuş baş nazir Ben-Qurion, 1948-ci ildə Ərəb dövlətləri liqası tərkibində olan 5 ölkə ilə eyni vaxtda müharibə aparmaqdan necə sağ qalacağı sualını kifayət qədər aydın bir şəkildə cavablandırmışdır: “Möcüzələrə inanmayanlar realist deyillər” (Adizes, 2019, s. 264).

“Möcüzəli realizm” ifadəsini yalnız cənab Ben-Qurion işlədə bilərdi. Təhsilə olan intəhasız sevgisi ilə keşməkeşli həyat tərzinin simbiozu, yaratdığı vahid ideologiyanın rəhni olmaqla yanaşı, müdrik bir şəkildə İsrail xalqının əzəmətini birləşdirdi. Nəticə olaraq, İsrail dövlətinin postmüharibə və sonrakı dövrlərində idarəçilik seqmentində yaratdığı elmi-texniki tərəqqi hamımıza bəllidir.

Bilik və empirik təcrübənin müdriklik fonunda vəhdəti qardaş türk xalqının şanlı tarixində də dərin iz buraxmışdır. Osmanlı imperiyasının hökmdarı Sultan Murad, oğlu Sultan Mehmetin təhsili ilə bağlı həyata keçirdiyi qeyri-adi qərarı dövrümüzdə cəmiyyət üçün gerçək mentorluq təcəssümü olmalıdır.

“Sultan Mehmet uşaq vaxtı olduqca nadinc və ipə-sapa yatmayan bir xarakterə sahibdi. Dərs vaxtı etdiyi dəcəlliklə daim müəllimi Ağaşəmsəddini hövsələdən çıxarırdı. Müəllimi ona əsəbləşən zaman isə “mən padşahın oğluyam, mənə heç nə edə bilməzsən”, – deyə hədələyirdi. Müəllimi utandığından şahzadə Mehmetin atası Sultan Murada heç nə deyə bilmirdi. Ancaq günlər keçdikcə şahzadə Mehmetin hərəkətləri artıq dözülməz hal almışdı. Bir gün müəllim bu barədə Sultan Murada bildirdikdə padşah onun qulağına nə isə pıçıldadı. Eşitdiyi sözlərdən heyrətə gələn müəllim “mən bunu edə bilmərəm” dedisə də, Sultan Murad “mən sənə əmr edirəm”, – söylədi.

Növbəti gün dərs zamanı şahzadə Mehmet yenə də dəcəllik edib müəllimi hədələyən zaman qəfil qapı açıldı və Sultan Murad içəri daxil oldu. Müəllim Ağaşəmsəddin ayağa durub padşahın üstünə qışqıraraq "bu nə tərbiyəsizlikdir, qapını döymədən içəri girirsən?!" dedi və Sultana şillə vurdu. Sultan Murad yazıq halda üzr istədi və otaqdan çıxdı. Daha sonra qapını döyüb, icazə istəyərək yenə də içəri girdi. Şahzadə Mehmetin heyrətdən gözləri kəlləsinə çıxmışdı. Çox güvəndiyi atası Sultan Murad müəlliminin qarşısında aciz durmuşdu. Həmin hadisədən sonra balaca şahzadə bir daha dəcəllik etməyə cürət etmədi və dərslərini yaxşı oxumağa başladı" (AZƏRTAC).

Sultan Muradın özünəməxsus müdrikliyi fonunda bilik və empirik təcrübəsi işə yaradı. Özünə şapalaq vurdurmaqla o, hər şeydən əvvəl övladı üçün təhsilin zəruriliyini çox yaxşı başa düşürdü. Baş vermiş hadisənin nəticəsi isə heç kimə sirr deyil. Belə ki, gələcəyin sultanı olan Şahzadə Mehmet nəticədə ana türkcəsindən başqa 8 dildə (ərəb, fars, ivrit, italyan, yunan, latın, serb, keldani dilləri) danışmağı öyrəndi, həyatı boyu elm və incəsənət adamlarını ətrafına topladı, dini və dünyəvi elmlərə yiyələndi, 21 yaşında isə İstanbulu fəth edərək müasir Türkiyənin şanlı tarixinin qurucularından biri olmaqla "Fateh" ləqəbini qazandı.

Qeyd etmək vacibdir ki, rəhbərin bilik və empirik təcrübəsi ilə xarakterində olan neqativ ünsürlərin vəhdəti nəticə etibarilə böyük kataklizmlərə gətirib çıxara bilər. Sahib olduğu "müdrik-lik" rupor qismində natamamlıq kompleksi, o cümlədən eqonu yemləməklə barbar, diktator, despot və s. anlamları formalaşdırır. Empirik nümunə olaraq alman dövlət xadimi Adolf Hitlerin adını çəkməyi zəruri hesab edirik. Səfalət içində böyüməyinə baxmayaraq, rəssamlıq, memarlıqla maraqlanmış, nəticəsi uğursuz olsa belə, İncəsənət akademiyasına imtahan vermişdir. Sahib olduğu bacarıq və fəlsəfi ideyaları "Mənim mübarizəm" avtobioqrafik əsərində mətinliklə ortaya qoymuş, elm və təhsilin vacibliyini isbata yetirmiş, hətta rəhbərlik etdiyi Almaniya Nasional Sosialist Fəhlə partiyasının proqramına daxil etmişdir. Proqramda deyilir: "Hər çalışqan alman şagirdinin ali təhsilə yiyələnməsini, məktəb və təhsil sistemini dəyişdirmək istəyirik. Şagirdlərə praktik bir şəkildə nələrin öyrədilməsi müəyyənləşdirilməli, onlara vətəndaşlıq vəzifələri öyrədilməli və yaxşı bir vətəndaş olmaları təmin edilməlidir. Əgər yoxsul bir şagirdin valideyni, uşağın təhsil xərclərini qarşılaya bilmirsə, bu xərcləri hökumət qarşılamalıdır" (Mustafazadə, 2015, s. 160).

Birinci Dünya müharibəsinin xarabalıqlarından çıxmış Almaniyanı təmərküzləşmiş dövlət kimi yenidən bərpa etmiş, müxtəlif təyinatlı infrastrukturların dirçəlişini həyata keçirmişdir. Hadisə və proseslərin gerçək müqəddiməsi isə bundan sonra başlayacaqdı. Versal müqaviləsindən imtina etməklə faşizm diktaturasını gücləndirilməsi, siyasi terrora gestapo xətti ilə start verilməsi, şovinizm (alman ali irqinin yaradılması) fonunda Holokost və digər soyqırımlar, o cümlədən sürgünlərin icrası... nəhayətdə isə ərazi iddiası fonunda İkinci Dünya müharibəsinə start verməsi. XX əsrin ən dəhşətli diktatoru böyük qurbanların, insan tələfatlarının bilavasitə səbəbkarı oldu. Zənnimizcə, Hitlerin portfoliosuna nəzər salmaqla xarakterində olan təhtəlşüur çapıqlarını aşkar şəkildə görmək mümkündür: ailədaxili çəkişmə və ziddiyyətlər, anasının vəfatında keçirdiyi iztirab, ailə şəfqətindən məhrumiyyət, nəhəng eqosuna sarılmış qisas hissi, Birinci Dünya müharibəsinin iştirakçısı olaraq formalaşan qəddarlıq duyğuları və s. İdarəçilik nəsnələrinin şəxsi tələbat və eqo üzərində qurulması nəhayətdə Hitleri tənəzzülə apardı.

**Natiqlik.** İbtidai icma çağlarından bəri rəhbər anlamının başlıca meyarlarından biri olmuşdur. Eramızdan əvvəlki minilliyə aid qədim Misir papirusunda deyilir: "Nitq – güclü silahdır, nitq insanı xilas edir, lakin o, həm də məhv edə bilər" (Rüstəmov, 2010, s. 36).

Natiqlik formulu nitq mədəniyyəti, o cümlədən ritorikanın digər elementlərini özündə birləşdirir. Kollektiv və ya cəmiyyəti öz ətrafında birləşdirmək, auditoriyanın diqqətini özünə cəlb etmək, fikir və düşüncələrini tam təfsilatı ilə çatdırmaq, polemika və digər etaplar üzrə təhlillər aparmaq bu formulaya daxildir. Bütün sferalarda natiqlik sənət və ya elm olaraq 3 əsas komponent üzərində (etos – əxlaq, pafos – duyğulara xitab və ya təsirləndirmə, loqos – fakt, statistika) qurulmuşdur. İntonasiya, jest, xitab və digər elementlər də natiqliyin özülünə daxildir. Bu yönümdən məşhur fransız fonetiki Qrammo söyləmişdir: "Cümlələri əmələ gətirən sözlər onun yalnız "skeletidir", bu skeletə hərəkət və həyat verən intonasiyadır. İntonasiya müəyyən bir məzmunun özünəmüvafiq forma ilə ifadə olunması vasitələrindən ən başlıcasıdır" (Nəzəroğlu, 2022, s. 132).

XX əsrin sonlarında dünyada TED abreviaturası çərçivəsində həyata keçirilən replikasiyalar isə ritorika elminin konseptual əzəmətini və zəruriliyini tam şəkildə təsdiqlədi.

Natiqlik elminin müddəalarına yiyələnmiş alman dövlət xadimi Adolf Hitler "Mənim mübarizəm" avtobioqrafik əsərində yazırdı: "Bilirəm ki, adamların rəğbətini yazılı sözdən daha çox şifahi nitqlə qazanmaq olar. Dünyadakı istənilən böyük hərəkat böyük natiqlərə borcludur" (Bayramov, 2020, s. 109).

SSRİ-nin paytaxtı olan Moskvanı işğal edəcəyi təqdirdə Hitler məhz Levitanı Kremlin zəngli saatından asdıracağını özünə söz vermiş və ilk görülməli işi olduğunu hesab edirdi. Bəs kim idi bu Levitan? Radionu kütləvi silaha çevirən, "Sovetin dəmir səsi" kimi tanınan radio verilişləri komitəsinin diktoru. Ecazkar səsi və nitqi ilə bütün ordu, hətta dövləti belə arxasınca apara biləcək elokvensiyaya malik bir şəxsiyyət. İki dəfə sovet ittifaqı qəhrəmanı olan marşal Rokossovski Levitanın natiqlik qabiliyyətini və səsindəki gücü atıcı diviziyanın göstəricilərinə bərabər olduğunu söyləmişdir.

Rəhbərin natiqlik qabiliyyəti onun fərdi xarakterik göstəriciləri ilə birgə mükəmməl uzlaşmaq xüsusiyyətinə malikdir. ABŞ ordusunun nəhəng sərkərdələrindən biri olan genaral Corc S. Pattonun İkinci Dünya müharibəsi dönəmində şəxsi heyət qarşısında çıxışı əyani bir isbatdır. O demişdir: "Müharibə bitəndən və evə qayıdandan sonra deyə biləcəyiniz bir şey var. Bundan 20 il sonra nəvəniz dizinizin üstündə sobanın yanında oturub, İkinci Böyük Dünya müharibəsində nə etdiyinizi soruşacaq. O zaman, Tanrıya şükürlər olsun ki, yalandan öskürüb, nəvənizi bir dizinizin üstündən o birisinin üstünə keçirib: "Belə də, baban Luizanada mal tövləsi təmizləyirdi", – deməyəcəksiniz. Xeyr, cənab, siz düz onun gözlərinin içinə baxa-baxa deyə bilərsiniz: "Oğul, sənin baban möhtəşəm Üçüncü Ordu və Corc Patton adlı it oğlu itlə bərabər vuruşurdu" (Bayramov, 2020, s. 132).

Şübhəsiz, general rütbəsində olan zabitin şəxsi heyət qarşısındakı nitqində özünə "it oğlu it" deməklə müraciəti ilk baxışda qəribə və yumoristik təsir bağışlayır. Amma mətnin çoxsaylı təkrar oxunuşunda biz söyüşün təməlində belə qətilik və böyük inamın yaratdığı ecazkarlığın şahidi oluruq. Zənnimizin təsdiqi üçün xarizmatik və çılğın xarakterli generalın portfoliosunda bir neçə əsas məqamlara diqqət yetirək: ABŞ ordusu tarixində tanklarla aparılan taktiki döyüş strategiyasının yaradıcı müəlliflərindən biri, II Dünya müharibəsindəki nailiyyətlərinə görə ABŞ-ın "borclu" olduğu nəhəng sərkərdələrdən biri, sonda isə uzaq məsafəyə qaçışı da özündə birləşdirən və kompleks xarakterli idman növü sayılan beşnövçülük üzrə olimpiya çempionatının mükafatçısı. Bütün bunların təsdiqinə rəğmən biz bu fenomenal şəxsiyyət haqqında ən azından bir şeyi də tam cəsarətlə əlavə edə bilərik: Sən demə "it oğlu it", itin özündən belə bərk qaçırmış.

**Liderlik.** Rəhbərin funksional xidməti fəaliyyətinin əsas hissəsidir. Liderlik anlayışının özü belə bir çox elm sahələrinin geniş tədqiqat obyektidir. Zənnimizcə liderlik anlayışının fundamental tələbatlar sırasına qərəzsiz mövqe (ədalət) və mənəvi-əxlaqi dəyərlər daxildir. Bütün hallarda mövcud komponentlər toplusu liderlik adlanan kulminasiya nöqtəsində birləşir. Qədim Çinin "Hərb sənəti" traktatında deyilir: "Əgər sərkərdənin ağlı yoxdursa, o, rəqibi qiymətləndirə və lazımi taktikanı işləyib hazırlaya bilmir; əgər onun qərəzsizliyi (ədaləti) yoxdursa, o, digərlərinə əmr verə və tabeçiliyində olanları arxasınca apara bilmir; onun humanistliyi yoxdursa, o, kütləsləri özünə cəlb edə və əsgərləri özünə bağlaya bilmir; onun cəsarəti yoxdursa, onda hər hansı hərəkətə keçmək və döyüşə girmək üçün qərara gələ bilmir; əgər o ciddi deyildirsə, onda güclünü özünə tabe etdirə və kütləni idarə edə bilmir. Bu beş keyfiyyətə tam malik olan sərkərdənin təcəssümüdür" (U-Tszin, 2009, s. 178).

Sitatdan göründüyü kimi, rəhbər üçün liderlik anlayışı heç də kabinetdə oturub sahib olduğu vəzifənin ləzzətini yaşamaq, təkəbbürlü şəkildə tabeçiliyində olanlarla istədiyi kimi rəftar etmək, rüşvət və klançılıq fonunda püxtələşmək deyildir. Liderlik anlayışının daha oxşar bir müstəvidə universal şərhini isə orta əsrlərdə yaşamış ensiklopedik alim Nəsirəddin Tusi söyləmişdir: "Ölkə sahibi olmaq istəyənin 7 xisləti olmalıdır: birinci – atalıq, ikinci – alicənablıq, üçüncü – mətinlik, dördüncü – tam əzm, beşinci – səbirli olmaq, altıncı – var-dövlət, yeddinci – sadiq və əməlisaleh köməkçilər" (Tusi, 1989, s. 210).

İstinad baxımından liderliklə bağlı ədəbiyyat siyahısını istənilən qədər artırmaq mümkündür. Nəhayətdə isə bütün anlamlar ədalət və əxlaqi-mənəvi dəyərlərdə toplanır. Ədalət anlayışının ən

səbatlı izahı isə müqəddəs səmavi kitab olan Qurani-Kərimdə bərqərar olmuşdur. Ən-Nisa surəsinin 135-ci ayəsində deyilir: “Ey iman gətirənlər! (Şahidliyiniz) sizin özünüzün, ata-ananızın, yaxın qohumlarınızın əleyhinə olsa belə, ədalətdən möhkəm yapışan Allah şahidi olun! (Əleyhinə şahidlik edəcəyiniz şəxs) istər dövlətli, istər kasıb olsun, hər halda Allah onların hər ikisinə sizdən daha yaxındır. Nəfsinizin istəyinə uyub haqdan üz çevirməyin! Əgər dilinizi əyib-büzsəniz və ya (doğru şəhadət verməkdən, yaxud ümumən şahidlikdən) boyun qaçırsanız, (bilin ki,) Allah etdiyiniz işlərdən xəbərdardır” (Bünyadov, 1997, s. 99).

Dünya tarixinin ən böyük sərkərdələrindən biri sayılan U-tszı haqqında ibrətamiz hekayə isə əxlaqi-mənəvi dəyərlər fonunda müasir cəmiyyət üçün liderlik baxımından gerçək bir etalon olmalıdır. Hekayədə deyilir: “U-tszı Vey knyazlığında qəbul olunaraq onun ordusunun başında durdu, o, özünü “Lyu tao”-nun tələb etdiyi kimi apardı: o, ordudakı lap sonuncu əsgərin geyindiyi kimi geyinir, əsgərlərinin də yediyi yeməklə qidalanır, heç bir örtük sərmədən quru yerdə yatır, yürüş zamanı piyada gedir, arabadan istifadə etmirdi; əsgərlərin götürdüyü yürüş payından o da götürür, hərbi həyatın bütün çətinlik və ağırlığını əsgərlərlə bərabər bölüşürdü. Heç nə onun əsgərlərə olan qayğısının qarşısını ala bilməzdi. Bir dəfə əsgərlərdən birində çiban çıxmışdı və o, keçib getmək bilmir, əziyyət verirdi. Bunu görən U-tszı çibanı deşir və oradakı irinin hamısını sorub çıxarır. Bu, əlbəttə ki, bütün qoşunu riqqətə gətirir. Bununla bağlı xəbər xəstə əsgərin anasına çatdıqda isə, qadın acı göz yaşları tökür. Bunu görən qohumları soruşurlar ki, o niyə ağlayır. Qadın cavab verir: “Mənim mərhum ərim orduda xidmət edərkən, onun da bədənində çiban çıxır və o da heç cür sağalmırmış. Bu zaman onun baş komandanı şişmiş yaranı çərtərək, içərisindəki irinin hamısını sorub. Mənim ərim bu cür qayğıdan son dərəcədə təsirlənir və rəisinə borcunu qaytarmaq üçün səy göstərir, fikirləşmədən vuruşun ən qaynar yerinə atılır və nəticədə öldürülür. Mən indi qorxuram ki, oğlum da öldürüləcək” (U-Tszin, 2009, s. 326).

## Nəticə

- Kratoloji platformada təhlil etdiyimiz dörd nəsnə (fərdi xarakter, müdriklik, natiqlik, liderlik) idarəçilik metamodelinin zəruri əhəmiyyət kəsb edən tərkib hissələrindən biridir. Onların hər biri digərilə qarşılıqlı əlaqəli olub sinenergetik gerçəkliyə malikdir. Rəhbərin vəzifə və rütbəyə namizədlik məqamlarında mütləq qaydada rəhbər tutulmalı, meydana çıxa biləcək problemlərə resessiv reaksiya verilməməlidir.
- Fərdi xarakter idarəçilik sferasının müqəddiməsidir. Uğurlu və davamlı müvəffəqiyyət birmənalı şəkildə neqativ ünsürlərin istisnası fonunda mümkündür. Neqativ ünsürlər isə hadisə və proseslərin sonunda peşmançılıq, böyük sarsıntı, intihar və digər nəticələri özündə ehtiva edir. Belə ki, politologiya tarixində əxlaqsızlığın simvolu, satqın, rüşvətxor, avantürist, intriqa tanrısı kimi tanınan, Fransanın xarici işlər naziri olmuş məşhur dövlət xadimi Taleyran ömrünün son illərində qələmə aldığı memuarında yazırdı: “Budur səksən üç il ötüb keçdi... Nə qədər qayğı. Nə qədər həyəcan. Nə qədər bədxahlıq təlqin etmişəm. Və bütün bunların nəticəsi böyük fiziki və mənəvi yorğunluq, gələcək qarşısında ruh yüksəkliyinin kəskin aşağı düşməsi və keçmişə nifrətdir” (Tarle, 2017, s. 278).

Bu yönümdən rəhbər seçimi insan xarakterinin hərtərəfli tədqiqi və analizi ətrafında konkretləşdirilməlidir. Şübhəsiz, bütün bunlar uzunmüddətli müşahidə və tədqiqat sayəsində mümkündür. İnsan xarakterinin spesifik psixoloji sezintilərini məşhur hind filosofu Oşo isə lətifəyə istinad formasında özünəməxsus tərzdə ifadə etmişdir: “Bir nəfər şeytan geyimində Hallouen bayramına gəlməyə hazırlaşırdı. Yolda yağışa düşdü və daldalanmaq üçün qaçıb kilsəyə girdi. Bu vaxt kilsədə Şükran günü mərasimi keçirilirdi. Şeytan kostyumunu görən mərasimçilər qapı və pəncərələrdən çıxıb, arxaya baxmadan qaçmağa başladılar. Bu zaman bir xanım kresloya ilişdiyi üçün qaça bilməyib yerində qaldı. Şeytan paltarındakı kişi yaxınlaşanda qadın ona yalvarıb-yaxarmağa başlayaraq dedi: “Şeytan, mən iyirmi ildir ki, bu kilsənin üzvüyəm və bütün mərasimlərində iştirak etmişəm, əslində isə bu illərdə ancaq sənin tərəfində olmuşam” (Osho, 2021, s. 14).

- Müdrikilik anlamı geniş mənada təkcə rəhbərin deyil, hər bir fərdin gerçək hədəfi olmalıdır. Böyük təfəkkür və zəngin düşüncələrə sahib olma, aqillik, dərin elm və helmə yiyələnmək, nəhayətdə isə özünü dərk etmək. Bəzi mənbələrdə müdriklik hiyləgərlik, biclik, fəndgirlik, şəxsi ambisiyalarını ustalıqla və heç kimin sezə bilmədiyi bir tərzdə irəli çəkmək və s. anlamlarda da istifadə edilir. Bu aspektdən məşhur italyan mütəfəkkiri Makiavelli söyləmişdir: “Hökmdar heyvanlardan ikisinə oxşamalıdır: şirə və tülküyə. Şir tələdən qorxur, tülkü canavarlardan, deməli, insan tülkü kimi tələdən yayınmağı, şir kimi də canavarları qorxutmağı bacarmalıdır. Kim yalnız şirə oxşayırsa, o, tələni görməyə bilər. Burdan belə çıxır ki, müdrik hökmdar, əgər vəd etdiyi vəd onun maraqlarına ziyan gətirirsə və əgər bu vədi yerinə yetirməyə daha ehtiyac yoxdursa, sözünün üstündə durmaya bilər və durmamalıdır da” (Makiavelli, 2008, s. 102).

Tanınmış amerikalı publisist Robert Qrin müəllifi olduğu “Hakimiyyətin 48 qanunu” əsərində mahiyyət etibarilə eyni düşüncələri paylaşır. 33-cü qanunda deyilir: “Hər kəsin zəiflikləri, qala divarında boşluqları var. İnamsızlıq, nəzarət olunmayan emosiyalar və ya arzular, bir də ola bilsin ki, kiçik gizli əyləncələr bunlara aiddir. Hər necə olsa da, zəiflikləri aşkar edəndə, onu öz xeyriniz üçün istifadə edərək, işgəncə silahına çevirin” (Qrin, 2014, s. 178).

Referans nöqtələrini artırmaq kifayət qədər mümkündür. Çağdaş siyasi-iqtisadi realizm fonunda isə hər iki istinadı tamamilə doğru hesab edirik. Dünyada baş verən proseslərin (müharibələr, qlobal böhranlar, iğtişaşlar və s.) əksəriyyəti bilavasitə “müdriklik” fonunda həyata keçirilir. Bütün nəticələr məhz bu qənaətimizdə yekdilləşir: Müdriklik dövlətin çirkin xarakterli maraqları da daxil olmaqla rəhbərin şəxsi eqo və təhtəlşüur nəsnələrini yemləmək üçün əvəzsiz bir silahdır.

Şübhəsiz, belə müdrikliklə müəyyən zaman çərçivəsində uğurlu nəticələr, iftixar dolu qələbələr əldə etmək mümkündür. Amma bu cür müdrikliyin sonunu aksiomatik olaraq 2 standart permanentdə təsəvvür edirik: Taleyransayağı qənaət və məhvə aparan deqradasiya. Əlavə olaraq, bu cür müdrikliyin prelüdiyası müstəvisində fransız filosofu Montedən sitat olaraq göstərdiyimiz yekun mülahizəsi nə qədər yumoristik səslənsə də, böyük bir nəsihət olmalıdır:

“Au plus esleve throne du monde si ne sommes assis quesus nostre cul”.

“Yer üzündəki ən yüksək hökmdarlıq taxtında da biz dalımızla otururuq” (Alain, 2019, s. 143).

- Natiqlik fonunda rəhbərin şəxsi idarəçilik üslubu və xüsusiyyətlərinin formalaşması mahiyyət etibarilə zəruri bir gerçəklikdir. Fikir və ideyaların dolğun şəkildə ifadəsi, kollektivi, cəmiyyəti vahid ideya ətrafında birləşdirmək və digər nüanslar nailiyyət baxımından natiqlik seqmentinin ayrılmaz hissəsidir. Təyin olunmuş mövzular üzrə preventiv tədbirlərin icrası (materialın tərtibat prinsipləri, planlaşdırma və qeydlərin aparılması və s.) ritorik prosesin daha da mükəmməlləşdirir. Nəticədə isə rəhbər şəxs fərdi uğur alqoritminə daha bir rəng çaları qatmış olur. Bu baxımdan ədəbiyyat üzrə nobel mükafatı almış ilk və yeganə dövlət başçısı olan dünya şöhrətli siyasi xadim Uinston Çörçilin fenomenal ritorikası gerçək bir nümunədir. Belə ki, yaxın həmkarı Çörçili yaşadığı evində ziyarət etməyə gələn ABŞ prezidenti Franklin Ruzvelt hər halda dostunun yuyunmağından xəbəri yox idi. Hər şey isə məhz bundan sonra başladı: “Vanna otağının qapısında Ruzvelti görən Çörçill lüt-üryan vannadan çıxıb durur və geniş natiqlik jesti ilə söyləyir: “Böyük Britaniya Baş nazirinin Birləşmiş Ştatların prezidentindən gizlədiləsi heç nəyi yoxdur” (Boris, 2019, s. 456).

Şübhəsiz, vanna otağında cənab Çörçilin kreativ bir şəkildə fiziki çılpaqlıqla dövlət siyasətini mükəmməl şəkildə assosiasiya etməsi, özlüyündə xoş bir təbəssüm yaratsa da, operantlıq baxımından dərin bir mənaya malikdir. Mənası isə budur: Ritorikanın möcüzəsi...

- Rəhbər anlayışının idarəçilik fonunda pik nöqtəsi liderlikdir. Fərd anlayışının bütün reformik cizgiləri bu nöqtədə birləşir. Sosial toplumları öz ətrafında səfərbər etmək qətiyyən primordial xarakter daşımamalıdır. Ədalətlilik analyışı ilə mənəvi-əxlaqi dəyərlərin vəhdəti idarəçilik platformasında dayanıqlı sütunlar formalaşdıraraq fərd anlayışını tarixin gerçək əbədiyyətinə qovuşdurur. Bu əbədiyət isə sosial toplum anlayışının fövqündə dayanmaqla ümumbəşəri şəxsiyyət ehkamını formalaşdırır. Yaşadığımız dövr, həmçinin gələcək nəslin inkişaf perspektivləri üçün bu dahi liderlər, sərkərdə və rəhbərlər, ölkə başçıları örnək nöqteyi-nəzərindən hamı üçün dispozitiv məşəl rolunu oynamalıdır. Çağımızda liderlik məşəlinin təcəssümü fonunda müasir Azərbaycan

dövlətinin qurucusu olan ümummilli liderimiz Heydər Əliyevin idarəçilik platformasındakı kreasionizmini misal göstərə bilərik.

"O, ölkədə baş verən siyasi çaxnaşma, ərazi işğalı, dəfələrlə edilən təhdid və digər neqativ hadisələr fonunda müstəqil Azərbaycan Respublikasını vahid bir şəkildə formalaşdırdı. Azərbaycan dövlətini və xalqını bütün dünyaya suveren bir reform olaraq qəbul etdirdi. Torpaqlarımızın işğaldan azad olunmasını dəfələrlə çıxışlarında, sanki zamanı qabaqlayırmış kimi intuitiv olaraq bəyan etdi. Ümummilli liderin bu çıxışlarını isə birmənalı olaraq total yanaşma kontekstində milli şüur və etnopsixoloji ideyaların proloqu kimi qəbul etmək lazımdır" (Lao, 2017).

Qeyd etmək vacibdir ki, dövlətçilik tariximizin arxetipik konyukturasında azərbaycan xalqı dəfələrlə "müdriklik" ideyalarının hədəfinə çevrilmişdir. Retrospektiv təhlil baxımından rəngarəng çalarlara malik ekosistem, zəngin neft və qaz yataqları, müxtəlif təyinatlı təbii ehtiyatlar və digər milli-mədəni sərvətlərimiz ölkəmizin ekspansiv ideyalara uyğun işğalçılıq, soyqırımı, o cümlədən talançılıq siyasətinin meydanına çevirmişdir. Vahid Azərbaycan dövlətinin qurulması struktur baxımından tarixçilik şüurumuzda dəfələrlə təkrarlanmasına baxmayaraq, məhz ümummilli liderimizin sayəsində səbatlı şəkildə formalaşmışdır. Suveren ölkəmizin dünya miqyasında konsolidativ siyasətinin davamçısı olan İlham Əliyev ümummilli liderimizin platformasını tərəqqipərvər lider olaraq davam etdirmiş, 44 günlük vətən müharibəsi fonunda özünün söylədiyi kimi, "ata vəsiyyətinin təminatçısı" qismində ən böyük siyasətin məhz həqiqət olduğunu dünyaya isbatlamışdır. Yekunda, dünyada baş verən ictimai-siyasi realizm fonunda yaranmış neqativ təzahürləri ümumiləşdirilmiş təhlil baxımından eramızdan əvvəl I minilliyə aid qədim misralarla sonlandırmaq istəyirik:

"Mənim üç xəzinəm var, qoruduğum.
Birincisi, insansevərlikdir.
İkincisi, qənaətdir.
Üçüncüsü, başqalarından qabağa keçməyə cəhd etməməkdir.
İnsansevərlikdən cəsarət yaranır.
Qənaətdən – səxavət.
Təvazökarlıqdan – liderlik.
İndikilər insansevərliyi unudublar, lakin cəsarətli olmağa çalışırlar.
Qənaəti tərk ediblər, səxavətli olmağa çalışırlar.
Təvazökarlığa inanmırlar, amma birinci olmağa çalışırlar.
Bu, ölümdür" (Lao, 2017, s. 57).

## Ədəbiyyat

1. Bayramov, Ə. S., Əlizadə, Ə. Ə. (2002). *Psixologiya* (ali məktəblər üçün dərslik). ÇİNAR – ÇAP.
2. Lao, T. (2020). *Dao de dzin*. Qanun.
3. Rüstəmov, F. (2010). *Pedaqogika tarixi* (dərslik). Elm və təhsil.
4. Riçard, K. (2018). *80/20 prinsipi*. Qanun.
5. Osho. (2022). *Tale, azadlıq və ruh. Həyatın mənası nədir?* Qanun.
6. Mehmanoğlu, O. (2022, 21 iyul). *Elmi-dialektik dəyərlər və onların konseptual sublimasiyası.* Yeniyaz.az. www.yeniya.az/elmi – dialektik – deyerler – ve– onlarin – konseptual - sublimasiyasi
7. *Makedoniyalı İsgəndərin həyatından*. (2010, 22 mart). Kayzen.az. https://kayzen.az/makedoniyalı isgəndərin həyatından
8. Adizes, İ. K. (2019). *Dəyişikliyin idarə olunması*. TEAS Press.
9. AZƏRTAC. https://portal.azertag.az/az/node/7988
10. Mustafazadə, M. (2015). *Fürer orkestrinin son melodiyası* (tarixi araşdırma). XAN.
11. Nəzəroğlu, C. (2022). *Danışığınla həyatı qazan*. Qanun.
12. Məmmədov, A. (2012). *Avtoritar rejimlər və psixoloji portretlər*. Elgün.
13. Bayramov, Q. (2020). *Dünyanı dəyişən nitqlər*. Qanun.
14. U-TSZİN. (2009). *Hərb sənəti* (Qədim Çinin yeddi hərb qanunu). Zəkioğlu.

15. Nəsirəddin, T. (1989). *Əxlaqi-Nasiri*. Elm.
16. Bünyadov, Z. M., Məmmədəliyev, V. M. (1997). *Qurani-Kərim*. Qismət.
17. Tarle, Y. V. (2017). *Taleyran*. Qanun.
18. Osho. (2021). *Sufilər: yol adamları. Sufilər və sufi tarixi haqqında.* Qanun.
19. Makiavelli, N. (2008). *Hökmdar*. Qızıl Şərq.
20. Robert, Q. (2014). *Hakimiyyətin 48 qanunu*. Qanun.
21. Alain, D. B. (2019). *Fəlsəfənin təsəllisi*. Qanun.
22. Boris, T. (2019). *Böyük Çörçill*. Qanun.
23. Lao, T. (2017). *Daosizm. Dao de çinq.* İç bölümlər. Teas Press.
24. Mehmanoğlu, O. (2022, 15 aprel). *Siyasi və etnopsixoloji sferada müharibə anlamı.* Yeniyaz.az. www.yeniyaz.az/social – siyasi – ve – etnopsixoloji – sferada – muharibe anlami

Daxil oldu: 10.06.2024
Baxışa göndərildi: 05.07.2024
Təsdiq edildi: 01.08.2024
Çap olundu: 30.08.2024

## İÇİNDƏKİLƏR

**Nailə Mamayeva**
Azərbaycanda ailənin formalaşmasının sosial-psixoloji problemləri . . . . . . . . . . . . . . . . . . . . . . 7
**Şöhrət Məmmədova**
XIX əsrin sonu - XX əsrin əvvəlləri uşaq şeirində özünüifadə üsulları . . . . . . . . . . . . . . . . . .11
**Zemfira Babayeva**
Azərbaycanda fortepiano ifaçılığının yaranma tarixi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 16
**Təbriz Əliyev**
Azərbaycanda kapital bazarlarının inkişaf istiqamətləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .21
**Gülşən Mikayılova**
İbtidai sinif riyaziyyat kursunun təhsildə rolu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 26
**Şəhanə Əsgərova**
Bədii mətnlərdə üslubi fiqurların rolu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 31
**Şəfa Musayeva**
XIX əsrdə Yelizavetpol quberniyasında sənaye istehsalının inkişafı və ümumi vəziyyəti . . . . 36
**Shahmar Mirishli**
Ethical Implications of AI in Data Collection: Balancing Innovation with Privacy . . . . . . . . . 40
**Orxan Mehmanoğlu**
Dövlətçilik və hərb tarixinin kratoloji platformasında fərd anlamının Sosial-psixoloji konyukturası . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 56

İmzalandı: 27.08.2024
Onlayn çap: 30.08.2024
Formatı: 60/84, 1/8
H/n həcmi: 8,25 ç.v.
Sifariş: 789

---

aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az